**AZƏRBAYCAN RESPUBLİKASININ**
**DÖVLƏT STATİSTİKA KOMİTƏSİ**

Məlumatlardan istifadə edərkən Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə istinad etmək lazımdır.

# SOSİAL, İQTİSADİ İNKİŞAF

7

**YANVAR-İYUL**

**Azərbaycan Respublikasının**
**Dövlət Statistika Komitəsi**
**Məruzə № 7**
**13 avqust 2014-cü il**

## 2014-CÜ İLİN YANVAR-İYUL AYLARINDA ÖLKƏNİN İQTİSADİ VƏ SOSİAL İNKİŞAFININ MAKROİQTİSADİ GÖSTƏRİCİLƏRİ

2014-cü ilin yeddi ayının makroiqtisadi göstəricilərinin əvvəlki ilin yanvar-iyul aylarının nəticələri ilə müqayisəsi ölkənin həm iqtisadi və həm də sosial sahələrinin dinamik inkişaf etdiyini göstərir.

**Ümumi Daxili Məhsul** istehsalı 2013-cü ilin yanvar-iyul ayları ilə müqayisədə 2.4 faiz artaraq 34.0 milyard manat təşkil etmişdir. Əlavə dəyərin 45.5 faizi sənaye sahələrində, 11.4 faizi tikinti kompleksində, 9.8 faizi ticarət və pullu xidmət sahələrində, 5.0 faizi nəqliyyatda, 1.7 faizi informasiya və rabitə müəssisələrində, 4.9 faizi aqrar bölmədə, 14.6 faizi digər sahələrdə yaradılmışdır. Əhalinin hər nəfərinə orta hesabla 3621.3 manat məbləğində (4617.3 ABŞ dolları) əlavə dəyər istehsal olunmuş və ötən ilin müvafiq dövrü ilə müqayisədə 1.1 faiz artmışdır.

Əlavə dəyərin 56.8 faizi qeyri-neft sektorunda istehsal olunaraq əvvəlki ilin yanvar-iyul ayları ilə müqayisədə 6.8 faiz artmış, neft-qaz sektorunda isə 3.1 faiz azalmışdır. İqtisadiyyatın qeyri-enerji sektorunda 6.9 faiz artım müşahidə olunub.

2014-cü ilin yeddi ayında **sənaye** müəssisələri və bu sahədə fəaliyyət göstərən fiziki şəxslər tərəfindən 19.8 milyard manatlıq və ya əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 1.7 faiz az sənaye məhsulu istehsal olunmuşdur. Məhsulun 14.4 milyard manatı və ya 72.5 faizi mədənçıxarma bölməsində istehsal olunmuş, 24.9 milyon ton neft və 10.8 milyard kub metr əmtəəlik qaz hasil edilmişdir.

Sənayenin emal bölməsində 4.3 milyard manatlıq sənaye məhsulu istehsal olunmuşdur. Bölmədə qida məhsulları istehsalı 3.1 faiz, tütün məmulatları istehsalı 71.9 faiz, geyim istehsalı

42.9 faiz, hazır metal məmulatların istehsalı 14.4 faiz, tikinti materiallarının istehsalı 22.6 faiz, elektrik avadanlıqları istehsalı 17.1 faiz, avtomobil və qoşquların istehsalı 66.2 faiz, sair nəqliyyat vasitələri istehsalı 3.4 dəfə, mebel istehsalı 13.4 faiz, zərgərlik, musiqi, idman və tibb avadanlıqları istehsalı 62.5 faiz, maşın və avadanlıqların quraşdırılması və təmiri 20.6 faiz artmışdır. Qeyri-neft emal sənayesində 2.8 milyard manatlıq və ya keçən ilin müvafiq dövrünə nisbətən 3.3 faiz çox sənaye məhsulu istehsal olunmuşdur.

Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı bölməsində sənaye məhsullarının 5.3 faizi və ya 1051.9 milyon manat istehsal olunmuşdur. İstehsal olunmuş 12.5 milyard kVt.saat elektrik enerjisi əvvəlki ilin yeddi ayının səviyyəsini 3.5 faiz üstələmişdir.

Su təchizatı, tullantıların təmizlənməsi və emalı bölməsində məhsul istehsalı 2.9 faiz artmışdır.

Sənayenin qeyri-neft sektorunda məhsul istehsalı 4.4 faiz artmış, neft-qaz sektorunda isə 2.7 faiz azalmışdır.

**Aqrar** bölmədə avqustun 1-nə kimi payızlıq və yazlıq dənli və dənli paxlalı bitkilərin əkin sahəsinin 95.2 faizi, yaxud 952.2 min hektarı biçilmiş və həmin sahələrdən 2176.3 min ton məhsul götürülmüşdür. Orta hesabla hər hektardan əldə edilmiş məhsul keçən ilə nisbətən 3.8 sentner azalaraq 22.9 sentnerə düşmüşdür. Bundan əlavə, məhsulu toplanmış 3.7 min hektar qarğıdalı sahəsindən 13.7 min ton məhsul götürülmüşdür.

Yığım başlanandan sahələrdən 466.1 min ton kartof, 717.8 min ton tərəvəz, 325.1 min ton bostan məhsulları, 176.6 min ton meyvə və giləmeyvə, 3.2 min ton üzüm, 316.7 ton yaşıl çay yarpağı, 3.6 min ton dən üçün günəbaxan və 1.2 min ton tütün toplanmışdır.

Bu dövrdə 252.4 min ton, yaxud 2013-cü ilin yanvar-iyul aylarına nisbətən 1.7 faiz çox diri çəkidə ət, 1103.6 min ton (3.5 faiz çox) süd, 889.1 milyon ədəd (11.3 faiz cox) yumurta, 15.4 min ton (1.6 faiz çox) yun istehsal olunmuşdur.

Beləliklə, keçən illə müqayisədə kənd təsərrüfatının ümumi məhsulu 4.2 faiz azalmışdır.

Ölkədə **inşaat** işlərinin aparılması üçün bütün maliyyə mənbələrindən əsas kapitala 9075.5 milyon manatlıq, yaxud 2013-cü ilin müvafiq dövründəkindən 3.0 faiz çox vəsait yönəldilmişdir. Əsas kapitala cəlb olunmuş vəsaitin 6596.7 milyon manatından tikinti-quraşdırma işlərində istifadə olunmuş və müqayisə olunan dövrdə 13.0 faiz artmışdır. Əsaslı vəsaitin 67.7 faizi və ya 6140.7 milyon manatı məhsul istehsalı obyektlərinin tikintisinə sərf olunmuş, əsas kapitala yönəldilmiş vəsaitin 6.4 milyard manatını və ya 70.8 faizini daxili investisyalar təşkil etmiş və ötən ilki səviyyədən 2.4 faiz az, xarici investisiya 18.9 faiz yüksək olmuşdur.

Tikinti kompleksinə yönəldilmiş vəsait hesabına çoxsaylı obyektlərdə inşaat işlərinin aparılması ilə yanaşı bir sıra istehsal və qeyri-istehsal obyektləri istifadəyə verilmişdir. Yeddi ay ərzində 986.5 min kv.metr sahəsi olan yaşayış evləri, 3300 şagird yerlik ümumtəhsil məktəbləri, 672 yerlik məktəbəqədər təhsil müəssisələri, 200 çarpayılıq xəstəxana, **Bakı şəhərində** "Norm" sement zavodu, Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsinin yeni Gəmi inşası zavodu, Milli Konservatoriyanın yeni inzibati-tədris kompleksi, Azərbaycan Milli Elmlər Akademiyası Mərkəzi Kitabxanasının və "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzinin yeni binaları, Respublika İdman, Tibb, Diaqnostika və Reabilitasiya İnstitutunun binası, Suraxanı Günəş Elektrik Stansiyası, Sağlamlıq Mərkəzi, Milli Gimnastika Kompleksi, **Naxçıvan Muxtar Respublikasında** "Arpaçay-2" Su Elektrik Stansiyası, Su Anbarı və Sutəmizləyici Qurğular Kompleksi, Gənclər Mərkəzi, **Sumqayıt şəhərində** Azərbaycan kağız və karton istehsalat kombinatı, Yağ fabriki, Mis emalı zavodu, **Gəncə şəhərində** Metaltökmə və fasiləsiz yayma, Təzyiqlə emal və boyama zavodları, **Ağdaş rayonunda** Yem və Meyvə emalı zavodları, "Ağdaş" Elektrik yarımstansiyası, **Göygöl rayonunda** Olimpiya İdman Kompleksi, Gənclər Mərkəzi, **Qəbələ rayonunda** "Tufan" Dağ-Xizək Yay-Qış İstirahət Kompleksinin birinci mərhələsi, **Lənkəran rayonunda** Çörək istehsalı zavodu, **Şamaxı rayonunda** "Şamaxı Palace Platinum By Rixos" oteli və s. obyektlər istifadəyə verilmişdir.

Cari ildə inşaat işlərinin aparılması üçün dövlət büdcəsindən ayrılması nəzərdə tutulmuş 5413.6 milyon manat vəsaitin 3065.0 milyon manatından istifadə olunmuşdur.

2014-2018-ci illərdə regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramının icrası ilə əlaqədar 2014-cü ilin birinci yarısında ölkədə 65.1 min yeni, o cümlədən 52.8 min daimi **iş yeri** açılmışdır ki, bu da işsizlik səviyyəsinin aşağı salınmasına təsir edən əsas amillərdən biridir. Yaradılmış iş yerlərinin 69.3 faizi regionlarda, 83.9 faizi qeyri-dövlət sektorunda açılmışdır.

**Nəqliyyat** müəssisələri və avtomobil nəqliyyatı sahəsində fəaliyyət göstərən fiziki şəxslər tərəfindən yanvar-iyul aylarında 124.9 milyon ton, yaxud əvvəlki ilin müvafiq dövrünə nisbətən 2.5 faiz çox yük, 1004.9 milyon nəfər və ya 5.0 faiz çox sərnişin daşınmışdır. Yüklərin 9.8 faizi dəmir yolu nəqliyyatı, 56.2 faizi avtomobil nəqliyyatı, 4.6 faizi dəniz nəqliyyatı, 29.4 faizi boru kəmərləri ilə, sərnişinlərin 87.4 faizi avtomobil, 12.3 faizi metropolitenlə daşınmışdır

İlin əvvəlindən keçən yeddi ay ərzində **informasiya və rabitə müəssisələri** əhaliyə, müəssisə və təşkilatlara 862.3 milyon manatlıq xidmət göstərmişlər. 2013-cü ilin yanvar-iyuluna nisbətən informasiya və rabitə xidmətlərinin həcmi 12.4 faiz artmış, xidmətlərin 72.5 faizi əhaliyə göstərilmiş və əldə edilmiş gəlirin 78.6 faizi qeyri-dövlət sektorunun payına düşmüşdür.

Dövlət Gömrük Komitəsindən daxil olmuş məlumatlara əsasən yanvar-iyun aylarında 134 xarici ölkə ilə 15.3 milyard dollar məbləğində **ticarət əməliyyatları** həyata keçirilmişdir. Ticarət əlaqələrinin 9.2 faizi, yaxud 1411.3 milyon dollarlığı MDB üzvü dövlətləri ilə, 90.8 faizi və ya 13.9 milyard dollarlığı digər ölkələrlə aparılmışdır.

Altı ay ərzində 11.2 milyard dollarlıq məhsul ixrac olunmuş, onun 424.3 milyon dollarlığı MDB üzvü dövlətlərinə göndərilmiş, 96.2 faizi və ya 10.8 milyard dollarlığı isə digər xarici ölkələrin alıcılarının payına düşmüşdür.

Qeyri-neft məhsullarının ixracı altı ay ərzində 6.6 faiz azalmışdır.

Bu dövrdə ölkəmizə idxal edilmiş məhsulların həcmi 4124.6 milyon dollar təşkil etmişdir. Digər xarici dövlətlərdən idxal olunmuş malların dəyəri 3137.6 milyon dollar, MDB üzvü ölkələrindən isə 987.0 milyon dollar olmuşdur.

Xarici ticarət dövriyyəsinin 46.5 faizi Avropa İttifaqına daxil olan ölkələrlə, 9.2 faizi MDB-yə üzv dövlətləri ilə, 44.3 faizi digər ölkələrlə aparılmışdır.

Beləliklə, altı ay ərzində ölkəmizdən ixrac olunmuş malların həcmi ölkəyə gətirilmiş malların dəyərindən 2.7 dəfə çox olmuş və 7121.7 milyon dollar müsbət saldo yaranmışdır.

Yanvar-iyun aylarında ölkəyə 32.2 milyon dollar məbləğində humanitar və texniki yardım daxil olmuşdur.

Xam neft və qaz ixracı barədə ABƏŞ və Dövlət Neft Şirkəti tərəfindən təqdim olunmuş məlumatlar nəzərə alınmaqla xarici ticarət dövriyyəsi 20.6 milyard dollar, o cümlədən ixrac 16.5 milyard dollar təşkil etmiş, müsbət saldo 12.4 milyard dollar olmuşdur.

2014-cü ilin yanvar-iyul aylarında keçən ilin müvafiq dövrü ilə müqayisədə **əhalinin gəlirləri** 4.7 faiz artaraq 21.0 milyard manata, hər bir nəfərə düşən gəlirlər isə 3.4 faiz artaraq 2239.1 manata (orta hesabla ayda 319.9 manata) çatmışdır. Gəlirlərin 70.3 faizi son istehlaka, 9.1 faizi vergilərin, sosial sığorta və könüllü üzvlük haqlarının ödənilməsinə, 18.0 faizi isə əmanətlərin və kapitalın artırılmasına sərf edilmişdir.

2014-cü ilin yanvar-iyun aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin **orta aylıq əmək haqqı** əvvəlki ilin müvafiq dövrünə nisbətən 6.3 faiz artaraq 439.8 manat təşkil etmişdir. Sənaye, tikinti, nəqliyyat və s. sahələrdə işləyənlərin əmək haqqı daha yüksək olmuş və yanvar-iyun ayları ərzində sənayedə çalışanların orta aylıq əmək haqqı 705.6 manat, tikinti kompleksində işləyənlərin əmək haqqı 622.3 manat, nəqliyyat sahəsində işləyənlərin orta aylıq əmək haqqı 539.0 manat, informasiya və rabitə sektorunda isə 726.4 manat təşkil etmişdir. Əmək haqqı neft sektorunda 1777.6 manat, qeyri-neft sektorunda 406.0 manat, dövlət bölməsində 354.3 manat, özəl bölmədə 566.5 manat təşkil etmişdir

Ölkə vətəndaşlarının rifah halını yaxşılaşdırmaq, aztəminatlı əhalinin sosial müdafiəsini gücləndirmək məqsədi ilə müvafiq tədbirlər həyata keçirilir. 2014-cü il iyul ayının 1-i vəziyyətinə ölkədə **pensiyaçıların sayı** 1285.0 min nəfər olmuş və ölkə əhalisinin 13.6 faizini təşkil etmişdir. Təyin olunmuş aylıq pensiyaların orta məbləği 172.2 manata çatmış və orta əmək haqqının 39.2 faizini təşkil etmişdir.

Cari il iyul ayının 1-i vəziyyətinə 332.2 min nəfər sosial müavinət, 60.9 min nəfər birdəfəlik müavinət, 50.2 min nəfər Azərbaycan Respublikası qarşısında xüsusi xidmətlərə görə təqaüd və 126.6 min ailənin 555.2 min nəfər üzvü ünvanlı dövlət sosial yardımı almışdır.

Yeddi ay ərzində əhali **istehlak bazarından** 11.8 milyard manatlıq istehlak malları almış və göstərilmiş xidmətlərin müqabilində 3532.4 milyon manat ödəmişdir. 2013-cü ilin yanvar-iyul ayları ilə müqayisədə **əmtəə dövriyyəsi** 9.1 faiz, o cümlədən ərzaq məhsullarının satışı 3.5 faiz, qeyri-ərzaq mallarının satışı 15.0 faiz, **pullu xidmətlərin** həcmi 6.6 faiz artmışdır. 2014-cü ilin yanvar-iyul aylarında elektron ticarət dövriyyəsi vasitəsilə alıcılara 1350.0 min manatlıq qeyri-ərzaq malları və 145.6 min manatlıq ərzaq məhsulları satılmışdır.

İyul ayında iyun ayı ilə müqayisədə **istehlak mallarının qiymətləri və xidmət tarifləri** 0.8 faiz, o cümlədən ərzaq məhsullarının qiymətləri 2.0 faiz, ucuzlaşmış, xidmət tarifləri 0.2 faiz bahalaşmış, qeyri-ərzaq mallarının qiymətləri isə dəyişməmişdir. 2013-cü ilin müvafiq dövrünə nisbətən cari ilin yanvar-iyul aylarında istehlak mallarının qiymətləri və xidmət tarifləri 1.5 faiz, o cümlədən ərzaq məhsullarının qiymətləri 0.9 faiz, qeyri-ərzaq mallarının qiymətləri 3.6 faiz, xidmət tarifləri 0.4 faiz bahalaşmışdır.

2014-cü ilin yanvar-iyun aylarında **dövlət büdcəsinin** gəlirləri əvvəlki ilin eyni dövrü ilə müqayisədə 1.9 faiz azalaraq 9338.9 milyon manat, xərcləri 0.1 faiz azalaraq 8723.9 milyon manat təşkil etmişdir. Büdcənin profisiti 615 milyon manat və ya ümumi daxili məhsulun 2.1 faizi səviyyəsində olmuşdur. Büdcə gəlirlərinin 12.7 faizi hüquqi şəxslərin mənfəət (gəlir)

vergisindən, 16.4 faizi əlavə dəyər vergisindən, 4.9 faizi fiziki şəxslərin gəlir vergisindən, 4.3 faizi aksiz vergisindən, 3.9 faizi xarici iqtisadi fəaliyyətlə bağlı vergilərdən, 2.6 faizi digər vergilərdən daxil olmuş, 55.2 faizi isə vergi olmayan gəlirlər hesabına təmin edilmişdir.

Büdcə vəsaitlərinin 4087.2 milyon manatı (46.8 faizi) iqtisadiyyatın inkişaf etdirilməsinə, 987.4 milyon manatı (11.3 faizi) əhalinin sosial müdafiəsi və sosial təminatına, 904.0 milyon manatı (10.4 faizi) isə təhsil və səhiyyənin maliyyələşdirilməsinə xərclənmişdir. Xərclərin 21.2 faizini (1853.1 milyon manatını) əhaliyə əmək haqqı, pensiya və müavinət ödəmələri təşkil etmişdir.

2014-cü il iyul ayının 1-i vəziyyətinə ölkə iqtisadiyyatında istifadə olunan yerli **kreditlərin** həcmi 16.8 milyard manat olmuş və əvvəlki ilin müvafiq dövrünə nisbətən 21.6 faiz artmışdır. Kredit qoyuluşunun 34.5 faizi dövlət, 62.7 faizi özəl banklar, 2.8 faizi isə bank olmayan kredit təşkilatları tərəfindən həyata keçirilmişdir. Verilmiş kreditlərin 78.9 faizini uzunmüddətli kreditlər təşkil etmiş, 5.2 faizinin ödənilmə vaxtı keçmişdir.

2014-cü il iyul ayının 1-nə **əhalinin banklardakı əmanətlərinin** qalığı 6.7 milyard manat təşkil edərək əvvəlki ilin eyni dövrü ilə müqayisədə 13.5 faiz artmışdır. Əmanətlərin 4.2 milyard manatı və ya 62.5 faizi milli, 2.5 milyard manatlıq ekvivalenti xarici valyuta şəklində qoyulmuş və əvvəlki ilə nisbətən müvafiq olaraq 17.1 faiz və 7.9 faiz artmışdır.

İyul ayında 1 ABŞ dolları 0.78 manata, 1 Avro 1.06 manata, 100 Rusiya rublu 2.26 manata, yanvar-iyul aylarında isə müvafiq olaraq 0.78, 1.07 və 2.25 manata bərabər olmuşdur.

Ölkə **əhalisinin sayı** ilin əvvəlindən 51.8 min nəfər və ya 0.5 faiz artaraq 2014-cü ilin iyul ayının 1-i vəziyyətinə 9528.9 min nəfərə çatmışdır.

Cədvəl 1

**MAKROİQTİSADİ GÖSTƏRİCİLƏR**

| | 2014-cü ilin yanvar-iyul ayları faktiki, milyon manat | 2014-cü ilin yanvar-iyul ayları 2013-cü ilin yanvar-iyul aylarına nisbətən,faizlə | Məlumat üçün 2013-cü ilin yanvar-iyul ayları 2012-ci ilin yanvar-iyul aylarına nisbətən, faizlə |
|---|---|---|---|
| Ümumi daxili məhsul | 33 994,8 | 102,4 | 105,0 |
| o cümlədən qeyri-neft ÜDM-si | 19 315,0 | 106,8 | 110,5 |
| Sənaye məhsulu | 19 845,5 | 98,3 | 100,4 |
| o cümlədən qeyri-neft sənayesi | 4 029,5 | 104,4 | 103,4 |
| Əsas kapitala yönəldilmiş vəsaitlər | 9 075,5 | 103,0 | 123,3 |
| o cümlədən qeyri-neft sektoruna | 5 622,2 | 91,2 | 119,6 |
| Kənd təsərrüfatı məhsulu | 2 990,0 | 95,8 | 104,8 |
| Nəqliyyat sektorunda yük daşınması, mlyn. ton | 124,9 | 102,5 | 102,3 |
| o cümlədən qeyri-neft yüklərinin daşınması | 87,6 | 103,6 | 105,2 |
| İnformasiya və rabitə xidmətləri | 862,3 | 112,4 | 106,9 |
| Pərakəndə ticarət dövriyyəsi | 11 843,0 | 109,1 | 109,2 |
| Əhaliyə göstərilən pullu xidmətlər | 3 532,4 | 106,6 | 106,8 |
| Dövlət büdcəsinin gəlirləri | 9 338,9 [x)] | 98,1 [xx)] | 117,1 [xxx)] |
| Dövlət büdcəsinin xərcləri | 8 723,9 [x)] | 99,9 [xx)] | 122,8 [xxx)] |
| Dövlət büdcəsinin profisiti | 615,0 | - | - |

...ardı

| | 2014-cü ilin yanvar-iyul ayları faktiki, milyon manat | 2014-cü ilin yanvar-iyul ayları 2013-cü ilin yanvar-iyul aylarına nisbətən,faizlə | Məlumat üçün 2013-cü ilin yanvar-iyul ayları 2012-ci ilin yanvar-iyul aylarına nisbətən, faizlə |
|---|---|---|---|
| Əhalinin gəlirləri | 21 019,3 | 104,7 | 107,3 |
| Əhalinin hər nəfərinə düşən gəlirlər, manat | 2 239,1 | 103,4 | 105,9 |
| Orta aylıq əmək haqqı, manat | 439,8[x)] | 106,3 [xx)] | 107,1 [xxx)] |
| İstehlak qiymətlərinin indeksi | x | 101,5 | 102,1 |
| **Statistika məlumatı[1)]** Xarici ticarət dövriyyəsi, mlyn. ABŞ $ | 20 585,2[x)] | 93,8[3)] | x |
| o cümlədən: ixrac | 16 460,6[x)] | 98,4[3)] | x |
| ondan qeyri-neft məhsulu ixracı | 828,7[x)] | 93,4[3)] | 113,5[4)] |
| idxal | 4 124,6[x)] | 79,4[3)] | 114,1[4)] |
| **Gömrük məlumatı[2)]:** Xarici ticarət dövriyyəsi, mlyn. ABŞ $ | 15 370,9[x)] | 88,3[3)] | 104,8[4)] |
| o cümlədən: ixrac | 11 246,3[x)] | 92,2[3)] | 101,6[4)] |
| idxal | 4 124,6[x)] | 79,4[3)] | 114,1[4)] |

Qeyd:

[1)] Ölkə sərhədini keçərək faktiki ixrac olunmuş, lakin hesabat dövründə gömrük orqanlarında rəsmiləşdirilməyən xam neft və təbii qazın həcmi və statistik qiymətləndirilmiş dəyəri nəzərə alınmaqla.

[2)] Xam neft və təbii qaz ixracında gömrük rəsmiləşdirilməsi tarixi ilə bu məhsulların faktiki ixrac tarixi (ölkə sərhədini keçmə tarixi) üst-üstə düşmədiyi üçün ölkə üzrə ixracın ümumi həcminə ixrac edilmiş xam neft və təbii qazın hesabat dövründə gömrük orqanlarında yalnız rəsmiləşdirilən həcminə dair məlumatlar daxil edilmişdir.

[3)]2014-cü ilin yanvar-iyun ayları 2013-cü ilin yanvar-iyun aylarına nisbətən, müqayisəli qiymətlərlə;

[4)] 2013-cü ilin yanvar-iyun ayları 2012-ci ilin yanvar-iyun aylarına nisbətən, müqayisəli qiymətlərlə;

[x)] 2014-cü ilin yanvar-iyun ayları;

[xx)] 2014-cü ilin yanvar-iyun ayları 2013-cü ilin yanvar-iyun aylarına nisbətən;

[xxx)] 2013-cü ilin yanvar-iyun ayları 2012-ci ilin yanvar-iyun aylarına nisbətən.

# Ümumi Daxili Məhsul

2014-cü ilin yanvar-iyul aylarında ölkədə 34,0 milyard manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 2,4 faiz çox ümumi daxili məhsul istehsal olunmuşdur. Ümumi daxili məhsulun əhalinin hər nəfərinə düşən həcmi 3621,3 manat (4617,3 ABŞ dolları) təşkil edərək 1,1 faiz artmışdır.

Bu dövrdə iqtisadiyyatın qeyri-neft sektorunda əlavə dəyər 6,8 faiz artmış, onun ÜDM-də xüsusi çəkisi 56,8 faiz təşkil etmiş, neft-qaz istehsalı və emalı sahələrində isə 3,1 faiz azalmışdır.

Yanvar-iyul aylarında sənayedə 15,5 milyard manatlıq, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıqda 1,7 milyard manatlıq, tikintidə 3,9 milyard manatlıq, ticarət və nəqliyyat vasitələrinin təmiri üzrə xidmətlər sahəsində 2,6 milyard manatlıq, nəqliyyat və anbar təsərrüfatında 1,7 milyard manatlıq, turistlərin yerləşdirilməsi və ictimai iaşə xidmətləri sahəsində 743,5 milyon manatlıq, informasiya və rabitə xidmətlərində 564,5 milyon manatlıq, sosial və digər xidmətlər sahəsində isə 5,0 milyard manatlıq əlavə dəyər istehsal edilmişdir.

Məhsula və idxala xalis vergilər ÜDM-in 7,1 faizini təşkil etmişdir.

Cədvəl 2

# Ümumi daxili məhsul istehsalı

milyon manatla

| | Yanvar-iyul | | 2014-cü ilin yanvar-iyulu 2013-cü ilin yanvar-iyuluna nisbətən, faizlə |
|---|---|---|---|
| | 2014 | 2013* | |
| **Ümumi Daxili Məhsul** | **33994,8** | **32602,4** | **102,4** |
| **Məhsulların istehsalı** | **21005,5** | **20541,6** | **100,0** |
| o cümlədən: Sənaye | 15458,2 | 15352,1 | 97,9 |
| ondan: – mədənçıxarma sənayesi | 13332,6 | 13401,8 | 97,4 |
| – emal sənayesi | 1425,4 | 1276,3 | 101,7 |
| – elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 660,2 | 633,0 | 102,5 |
| – su təchizatı, tullantıların təmizlənməsi və emalı | 40,0 | 41,0 | 102,9 |
| Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 1665,3 | 1724,5 | 95,8 |
| Tikinti | 3882,0 | 3465,0 | 111,3 |
| **Xidmətlərin istehsalı** | **10585,6** | **9895,1** | **107,0** |
| o cümlədən: Ticarət; nəqliyyat vasitələrinin təmiri | 2599,2 | 2338,0 | 109,1 |
| Nəqliyyat və anbar təsərrüfatı | 1708,0 | 1695,7 | 105,7 |
| Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 743,5 | 639,6 | 115,1 |
| İnformasiya və rabitə | 564,5 | 544,8 | 112,4 |
| Sosial və digər xidmətlər | 4970,4 | 4677,0 | 104,7 |
| **Məhsula və idxala xalis vergilər** | **2403,7** | **2165,7** | **103,9** |
| **Deflyator** | **101,8** | **98,6** | **x** |

Cədvəl 3

# Neft və qeyri-neft sektorlarında ümumi daxili məhsul istehsalı

milyon manatla

| | Yanvar-iyul | | 2014-cü ilin yanvar-iyulu 2013-cü ilin yanvar-iyuluna nisbətən, faizlə |
|---|---|---|---|
| | **2014** | **2013*** | |
| **Ümumi Daxili Məhsul** | **33994,8** | **32602,4** | **102,4** |
| o cümlədən: | | | |
| – neft sektoru | 14679,8 | 14529,3 | 96,9 |
| – qeyri-neft sektoru | 19315,0 | 18073,1 | 106,8 |

*)2013-cü ilin göstəriciləri ilin yekun məlumatları əsasında dəqiqləşdirilmişdir.

Qrafik 1



Qrafik 2

## ÜDM istehsalı və qeyri-neft sektorunun dinamikası

əvvəlki ilin eyni dövrünə nisbətən, faizlə



## Sənaye

2014-cü ilin yanvar-iyul aylarında sənayedə istehsal olunmuş malların və göstərilmiş xidmətlərin həcmi 19,8 milyard manat təşkil etmişdir. Sənayenin qeyri-neft bölməsində əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 4,4 faizlik artım, neft bölməsində isə 2,7 faizlik geriləmə müşahidə olunmuşdur. Sənaye məhsulunun 72,5 faizi mədənçıxarma, 21,6 faizi emal, 5,3 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,6 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı bölmələrində istehsal olunmuşdur.

Özəl bölmədə istehsalın həcmi sənaye məhsulunun 80,6 faizini təşkil etmiş, ümumi istehsalın 93,4 faizi sənaye mallarının (əmtəələrin) istehsalı, 6,6 faizi isə sənaye xarakterli xidmətlərin göstərilməsi hesabına yaradılmışdır.

Cədvəl 4

**Sənaye məhsulu istehsalı indeksləri,** (sabit qiymətlərlə, faizlə)

| | Əvvəlki aya nisbətən | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, artan yekunla |
|---|---|---|
| **2013** | | |
| Yanvar | 107,2 | 100,1 |
| Fevral | 91,1 | 99,6 |
| Mart | 104,7 | 98,2 |
| Aprel | 100,8 | 99,3 |
| May | 106,0 | 99,8 |
| İyun | 94,2 | 100,3 |
| İyul | 100,5 | 100,4 |
| Avqust | 100,8 | 100,6 |
| Sentyabr | 87,7 | 100,9 |
| Oktyabr | 101,2 | 101,5 |
| Noyabr | 100,1 | 101,7 |
| Dekabr | 111,2 | 101,8 |
| **2014** | | |
| Yanvar | 99,8 | 96,0 |
| Fevral | 91,7 | 96,3 |
| Mart | 108,7 | 97,6 |
| Aprel | 99,5 | 98,0 |
| May | 104,3 | 97,9 |
| İyun | 93,3 | 97,6 |
| İyul | 106,2 | 98,3 |

## Mədənçıxarma sənayesi

Mədənçıxarma bölməsində istehsalın həcmi 14,4 milyard manat olmaqla əvvəlki ilin müvafiq dövrünün səviyyəsindən 2,1 faiz az olmuşdur.

Cədvəl 5

### Mədənçıxarma bölməsində istehsalın dinamikası

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | | | |
|---|---|---|---|---|
| | Mədənçıxarma sənayesi –cəmi | ondan: | | |
| | | xam neft və təbii qaz hasilatı | metal filizlərinin hasilatı | daş, qum, çınqıl, duz və digər mədənçıxarma sənayesi məhsullarının hasilatı |
| **2013-cü il** | | | | |
| Yanvar | 98,2 | 96,8 | 75,9 | 141,2 |
| Yanvar-fevral | 97,4 | 96,3 | 85,8 | 96,7 |
| Yanvar-mart | 96,2 | 95,4 | 82,3 | 80,0 |
| Yanvar-aprel | 97,7 | 96,9 | 81,7 | 80,0 |
| Yanvar-may | 98,4 | 97,9 | 75,2 | 76,4 |
| Yanvar-iyun | 99,1 | 98,5 | 75,8 | 72,2 |
| Yanvar-iyul | 99,2 | 98,6 | 83,0 | 68,9 |
| Yanvar-avqust | 99,6 | 99,2 | 91,7 | 64,5 |
| Yanvar-sentyabr | 99,7 | 99,3 | 96,8 | 65,8 |
| Yanvar-oktyabr | 100,8 | 100,3 | 99,9 | 68,5 |
| Yanvar-noyabr | 101,0 | 100,6 | 99,2 | 69,2 |
| Yanvar-dekabr | 100,7 | 100,4 | 97,3 | 72,5 |
| **2014-cü il** | | | | |
| Yanvar | 95,4 | 95,1 | 90,2 | 103,6 |
| Yanvar-fevral | 95,6 | 95,7 | 103,5 | 110,0 |
| Yanvar-mart | 96,6 | 97,1 | 127,3 | 104,5 |
| Yanvar-aprel | 97,8 | 98,5 | 140,1 | 104,6 |
| Yanvar-may | 97,8 | 98,2 | 158,7 | 101,6 |
| Yanvar-iyun | 97,3 | 97,5 | 152,2 | 105,1 |
| Yanvar-iyul | 97,9 | 98,1 | 136,2 | 103,3 |

Cədvəl 6

## Mədənçıxarma bölməsində istehsal olunmuş əsas məhsul növləri

| Məhsul növləri | 2014-cü ilin yanvar-iyul aylarında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | 01.08.2014-cü il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| **Xam neft və təbii qaz hasilatı** | | | |
| Xam neft (qaz kondensatı daxil olmaqla), min ton | 24 922,9 | 97,8 | 206,8 |
| Təbii qaz (əmtəəlik), milyon kub metr | 10 764,4 | 104,6 | 32,2 |
| **Metal filizlərinin hasilatı** | | | |
| Dəmir filizi, min ton | 55,2 | 76,0 | 37,6 |
| Mis filizləri və konsentratları, ton | 398,4 | 2,0 d. | 54,4 |
| Qiymətli metal filizləri və konsentratları, kq | 1 216,1 | 108,7 | 65,4 |
| o cümlədən : qızıl | 1 009,9 | 137,0 | 6,4 |
| gümüş | 206,2 | 54,0 | 59,0 |
| **Daş, qum, çınqıl, duz və digər mədənçıxarma sənayesi məhsullarının hasilatı** | | | |
| Tikinti qumu (ümumi), min ton | 794,0 | 66,6 | 75,8 |
| İnşaat üçün əhəng daşı, min ton | 245,4 | 114,8 | 1,0 |
| Çınqıl, qırmadaş, xırda çay daşı və çaxmaq daşı (ümumi), min ton | 864,8 | 78,9 | 218,8 |
| Duz (ümumi), min ton | 18,1 | 106,3 | 0,07 |
| Bentonit, min ton | 36,8 | 95,7 | 49,5 |

Qrafik 3

**Neft və qaz hasilatının aylar üzrə dinamikası**




# Emal sənayesi

Emal bölməsinin müəssisələri və fərdi sahibkarları (ev təsərrüfatlarının sənaye istehsalı da nəzərə alınmaqla) tərəfindən 4,3 milyard manat dəyərində və ya əvvəlki ilin müvafiq dövrünə nisbətən 2,5 faiz az məhsul istehsal olunmuş və sənaye xarakterli xidmətlər göstərilmişdir.

Cədvəl 7

**Emal sənayesində istehsalın dinamikası**

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | |
|---|---|---|
| | Emal sənayesi-cəmi | ondan qeyri-neft emal sənayesi |
| **2013-cü il** | | |
| Yanvar | 113,8 | 105,8 |
| Yanvar-fevral | 115,5 | 107,9 |
| Yanvar-mart | 110,4 | 104,1 |
| Yanvar-aprel | 110,2 | 102,2 |
| Yanvar-may | 108,8 | 101,6 |
| Yanvar-iyun | 109,0 | 100,3 |
| Yanvar-iyul | 108,0 | 99,8 |
| Yanvar-avqust | 106,0 | 98,4 |
| Yanvar-sentyabr | 105,3 | 101,8 |
| Yanvar-oktyabr | 105,0 | 100,6 |
| Yanvar-noyabr | 105,2 | 103,3 |
| Yanvar-dekabr | 105,8 | 105,1 |

…ardı

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | |
|---|---|---|
| | Emal sənayesi-cəmi | ondan qeyri-neft emal sənayesi |
| **2014-cü il** | | |
| Yanvar | 98,3 | 113,3 |
| Yanvar-fevral | 100,3 | 116,4 |
| Yanvar-mart | 100,8 | 110,2 |
| Yanvar-aprel | 95,9 | 104,2 |
| Yanvar-may | 93,3 | 101,3 |
| Yanvar-iyun | 95,2 | 101,7 |
| Yanvar-iyul | 97,5 | 103,3 |

Qrafik 4

## Emal sənayesi üzrə istehsal indeksinin dinamikası

(əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə)




Cədvəl 8

## Emal sənayesinin fəaliyyət növləri üzrə məhsul buraxılışı

| Fəaliyyət növlərinin adı | 2014-cü ilin yanvar-iyul aylarında istehsal edilmişdir, min manat | 2013-cü ilin müvafiq dövrünə nisbətən (sabit qiymətlərlə), faizlə |
|---|---|---|
| **Emal sənayesi –cəmi*** | 4 283 660,7 | 97,5 |
| o cümlədən:<br>qida məhsullarının istehsalı | 1 440 611,1 | 103,1 |
| içki istehsalı | 117 612,6 | 99,6 |
| tütün məmulatlarının istehsalı | 14 237,4 | 171,9 |

…ardı

| Fəaliyyət növlərinin adı | 2014-cü ilin yanvar-iyul aylarında istehsal edilmişdir, min manat | 2013-cü ilin müvafiq dövrünə nisbətən (sabit qiymətlərlə), faizlə |
|---|---|---|
| toxuculuq sənayesi | 19 954,8 | 87,1 |
| geyim istehsalı | 19 750,6 | 142,9 |
| dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı | 10 096,7 | 43,8 |
| ağac emalı və ağacdan məmulatların istehsalı | 3 231,5 | 105,1 |
| kağız və karton istehsalı | 14 655,2 | 87,0 |
| poliqrafiya fəaliyyəti | 14 586,4 | 61,9 |
| neft məhsullarının istehsalı | 1 486 916,4 | 90,4 |
| kimya sənayesi | 170 044,6 | 100,3 |
| əczaçılıq məhsullarının istehsalı | 2 004,6 | 106,4 |
| rezin və plastmas məmulatların istehsalı | 22 969,6 | 69,2 |
| tikinti materiallarının istehsalı | 249 205,2 | 122,6 |
| metallurgiya sənayesi | 166 154,9 | 85,5 |
| hazır metal məmulatlarının istehsalı | 64 637,0 | 114,4 |
| kompyuter və digər elektron avadanlıqların istehsalı | 31 125,2 | 74,0 |
| elektrik avadanlıqlarının istehsalı | 104 477,4 | 117,1 |
| maşın və avadanlıqların istehsalı | 179 116,8 | 97,1 |
| avtomobil və qoşquların istehsalı | 10 702,9 | 166,2 |
| sair nəqliyyat vasitələrinin istehsalı | 19 142,8 | 3,4 d. |
| mebel istehsalı | 17 597,2 | 113,4 |
| zərgərlik, musiqi, idman və tibb avadanlıqlarının istehsalı | 4 531,6 | 162,5 |
| maşın və avadanlıqların quraşdırılması və təmiri | 100 298,2 | 120,6 |

*) ev təsərrüfatlarında sənaye məhsulu istehsalının, habelə hüquqi şəxs yaratmadan fərdi sahibkar kimi sənaye sahəsində fəaliyyət göstərənlərin işinin qiymətləndirilməsi də nəzərə alınmaqla

**Qida, içki və tütün məmulatlarının istehsalı** müəssisələri tərəfindən 1572,5 milyon manat həcmində məhsul istehsal edilmiş, əvvəlki ilin yanvar-iyul ayları ilə müqayisədə qida məhsullarının istehsalında 3,1 faiz, tütün məmulatlarının istehsalında 71,9 faiz artım, içki istehsalında isə 0,4 faiz azalma müşahidə olunmuşdur.

Cədvəl 9

**Qida, içki və tütün məmulatlarının istehsalı sahələrində istehsalın dinamikası**

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | | |
|---|---|---|---|
| | Qida məhsullarının istehsalı | İçki istehsalı | Tütün məmulatlarının istehsalı |
| **2013-cü il** | | | |
| Yanvar | 100,9 | 99,2 | 154,7 |
| Yanvar-fevral | 102,2 | 110,1 | 162,3 |
| Yanvar-mart | 100,9 | 117,1 | 111,8 |
| Yanvar-aprel | 104,7 | 109,5 | 96,6 |
| Yanvar-may | 105,5 | 109,4 | 86,7 |
| Yanvar-iyun | 103,7 | 111,6 | 75,5 |
| Yanvar-iyul | 103,2 | 108,3 | 69,7 |
| Yanvar-avqust | 103,3 | 105,4 | 67,5 |
| Yanvar-sentyabr | 104,6 | 109,7 | 61,8 |
| Yanvar-oktyabr | 103,7 | 106,4 | 57,9 |
| Yanvar-noyabr | 102,8 | 114,7 | 63,7 |
| Yanvar-dekabr | 104,2 | 113,6 | 70,5 |
| **2014-cü il** | | | |
| Yanvar | 100,8 | 76,1 | 90,3 |
| Yanvar-fevral | 104,0 | 90,3 | 88,6 |
| Yanvar-mart | 102,5 | 91,0 | 99,1 |
| Yanvar-aprel | 103,2 | 92,1 | 111,6 |
| Yanvar-may | 102,1 | 95,5 | 136,8 |
| Yanvar-iyun | 102,4 | 97,3 | 160,3 |
| Yanvar-iyul | 103,1 | 99,6 | 171,9 |

Qrafik 5

## Qida məhsullarının istehsalının dinamikası
(əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə)




Cədvəl 10

## Qida, içki və tütün məmulatları sahələrində əsas məhsul növlərinin istehsalı

| Məhsul növləri | 2014-cü ilin yanvar-iyul aylarında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | 01.08.2014-cü il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| **Qida məhsullarının istehsalı** | | | |
| Ət (quş əti daxil olmaqla), min ton | 173,0 | 104,2 | - |
| Kolbasa məmulatları, ton | 1 059,6 | 98,8 | 4,3 |
| Üzlü süd, min ton | 489,0 | 101,1 | 0,1 |
| Qaymaq və xama, ton | 2 726,9 | 102,5 | - |
| Pendir və kəsmik, min ton | 27,9 | 101,0 | 0,07 |
| Kərə yağı, min ton | 13,9 | 108,0 | 0,02 |
| Cem və marmeladlar, ton | 5 816,5 | 99,9 | 0,0 |
| Təmizlənmiş duru bitki yağları, ton | 30 939,3 | 103,8 | 38,4 |
| Marqarin, min ton | 20,3 | 137,4 | - |
| Qənd və şəkər tozu, min ton | 246,1 | 108,4 | 1,0 |
| Çörək və çörək-bulka məmulatları, min ton | 434,9 | 100,5 | - |

…ardı

| Məhsul növləri | 2014-cü ilin yanvar-iyul aylarında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | 01.08.2014-cü il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| **İçki istehsalı** | | | |
| Şampan şərabı, min dkl | 4,5 | 47,4 | 4,0 |
| Araq, min dkl | 355,0 | 74,9 | 32,1 |
| Üzüm şərabı, min dkl | 347,9 | 105,7 | 621,8 |
| Pivə, min dkl | 3 284,7 | 87,8 | 255,8 |
| Likörlər, min dkl | 33,4 | 40,2 | 78,2 |
| Alkoqolsuz içkilər, min dkl | 16 670,9 | 101,4 | 515,2 |
| **Tütün məmulatlarının istehsalı** | | | |
| Fermentləşdirilmiş tütün, ton | 1 453,1 | 131,1 | - |
| Papiros və siqaretlər, milyon ədəd | 1 153,5 | 194,1 | 0,1 |

**Toxuculuq, geyim, dəri, dəridən məmulatlar və ayaqqabı istehsalı** müəssisələri tərəfindən 49,8 milyon manat həcmində məhsul istehsal edilmiş, əvvəlki ilin yanvar-iyul ayları ilə müqayisədə geyim istehsalında 42,9 faiz artım, toxuculuq sənayesində 12,9 faiz, dəri, dəridən məmulatlar və ayaqqabı istehsalında isə 56,2 faiz azalma müşahidə olunmuşdur.

Cədvəl 11

## Toxuculuq, geyim, dəri, dəridən məmulatlar və ayaqqabı istehsalı sahələrində istehsalın dinamikası

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | | |
|---|---|---|---|
| | Toxuculuq sənayesi | Geyim istehsalı | Dəri, dəridən məmulatlar və ayaqqabı istehsalı |
| **2013-cü il** | | | |
| Yanvar | 106,0 | 12,2 | 2,7 d. |
| Yanvar-fevral | 100,4 | 157,5 | 2,0 d. |
| Yanvar-mart | 81,3 | 131,1 | 179,1 |
| Yanvar-aprel | 80,8 | 108,7 | 159,3 |
| Yanvar-may | 74,0 | 91,2 | 151,5 |
| Yanvar-iyun | 76,2 | 88,5 | 141,0 |
| Yanvar-iyul | 70,6 | 90,4 | 136,5 |

…ardı

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | | |
|---|---|---|---|
| | Toxuculuq sənayesi | Geyim istehsalı | Dəri, dəridən məmulatlar və ayaqqabı istehsalı |
| Yanvar-avqust | 69,7 | 89,3 | 132,0 |
| Yanvar-sentyabr | 65,2 | 78,6 | 135,1 |
| Yanvar-oktyabr | 70,7 | 79,4 | 131,0 |
| Yanvar-noyabr | 75,3 | 80,1 | 135,1 |
| Yanvar-dekabr | 77,3 | 79,7 | 130,9 |
| **2014-cü il** | | | |
| Yanvar | 122,3 | 139,8 | 29,7 |
| Yanvar-fevral | 109,1 | 109,5 | 35,1 |
| Yanvar-mart | 108,7 | 107,0 | 38,2 |
| Yanvar-aprel | 103,5 | 116,6 | 39,3 |
| Yanvar-may | 97,5 | 117,4 | 32,4 |
| Yanvar-iyun | 92,4 | 130,9 | 33,9 |
| Yanvar-iyul | 87,1 | 142,9 | 43,8 |

Cədvəl 12

## Toxuculuq, geyim, dəri, dəridən məmulatlar və ayaqqabı istehsalı sahələrində əsas məhsul növlərinin buraxılışı

| Məhsul növləri | 2014-cü ilin yanvar-iyul aylarında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | 01.08.2014-cü il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| **Toxuculuq sənayesi** | | | |
| Pambıq lifi, ton | 2 971,4 | 163,8 | 2 394,4 |
| Hazır pambıq parçalar, min kv.m | 272,0 | 107,8 | 442,5 |
| Pambıq iplik, ton | 5 766,4 | 59,8 | 2 110,3 |
| Corab məmulatları, min cüt | 1 248,5 | 54,9 | 54,5 |
| Pambıq yataq ağları, min ədəd | 210,7 | 154,8 | 0,8 |
| Xalça və xalça məmulatları, kv.m | 338,8 | 81,1 | 1 439,0 |
| **Dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı** | | | |
| Dəri, min kv.m | 559,0 | 108,5 | 291,2 |
| Üstü dəridən olan ayaqqabılar, min cüt | 35,4 | 18,9 | 55,5 |

**Neft məhsullarının istehsalı** müəssisələri tərəfindən istehsalın həcmi 1486,9 milyon manat olmaqla əvvəlki ilin yanvar-iyul ayları ilə müqayisədə 9,6 faiz azalmışdır.

Cədvəl 13

### Neft məhsullarının istehsalı sahəsində əsas məhsul növlərinin buraxılışı

| Məhsul növləri | 2014-cü ilin yanvar-iyul aylarında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | 01.08.2014-cü il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| **Neft məhsullarının istehsalı** | | | |
| Avtomobil benzini, min ton | 683,9 | 83,8 | 66,7 |
| Neft-kimya sənayesində istifadə üçün benzin, min ton | 101,5 | 119,3 | 7,7 |
| Ağ neft, min ton | 387,3 | 92,1 | 42,5 |
| Dizel yanacağı, min ton | 1 333,5 | 90,2 | 93,0 |
| Sürtkü yağları, min ton | 26,9 | 100,0 | 11,2 |
| Neft bitumu, min ton | 149,6 | 82,4 | 13,3 |

**Kimya sənayesi, əczaçılıq məhsullarının, rezin və plastmas məmulatların istehsalı** müəssisələri tərəfindən 195,0 milyon manatlıq məhsul istehsal edilmişdir. Əvvəlki ilin yanvar-iyul ayları ilə müqayisədə kimya sənayesində 0,3 faiz, əczaçılıq məhsullarının istehsalında 6,4 faiz artım, rezin və plastmas məmulatların istehsalında isə 30,8 faiz azalma müşahidə olunmuşdur.

Cədvəl 14

## Kimya sənayesi, əczaçılıq məhsullarının, rezin və plastmas məmulatların istehsalı sahələrində istehsalın dinamikası

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | | |
|---|---|---|---|
| | Kimya sənayesi | Əczaçılıq məhsullarının istehsalı | Rezin və plastmas məmulatların istehsalı |
| **2013-cü il** | | | |
| Yanvar | 112,4 | 157,3 | 145,6 |
| Yanvar-fevral | 106,1 | 199,8 | 113,5 |
| Yanvar-mart | 100,6 | 173,4 | 99,7 |
| Yanvar-aprel | 107,6 | 169,9 | 83,7 |
| Yanvar-may | 103,4 | 151,3 | 69,3 |
| Yanvar-iyun | 106,5 | 138,6 | 76,2 |
| Yanvar-iyul | 112,7 | 130,7 | 84,2 |
| Yanvar-avqust | 115,4 | 119,2 | 87,9 |
| Yanvar-sentyabr | 118,6 | 119,4 | 92,7 |
| Yanvar-oktyabr | 118,4 | 115,8 | 95,2 |
| Yanvar-noyabr | 119,9 | 114,9 | 93,3 |
| Yanvar-dekabr | 119,5 | 112,8 | 92,7 |
| **2014-cü il** | | | |
| Yanvar | 126,0 | 40,5 | 56,2 |
| Yanvar-fevral | 115,5 | 56,0 | 56,0 |
| Yanvar-mart | 112,3 | 54,3 | 68,5 |
| Yanvar-aprel | 98,6 | 69,9 | 68,5 |
| Yanvar-may | 95,2 | 80,1 | 70,1 |
| Yanvar-iyun | 95,3 | 95,7 | 76,6 |
| Yanvar-iyul | 100,3 | 106,4 | 69,2 |

Qrafik 6

## Kimya sənayesi məhsulları istehsalının dinamikası
(əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə)




Cədvəl 15

## Kimya sənayesi, rezin və plastmas məmulatların istehsalı sahələrində əsas məhsul növlərinin buraxılışı

| Məhsul növləri | 2014-cü ilin yanvar-iyul aylarında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | 01.08.2014-cü il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| **Kimya sənayesi** | | | |
| Yod, ton | 121,7 | 77,3 | 36,8 |
| Barium sulfat, min ton | 26,1 | 67,0 | 4,0 |
| Propilen, min ton | 27,3 | 147,6 | 3,2 |
| Polietilen, min ton | 48,3 | 96,2 | 2,4 |
| İzopropil spirti (mütləq), ton | 1 688,3 | 17,5 | 714,6 |
| Lak-boya məmulatları, ton | 2 254,0 | 91,2 | 81,8 |
| **Rezin və plastmas məmulatların istehsalı** | | | |
| Bərk polietilen borular, borucuqlar, şlanqlar, qollar, ton | 9 528,5 | 60,5 | 986,0 |
| Liflə armaturlaşdırılmış sair bərk plastik borular, borucuqlar, qollar, şlanqlar, ton | 569,1 | 104,8 | 278,7 |
| Məsaməli poliuretan lövhələri və zolaqları, ton | 164,5 | 43,3 | - |
| Rezin lövhələr, təbəqələr və zolaqlar, ton | 14,1 | 116,5 | 154,7 |

…ardı

| Məhsul növləri | 2014-cü ilin yanvar-iyul aylarında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | 01.08.2014-cü il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| Polimer örtüklər, ton | 16,6 | 112,1 | 3,6 |
| Butullar, butulkalar və həcmi 2 litrdən çox olmayan oxşar plastik məmulatlar, min ədəd | 3 132,7 | 77,7 | 6 719,6 |
| Plastik yemək və mətbəx qabları, ton | 90,0 | 72,2 | 3,1 |

**Tikinti materialları sənayesi** müəssisələri tərəfindən istehsal edilmiş məhsulların həcmi 22,6 faiz artaraq 249,2 milyon manat təşkil etmişdir.

Qrafik 7

**Tikinti materialları istehsalının dinamikası**
(əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə)



Cədvəl 16

## Tikinti materialları istehsalı sahəsində əsas məhsul növlərinin buraxılışı

| Məhsul növləri | 2014-cü ilin yanvar-iyul aylarında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | 01.08.2014-cü il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| **Tikinti materiallarının istehsalı** | | | |
| Sement, min ton | 1 659,0 | 142,1 | 140,9 |
| Tikinti gipsi, min ton | 63,8 | 53,9 | 2,3 |
| Betondan yığma tikinti konstruksiyaları, min kub m | 18,3 | 111,6 | 0,9 |
| Emal edilmiş mərmər, travertin, alebastr və onlardan məmulatlar, ton | 2 267,9 | 32,2 | - |
| Asfalt (ümumi), min ton | 172,9 | 80,0 | - |
| Hörmə üçün hazır beton qarışığı (ümumi), min ton | 1 018,0 | 126,6 | - |
| Tikinti kərpici (ümumi), min kub metr | 153,2 | 67,6 | 7,6 |

**Metallurgiya sənayesi və hazır metal məmulatlarının istehsalı** müəssisələrində 230,8 milyon manatlıq məhsul istehsal olunmuş və xidmətlər göstərilmiş, istehsalın həcmi metallurgiya sənayesində 14,5 faiz azalmış, hazır metal məmulatlarının istehsalı sahəsində isə 14,4 faiz artmışdır.

Cədvəl 17

## Metallurgiya sənayesi və hazır metal məmulatlarının istehsalı sahələrində istehsalın dinamikası

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | |
|---|---|---|
| | Metallurgiya sənayesi | Hazır metal məmulatlarının istehsalı |
| **2013-cü il** | | |
| Yanvar | 161,6 | 44,8 |
| Yanvar-fevral | 90,9 | 54,7 |
| Yanvar-mart | 101,3 | 50,8 |
| Yanvar-aprel | 124,4 | 45,2 |

…ardı

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | |
|---|---|---|
| | Metallurgiya sənayesi | Hazır metal məmulatlarının istehsalı |
| Yanvar-may | 120,5 | 42,6 |
| Yanvar-iyun | 121,0 | 44,9 |
| Yanvar-iyul | 111,4 | 50,6 |
| Yanvar-avqust | 103,6 | 51,0 |
| Yanvar-sentyabr | 99,9 | 50,3 |
| Yanvar-oktyabr | 100,3 | 48,3 |
| Yanvar-noyabr | 97,5 | 49,0 |
| Yanvar-dekabr | 101,5 | 53,2 |
| **2014-cü il** | | |
| Yanvar | 144,9 | 114,6 |
| Yanvar-fevral | 147,0 | 139,5 |
| Yanvar-mart | 117,5 | 103,6 |
| Yanvar-aprel | 98,0 | 113,8 |
| Yanvar-may | 89,9 | 118,2 |
| Yanvar-iyun | 85,2 | 107,0 |
| Yanvar-iyul | 85,5 | 114,4 |

Cədvəl 18

## Metallurgiya sənayesi və hazır metal məmulatlarının istehsalı sahələrində əsas məhsul növlərinin buraxılışı

| Məhsul növləri | 2014-cü ilin yanvar-iyul aylarında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | 01.08.2014-cü il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| **Metallurgiya sənayesi** | | | |
| Çuqun tökmə, ton | 580,5 | 48,2 | 205,6 |
| Polad tökmə, min ton | 177,6 | 145,8 | 11,1 |
| Qeyri-cins poladdan dəstələr şəklində katankalar (armatur), min ton | 114,7 | 76,5 | - |
| Polad borular, min ton | 18,8 | 39,9 | - |
| Alüminium çubuqlar, millər və profillər, ton | 196,0 | 109,7 | 165,9 |
| **Hazır metal məmulatlarının istehsalı** | | | |
| Mayelər üçün çənlər, sisternlər, baklar, ton | 40,0 | 54,3 | 49,5 |

…ardı

| Məhsul növləri | 2014-cü ilin yanvar-iyul aylarında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | 01.08.2014-cü il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| Qara metallardan sair konstruksiyalar, ton | 3 003,3 | 65,9 | 1 467,1 |
| Metallardan qapı və pəncərə, ədəd | 4 710 | 3,8 d. | - |
| Misdən elektrik izolyasiyası olmayan çoxdamarlı məftil, tros və kabellər, ton | 7 588,0 | 129,6 | - |

**Kompyuter, elektron və elektrik avadanlıqlarının istehsalı** sahələrində məhsul istehsalının həcmi 135,6 milyon manat olmuşdur. Əvvəlki ilin yanvar-iyul ayları ilə müqayisədə kompyuter və digər elektron avadanlıqlarının istehsalı 26,0 faiz azalmış, elektrik avadanlıqlarının istehsalı isə 17,1 faiz artmışdır.

Cədvəl 19

**Kompyuter, elektron və elektrik avadanlıqlarının istehsalı sahələrində istehsalın dinamikası**

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | |
|---|---|---|
| | Kompyuter və digər elektron avadanlıqların istehsalı | Elektrik avadanlıqlarının istehsalı |
| **2013-cü il** | | |
| Yanvar | 2,3 d. | 155,0 |
| Yanvar-fevral | 2,0 d. | 143,0 |
| Yanvar-mart | 136,9 | 64,7 |
| Yanvar-aprel | 118,4 | 82,8 |
| Yanvar-may | 121,8 | 96,3 |
| Yanvar-iyun | 153,3 | 104,7 |
| Yanvar-iyul | 143,1 | 114,7 |
| Yanvar-avqust | 114,6 | 112,0 |
| Yanvar-sentyabr | 98,4 | 104,3 |
| Yanvar-oktyabr | 78,4 | 101,9 |
| Yanvar-noyabr | 78,3 | 99,8 |
| Yanvar-dekabr | 72,4 | 114,6 |

…ardı

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | |
|---|---|---|
| | Kompyuter və digər elektron avadanlıqların istehsalı | Elektrik avadanlıqlarının istehsalı |
| **2014-cü il** | | |
| Yanvar | 3,5 | 71,4 |
| Yanvar-fevral | 32,7 | 153,2 |
| Yanvar-mart | 73,7 | 158,4 |
| Yanvar-aprel | 84,9 | 98,4 |
| Yanvar-may | 91,1 | 87,2 |
| Yanvar-iyun | 73,3 | 130,2 |
| Yanvar-iyul | 74,0 | 117,1 |

Cədvəl 20

## Kompyuter, elektron və elektrik avadanlıqlarının istehsalı sahələrində əsas məhsul növlərinin buraxılışı

| Məhsul növləri | 2014-cü ilin yanvar-iyul aylarnda istehsal edilmişdir | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | 01.08.2014-cü il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| **Kompyuter, elektron və elektrik avadanlıqlarının istehsalı** | | | |
| Meteorologiya məqsədləri üçün sair elektron cihazlar, min ədəd | 67,5 | 115,6 | 1,6 |
| Güc transformatorları, ədəd | 60 | 56,1 | - |
| Qəbuledici qurğuları olmayan radio və televiziya verlişləri aparatları, ədəd | 5 912 | 150,5 | 954 |
| İdarəetmə və tənzimləmə elektrik və paylaşdırma qurğuları üçün 1000V-dan çox olmayan gərginlik üçün sair əsaslar, ədəd | 4 221 | 190,7 | 298 |
| Məişət soyuducuları, ədəd | 1 860 | 46,9 | 681 |

**Maşın və avadanlıqların, nəqliyyat vasitələri, avtomobil və qoşquların istehsalı** müəssisələri tərəfindən 209,0 milyon manatlıq məhsul istehsal edilmişdir. Əvvəlki ilin yanvar-iyul ayları ilə müqayisədə maşın və avadanlıqların istehsalında 2,9 faiz azalma, avtomobil və qoşquların istehsalında 66,2 faiz, nəqliyyat vasitələrinin istehsalında isə 3,4 dəfə artım müşahidə olunmuşdur.

Cədvəl 21

## Maşın və avadanlıqların, nəqliyyat vasitələri, avtomobil və qoşquların istehsalı sahələrində istehsalın dinamikası

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | | |
|---|---|---|---|
| | Maşın və avadanlıqların istehsalı | Avtomobil və qoşquların istehsalı | Sair nəqliyyat vasitələrinin istehsalı |
| **2013-cü il** | | | |
| Yanvar | 72,2 | 128,4 | 146,6 |
| Yanvar-fevral | 52,4 | 107,3 | 152,4 |
| Yanvar-mart | 61,3 | 109,0 | 131,8 |
| Yanvar-aprel | 73,5 | 143,3 | 171,9 |
| Yanvar-may | 83,4 | 125,4 | 198,2 |
| Yanvar-iyun | 93,2 | 185,0 | 2,1 d. |
| Yanvar-iyul | 93,1 | 188,9 | 2,2 d. |
| Yanvar-avqust | 95,2 | 149,5 | 2,3 d. |
| Yanvar-sentyabr | 105,3 | 141,1 | 2,3 d. |
| Yanvar-oktyabr | 112,3 | 133,5 | 2,4 d. |
| Yanvar-noyabr | 121,7 | 142,9 | 2,3 d. |
| Yanvar-dekabr | 125,1 | 128,9 | 2,3 d. |
| **2014-cü il** | | | |
| Yanvar | 196,3 | 19,0 | 3,5 d. |
| Yanvar-fevral | 126,8 | 3,3 d. | 3,2 d. |
| Yanvar-mart | 110,8 | 2,8 d. | 3,5 d. |
| Yanvar-aprel | 111,5 | 2,5 d. | 3,8 d. |
| Yanvar-may | 104,7 | 2,6 d. | 2,8 d. |
| Yanvar-iyun | 96,6 | 138,0 | 2,9 d. |
| Yanvar-iyul | 97,1 | 166,2 | 3,4 d. |

Cədvəl 22

**Maşın və avadanlıqların, avtomobil və qoşquların istehsalı sahələrində əsas məhsul növlərinin buraxılışı**

| Məhsul növləri | 2014-cü ilin yanvar-iyul aylarında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | 01.08.2014-cü il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| **Maşın və avadanlıqların, avtomobil və qoşquların istehsalı** | | | |
| Fəvvarə armaturu, ton | 112,2 | 2,8 d. | 111,8 |
| Ştanqlı quyu nasosları, ədəd | 3 443 | 85,2 | 9721 |
| Elektrik ötürücüsü olan liftlər və skip qaldırıcıları, ədəd | 22 | 100,0 | 103 |
| Mancanaq dəzgahları, ədəd | 110 | 71,0 | 162 |
| Məişət kondisionerləri, ədəd | 150 | 4,0 | 2 184 |
| Dondurulmuş ərzaq məhsullarının saxlanması üçün soyuducu vitrinlər və piştaxtalar, ədəd | 307 | 124,3 | - |
| Traktorlar, ədəd | 709 | 170,8 | - |
| Kotanlar, ədəd | 570 | 116,1 | - |
| Yük avtomobilləri, ədəd | 159 | 108,2 | 1 |
| Minik avtomobilləri, ədəd | 1 510 | 4,6 d. | 287 |

## Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı; su təchizatı, tullantıların təmizlənməsi və emalı bölmələri

Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı bölməsinin müəssisələri tərəfindən yeddi ay ərzində 1051,9 milyon manat həcmində məhsul istehsal olunmuş və xidmətlər göstərilmişdir. Əvvəlki ilin yanvar-iyul ayları ilə müqayisədə sahədə 2,5 faizlik artım əldə olunmuşdur.

Su təchizatı, tullantıların təmizlənməsi və emalı bölməsinin müəssisələri tərəfindən istehsal edilmiş məhsulların həcmi 2,9 faiz artaraq 121,8 milyon manat təşkil etmişdir.

Cədvəl 23

## Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı; su təchizatı, tullantıların təmizlənməsi və emalı bölmələrində istehsalın dinamikası

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | |
|---|---|---|
| | Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | Su təchizatı, tullantıların təmizlənməsi və emalı |
| **2013-cü il** | | |
| Yanvar | 102,8 | 98,4 |
| Yanvar-fevral | 101,1 | 101,4 |
| Yanvar-mart | 101,0 | 102,0 |
| Yanvar-aprel | 99,8 | 107,5 |
| Yanvar-may | 100,2 | 104,2 |
| Yanvar-iyun | 100,0 | 106,3 |
| Yanvar-iyul | 100,1 | 108,9 |
| Yanvar-avqust | 99,7 | 109,4 |
| Yanvar-sentyabr | 100,2 | 110,8 |
| Yanvar-oktyabr | 100,9 | 111,6 |
| Yanvar-noyabr | 102,9 | 110,3 |
| Yanvar-dekabr | 103,2 | 111,6 |
| **2014-cü il** | | |
| Yanvar | 101,0 | 107,2 |
| Yanvar-fevral | 101,6 | 113,3 |
| Yanvar-mart | 101,6 | 117,0 |
| Yanvar-aprel | 101,4 | 110,2 |
| Yanvar-may | 101,7 | 106,6 |
| Yanvar-iyun | 102,4 | 104,1 |
| Yanvar-iyul | 102,5 | 102,9 |

Cədvəl 24

## Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı; su təchizatı, tullantıların təmizlənməsi və emalı bölmələrində istehsal olunmuş əsas məhsul növləri

| Məhsul növləri | 2014-cü ilin yanvar-iyul aylarında istehsal edilmişdir | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | 01.08.2014-cü il vəziyyətinə hazır məhsul ehtiyatı |
|---|---|---|---|
| **Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı** | | | |
| Elektrik enerjisi (əmtəəlik), milyon kVt-saat | 12 532,3 | 103,5 | - |
| su elektrik stansiyalarının istehsalı | 862,2 | 91,3 | - |
| istilik elektrik stansiyalarının istehsalı | 11 666,2 | 104,5 | - |
| **Su təchizatı, tullantıların təmizlənməsi və emalı** | | | |
| Suyun təmizlənməsi və bölüşdürülməsi, milyon kub metr | 150,5 | 99,2 | - |

2014-cü ilin yanvar-iyun aylarında elektrik və istilik enerjisinin istehsalı üçün müəssisələr tərəfindən 2,9 milyard kub metr və ya ötən ilin müvafiq dövrünə nisbətən 0,5 faiz çox təbii qaz, bundan əlavə 1,4 min ton dizel yanacağı və 1,3 min ton mazut istifadə edilmişdir.

1 kilovatt-saat elektrik enerjisinin istehsalına neft ekvivalenti ilə yanacağın məsrəfi 207,2 qram olmuşdur.

Cari ilin birinci yarısında ölkənin bütün təsərrüfat subyektləri tərəfindən 9,5 milyard kVt.saat elektrik enerjisi istehlak edilmişdir.

Qrafik 8

**2014-cü ilin birinci yarımilində elektrik enerjisinin istehlakçı qrupları üzrə strukturu**




2014-cü ilin yanvar-iyun aylarında dövlət büdcəsindən maliyyələşdirilən idarə, müəssisə və təşkilatlar tərəfindən 885,8 milyon kVt.saat elektrik enerjisi, 99,1 min Q.kal istilik enerjisi, 71,9 milyon kub metr təbii qaz, 11,1 milyon kub metr su, 5,1 milyon manatlıq rabitə xidmətləri istehlak edilmişdir. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə rabitə xidmətlərinin istehlakı 21,4 faiz, təbii qazın istehlakı 6,8 faiz, istilik enerjisinin istehlakı 6,0 faiz, elektrik enerjisinin istehlakı 4,2 faiz artmış, suyun istehlakı isə 4,3 faiz azalmışdır.

İstifadə edilmiş elektrik və istilik enerjisinin, təbii qazın, suyun və rabitə xidmətlərinin ümumi dəyəri 3,9 faiz artaraq 78,1 milyon manat təşkil etmişdir.

Cədvəl 25

**2014-cü ilin yanvar-iyun aylarında büdcə təşkilatları tərəfindən istehlak edilmiş ehtiyatların strukturu**

| | natura ifadəsində | milyon manat | 2013-cü ilin yanvar-iyun aylarına nisbətən, faizlə (natura ifadəsində) |
|---|---|---|---|
| Elektrik enerjisi, milyon kVt.saat | 885,8 | 53,1 | 104,2 |
| İstilik enerjisi, min Q.kal | 99,1 | 2,8 | 106,0 |
| Təbii qaz, milyon kub metr | 71,9 | 7,2 | 106,8 |
| Su, milyon kub metr | 11,1 | 9,9 | 95,7 |
| Rabitə xidmətləri | x | 5,1 | 121,4 |

İstehlakın ümumi dəyərinin 68,0 faizini elektrik enerjisi, 12,7 faizini su, 9,2 faizini təbii qaz, 6,5 faizini rabitə xidmətləri, 3,6 faizini isə istilik enerjisi təşkil etmişdir.

2014-cü ilin yanvar-iyun aylarında büdcə təşkilatları istifadə olunmuş ehtiyatların ümumi dəyərinin 87,1 faizini (2013-cü ilin müvafiq dövründə 83,4 faiz) ödəməklə 10,1 milyon manatını kəsirdə qoymuşlar. İstehlak edilmiş elektrik enerjisinin 8,0 milyon manatı, təbii qazın 760,6 min manatı, istilik enerjisinin 546,4 min manatı, suyun 524,0 min manatı, rabitə xidmətlərinin 269,5 min manatı ödənilməmişdir.

2014-cü ilin birinci yarısında ölkənin sənaye sahələrində çalışan muzdlu işçilərin sayı əvvəlki illə müqayisədə 1,3 faiz artaraq 184,1 min nəfər təşkil etmiş, onların orta aylıq əmək haqqı isə 10,4 faiz artaraq 705,6 manata çatmışdır. İşçilərin 36,3 mini mədənçıxarma, 91,6 mini emal, 30,6 mini elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 25,6 min nəfəri isə su təchizatı, tullantıların təmizlənməsi və emalı bölmələrində cəmləşmişdir.

Qrafik 9

**Sənaye işçilərinin sayının sahə bölgüsü,** yekuna nisbətən, faizlə




**B** – Mədənçıxarma sənayesi; **C** – Emal sənayesi;
**D** – Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı;
**E** – Su təchizatı, tullantıların təmizlənməsi və emalı

Əmək haqlarının daha yüksək artımı emal bölməsinin poliqrafiya fəaliyyəti, rezin və plastmas məmulatların, içki, qida məhsullarının, avtomobil və qoşquların, kağız və karton, elektrik avadanlıqlarının, sair nəqliyyat vasitələrinin istehsalı, maşın və avadanlıqların quraşdırılması və təmiri, geyim istehsalı, əczaçılıq məhsullarının istehsalı müəssisələrində müşahidə olunmuşdur. Qeyri-dövlət sənaye müəssisələrində işçilərin orta aylıq əmək haqqı 14,5 faiz artaraq 858,8 manat təşkil etmişdir.

Cədvəl 26

## Sənayenin fəaliyyət növləri üzrə bir işçinin orta aylıq əmək haqqı, manat

| | 2014-cü il yanvar-iyun | 2013-cü il yanvar-iyun | 2013-cü ilin müvafiq dövrünə nisbətən, faizlə |
|---|---|---|---|
| **Sənaye üzrə - cəmi** | **705,6** | **638,9** | **110,4** |
| **Mədənçıxarma sənayesi** | **1 736,5** | **1 514,7** | **114,6** |
| **Emal sənayesi** | **477,2** | **426,5** | **111,9** |
| o cümlədən: qida məhsullarının istehsalı | 352,5 | 285,6 | 123,4 |
| içki istehsalı | 480,6 | 376,1 | 127,8 |
| tütün məhsullarının istehsalı | 361,4 | 326,3 | 110,8 |
| toxuculuq sənayesi | 263,0 | 240,8 | 109,2 |
| geyim istehsalı | 414,3 | 361,1 | 114,7 |
| dəri və dəri məmulatlarının, ayaqqabıların istehsalı | 504,6 | 466,4 | 108,2 |
| ağac emalı və ağacdan məmulatların istehsalı | 508,9 | 469,4 | 108,4 |
| kağız və karton istehsalı | 533,9 | 453,5 | 117,7 |
| poliqrafiya fəaliyyəti | 389,8 | 298,5 | 130,6 |
| neft məhsullarının istehsalı | 778,5 | 713,1 | 109,2 |
| kimya sənayesi | 483,2 | 449,0 | 107,6 |
| əczaçılıq məhsullarının istehsalı | 316,3 | 283,4 | 111,6 |
| rezin və plastmas məmulatların istehsalı | 468,6 | 359,0 | 130,5 |
| tikinti materiallarının istehsalı | 577,5 | 558,6 | 103,4 |
| metallurgiya sənayesi | 600,8 | 589,0 | 102,0 |
| hazır metal məmulatlarının istehsalı | 472,6 | 429,3 | 110,1 |
| kompyuter və digər elektron avadanlıqların istehsalı | 370,5 | 345,8 | 107,1 |
| elektrik avadanlıqlarının istehsalı | 541,5 | 464,6 | 116,6 |
| maşın və avadanlıqların istehsalı | 358,4 | 333,4 | 107,5 |
| avtomobil və qoşquların istehsalı | 276,0 | 227,3 | 121,4 |
| sair nəqliyyat vasitələrinin istehsalı | 423,7 | 366,4 | 115,6 |
| mebel istehsalı | 356,4 | 332,8 | 107,1 |

…ardı

| | 2014-cü il yanvar-iyun | 2013-cü il yanvar-iyun | 2013-cü ilin müvafiq dövrünə nisbətən, faizlə |
|---|---|---|---|
| zərgərlik, musiqi, idman və tibb avadanlıqlarının istehsalı | 264,3 | 258,9 | 102,1 |
| maşın və avadanlıqların quraşdırılması və təmiri | 707,7 | 601,4 | 117,7 |
| **Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı** | **476,0** | **445,0** | **107,0** |
| **Su təchizatı, tullantıların təmizlənməsi və emalı** | **335,7** | **317,2** | **105,8** |

## Tikinti

### Əsas kapitala yönəldilmiş vəsaitlər

Ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün 2014-cü ilin yanvar-iyul aylarında bütün maliyyə mənbələrindən əsas kapitala 9075,5 milyon manat vəsait yönəldilmiş, onun 72,7 faizi tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf edilmişdir. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə əsas kapitala yönəldilmiş vəsaitin həcmi 3,0 faiz, tikinti-quraşdırma işlərinə sərf edilmiş vəsaitin həcmi 13,0 faiz artmışdır. Məhsul istehsalı obyektlərinin inşasına 6140,7 milyon manat, xidmət sahələri üzrə obyektlərin tikintisinə 2934,8 milyon manat vəsait yönəldilmiş, ümumi sərmayənin 48,5 faizi dövlət, 51,5 faizi isə qeyri-dövlət müəssisələrinin payına düşmüşdür.

Daxili mənbələrdən əsas kapitala yönəldilmiş vəsaitin həcmi ümumi sərmayənin 70,8 faizini təşkil etmiş, onun 65,0 faizi dövlət, 35,0 faizi isə qeyri-dövlət bölməsinin payına düşmüşdür.

Əsas kapitala yönəldilmiş sərmayənin ümumi həcmində müəssisə və təşkilatların vəsaitləri 5103,6 milyon manat, bank kreditləri 332,7 milyon manat, büdcə vəsaitləri 3166,2 milyon manat, büdcədənkənar fondların vəsaitləri 161,2 milyon manat, əhalinin şəxsi vəsaitləri 253,0 milyon manat, sair vəsaitlər 58,8 milyon manat təşkil etmişdir.

Cədvəl 27

## Maliyyə mənbələri üzrə əsas kapitala yönəldilmiş vəsaitlər

| | 2014-cü ilin yanvar-iyul aylarında, milyon manat | Əvvəlki ilin müvafiq dövrünə nisbətən (müqayisəli qiymətlərlə), faizlə | Ümumi həcmdə xüsusi çəkisi, faizlə |
|---|---|---|---|
| **Cəmi** | **9 075,5** | **103,0** | **100,0** |
| o cümlədən: Müəssisə və təşkilatların vəsaitləri | 5 103,6 | 139,3 | 56,2 |
| Bank kreditləri | 332,7 | 74,4 | 3,7 |
| Büdcə vəsaitləri | 3 166,2 | 76,7 | 34,9 |
| Büdcədənkənar fondların vəsaitləri | 161,2 | 49,6 | 1,8 |
| Əhalinin şəxsi vəsaiti | 253,0 | 112,3 | 2,8 |
| Sair vəsaitlər | 58,8 | 2,7 d. | 0,6 |

Qrafik 10

## Əsas kapitala yönəldilmiş vəsaitlərin maliyyə mənbələri üzrə strukturu, faizlə



2014-cü ilin yanvar-iyul aylarında əsas kapitala yönəldilmiş ümumi vəsaitin 46,0 faizi sənaye sahələrinin inkişafına, 19,6 faizi tikintiyə, 7,2 faizi dövlət idarəetməsinə, 7,1 faizi nəqliyyat və anbar təsərrüfatına, 4,6 faizi istirahət, əyləncə və incəsənətə, 3,9 faizi ticarətə, 2,9 faizi təhsilə, 2,1 faizi kənd təsərrüfatına, 1,9 faizi inzibati və yardımçı xidmətlərin göstərilməsinə, 1,7 faizi səhiyyəyə, 1,5 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşəyə, 0,8 faizi informasiya və rabitəyə, 0,4 faizi digər sahələrdə xidmətlərin göstərilməsinə, 0,2 faizi daşınmaz əmlakla əlaqədar əməliyyatlara, 0,1 faizi maliyyə və sığorta fəaliyyətinə sərf edilmişdir.

Cədvəl 28

**İqtisadiyyatın sahələri üzrə əsas kapitala yönəldilmiş vəsaitlərin həcmi**

| Sahələrin adı | 2014-cü ilin yanvar-iyul aylarında, milyon manat | Əvvəlki ilin müvafiq dövrünə nisbətən (müqayisəli qiymətlərlə), faizlə | Ümumi həcmdə xüsusi çəkisi, faizlə |
|---|---|---|---|
| **CƏMİ** | **9 075,5** | **103,0** | **100,0** |
| o cümlədən: neft bölməsi | 3 453,3 | 130,4 | 38,1 |
| qeyri-neft bölməsi | 5 622,2 | 91,2 | 61,9 |
| **Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq** | **193,1** | **52,3** | **2,1** |
| **Sənaye** | **4 173,7** | **105,4** | **46,0** |
| o cümlədən: Mədənçıxarma sənayesi | 3 436,2 | 129,5 | 37,9 |
| Emal sənayesi | 243,7 | 45,6 | 2,7 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 162,1 | 82,6 | 1,8 |
| Su təchizatı; tullantıların təmizlənməsi və emalı | 331,7 | 57,5 | 3,6 |
| **Tikinti** | **1 773,9** | **2,1 d.** | **19,6** |
| ondan mənzil tikintisi | 563,9 | 94,3 | 6,2 |
| **Ticarət; nəqliyyat vasitələrinin təmiri** | **357,8** | **5,0 d.** | **3,9** |

…ardı

| Sahələrin adı | 2014-cü ilin yanvar-iyul aylarında, milyon manat | Əvvəlki ilin müvafiq dövrünə nisbətən (müqayisəli qiymətlərlə), faizlə | Ümumi həcmdə xüsusi çəkisi, faizlə |
|---|---|---|---|
| **Nəqliyyat və anbar təsərrüfatı** | **648,2** | **37,3** | **7,1** |
| o cümlədən: Nəqliyyat | 643,7 | 37,1 | 7,1 |
| Poçt və kuryer fəaliyyəti | 4,5 | 131,8 | 0,0 |
| **Turistlərin yerləşdirilməsi və ictimai iaşə** | **137,0** | **2,4 d.** | **1,5** |
| **İnformasiya və rabitə** | **73,4** | **83,4** | **0,8** |
| o cümlədən: Rabitə | 66,9 | 79,3 | 0,7 |
| **Maliyyə və sığorta fəaliyyəti** | **12,4** | **2,2 d.** | **0,1** |
| **Daşınmaz əmlakla əlaqədar əməliyyatlar** | **16,4** | **20,1** | **0,2** |
| **Peşə, elmi və texniki fəaliyyət** | **3,9** | **49,3** | **0,0** |
| **İnzibati və yardımçı xidmətlərin göstərilməsi** | **168,1** | **2,0 d.** | **1,9** |
| **Dövlət idarəetməsi və müdafiə; sosial təminat** | **650,4** | **101,2** | **7,2** |
| **Təhsil** | **266,1** | **102,4** | **2,9** |
| **Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi** | **153,2** | **51,1** | **1,7** |
| **İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət** | **412,4** | **151,3** | **4,6** |
| **Digər sahələrdə xidmətlərin göstərilməsi** | **35,5** | **133,5** | **0,4** |

2014-cü ilin yanvar-iyul aylarında neft bölməsinə 3453,3 milyon manat həcmində vəsait yönəldilmişdir. Qeyri-neft bölməsinin inkişafına sərf edilmiş vəsaitin həcmi 5622,2 milyon manat təşkil etmiş, o cümlədən 720,4 milyon manat (ümumi sərmayənin 7,9 faizi) qeyri-neft sənaye bölməsinin inkişafında istifadə edilmişdir. Qeyri-neft bölməsinə yönəldilmiş vəsaitin 65,5 faizi dövlət, 34,5 faizi qeyri-dövlət mülkiyyətli müəssisə və təşkilatların payına düşmüşdür.

Cədvəl 29

## Neft və qeyri-neft bölməsi üzrə əsas kapitala yönəldilmiş vəsaitlər

| | Neft bölməsi | | Qeyri-neft bölməsi | |
|---|---|---|---|---|
| | milyon manat | ümumi həcmdə xüsusi çəkisi, faizlə | milyon manat | ümumi həcmdə xüsusi çəkisi, faizlə |
| **2013-cü il** Yanvar | 230,2 | 37,3 | 387,5 | 62,7 |
| Fevral | 472,0 | 44,4 | 590,4 | 55,6 |
| Mart | 376,7 | 30,8 | 845,4 | 69,2 |
| Aprel | 335,7 | 24,9 | 1 014,8 | 75,1 |
| May | 430,9 | 28,5 | 1 079,0 | 71,5 |
| İyun | 405,1 | 25,3 | 1 194,1 | 74,7 |
| İyul | 393,5 | 27,4 | 1 043,5 | 72,6 |
| Avqust | 398,1 | 25,2 | 1 181,9 | 74,8 |
| Sentyabr | 389,9 | 26,9 | 1 057,8 | 73,1 |
| Oktyabr | 505,0 | 40,0 | 758,4 | 60,0 |
| Noyabr | 405,0 | 27,0 | 1 097,4 | 73,0 |
| Dekabr | 482,7 | 14,7 | 2 797,1 | 85,3 |
| **2014-cü il** Yanvar | 214,8 | 32,5 | 446,1 | 67,5 |
| Fevral | 560,2 | 48,1 | 603,5 | 51,9 |
| Mart | 594,6 | 45,7 | 706,7 | 54,3 |
| Aprel | 502,1 | 33,4 | 999,9 | 66,6 |
| May | 589,3 | 39,5 | 904,0 | 60,5 |
| İyun | 501,0 | 33,3 | 1 003,7 | 66,7 |
| İyul | 491,3 | 33,9 | 958,3 | 66,1 |

Cari ildə **Bakı şəhərində** “Norm” sement zavodu, Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsinin yeni Gəmi inşası zavodu, Milli Konservatoriyanın yeni inzibati-tədris kompleksi, Azərbaycan Milli Elmlər Akademiyası Mərkəzi Kitabxanasının və “Azərbaycan Milli Ensiklopediyası” Elmi Mərkəzinin yeni binaları, Respublika İdman, Tibb, Diaqnostika və Reabilitasiya İnstitutunun binası, Suraxanı Günəş Elektrik Stansiyası, Sağlamlıq Mərkəzi, Milli Gimnastika Kompleksi, **Naxçıvan Muxtar Respublikasında** “Arpaçay-2” Su Elektrik Stansiyası, Su Anbarı və Sutəmizləyici Qurğular Kompleksi, Gənclər Mərkəzi, **Sumqayıt şəhərində** Azərbaycan kağız və karton istehsalat kombinatı, Yağ fabriki, Mis emalı zavodu, **Gəncə**

**şəhərində** Metaltökmə və fasiləsiz yayma, Təzyiqlə emal və boyama zavodları, **Ağdaş rayonunda** Yem və Meyvə emalı zavodları, "Ağdaş" Elektrik yarımstansiyası, **Göygöl rayonunda** Olimpiya İdman Kompleksi, Gənclər Mərkəzi, **Qəbələ rayonunda** "Tufan" Dağ-Xizək Yay-Qış İstirahət Kompleksinin birinci mərhələsi, **Lənkəran rayonunda** Çörək istehsalı zavodu, **Şamaxı rayonunda** "Şamaxı Palace Platinum By Rixos" oteli, bütün maliyyə mənbələri hesabına ölkədə ümumi sahəsi 986,5 min kvadrat metr olan yeni yaşayış evləri, 200 çarpayılıq xəstəxana, 3300 şagird yerlik ümumtəhsil məktəbləri, 672 yerlik məktəbəqədər təhsil müəssisələri və s. obyektlər istifadəyə verilmişdir.

Cədvəl 30

**Yaşayış evlərinin istifadəyə verilməsi**

| | Ümumi sahə, kvadrat metr | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə |
|---|---|---|
| **2013-cü il** | | |
| Yanvar | 131 203 | 78,0 |
| Fevral | 114 833 | 145,5 |
| Mart | 124 644 | 148,5 |
| Aprel | 138 303 | 131,9 |
| May | 155 399 | 141,2 |
| İyun | 253 502 | 101,1 |
| İyul | 263 178 | 2,1 d. |
| Avqust | 132 834 | 91,1 |
| Sentyabr | 197 119 | 151,7 |
| Oktyabr | 213 405 | 153,2 |
| Noyabr | 149 982 | 67,4 |
| Dekabr | 420 083 | 71,5 |
| **2014-cü il** | | |
| Yanvar | 120 499 | 91,8 |
| Fevral | 102 361 | 89,1 |
| Mart | 150 767 | 121,0 |
| Aprel | 127 295 | 98,8 |
| May | 121 757 | 78,4 |
| İyun | 201 959 | 79,7 |
| İyul | 161 843 | 61,5 |

Qrafik 11

**İstifadəyə verilmiş yaşayış evlərinin dinamikası**
**(ümumi sahə, min kvadrat metr)**




## Xarici müəssisə və təşkilatlar tərəfindən əsas kapitala yönəldilmiş vəsaitlər

2014-cü ilin yanvar-iyul aylarında xarici mənbələrdən əsas kapitala 2646,2 milyon manat vəsait yönəldilmişdir.

Cədvəl 31

**Daxili və xarici mənbələrdən**
**əsas kapitala yönəldilmiş vəsaitlər**

| | Daxili | | Xarici | |
|---|---|---|---|---|
| | milyon manat | ümumi həcmdə xüsusi çəkisi, faizlə | milyon manat | ümumi həcmdə xüsusi çəkisi, faizlə |
| **2013-cü il** | | | | |
| Yanvar | 398,8 | 64,6 | 218,9 | 35,4 |
| Fevral | 691,5 | 65,1 | 370,9 | 34,9 |
| Mart | 887,8 | 72,6 | 334,3 | 27,4 |
| Aprel | 1 094,4 | 81,0 | 256,1 | 19,0 |
| May | 1 157,0 | 76,6 | 352,9 | 23,4 |
| İyun | 1 282,2 | 80,2 | 317,0 | 19,8 |
| İyul | 1 064,8 | 74,1 | 372,2 | 25,9 |

…ardı

| | Daxili | | Xarici | |
|---|---|---|---|---|
| | milyon manat | ümumi həcmdə xüsusi çəkisi, faizlə | milyon manat | ümumi həcmdə xüsusi çəkisi, faizlə |
| Avqust | 1 184,1 | 74,9 | 395,9 | 25,1 |
| Sentyabr | 1 082,9 | 74,8 | 364,8 | 25,2 |
| Oktyabr | 869,7 | 68,8 | 393,7 | 31,2 |
| Noyabr | 1 102,6 | 73,4 | 399,8 | 26,6 |
| Dekabr | 2 889,1 | 88,1 | 390,7 | 11,9 |
| **2014-cü il** Yanvar | 444,5 | 67,3 | 216,4 | 32,7 |
| Fevral | 761,3 | 65,4 | 402,4 | 34,6 |
| Mart | 903,9 | 69,5 | 397,4 | 30,5 |
| Aprel | 1 075,3 | 71,6 | 426,7 | 28,4 |
| May | 1 122,8 | 75,2 | 370,5 | 24,8 |
| İyun | 1 085,0 | 72,1 | 419,7 | 27,9 |
| İyul | 1 036,5 | 71,5 | 413,1 | 28,5 |

Xarici ölkələr və beynəlxalq təşkilatlar tərəfindən əsas kapitala yönəldilmiş vəsaitin 2111,9 milyon manatı (79,8 faizi) Böyük Britaniya, Norveç, Türkiyə, ABŞ, Fransa və Yaponiya sərmayədarlarına məxsus olmuşdur.

Cədvəl 32

**Xarici ölkələr və beynəlxalq təşkilatlar üzrə əsas kapitala yönəldilmiş xarici vəsaitin həcmi**

| Ölkələrin və beynəlxalq təşkilatların adı | 2014-cü ilin yanvar-iyul aylarında, min manat | Ümumi həcmdə xüsusi çəkisi, faizlə |
|---|---|---|
| **Cəmi** | **2 646 165,7** | **100,0** |
| o cümlədən: Böyük Britaniya | 839 182,2 | 31,7 |
| Norveç | 474 398,5 | 17,9 |
| Türkiyə | 240 420,0 | 9,1 |
| ABŞ | 239 327,3 | 9,0 |
| Fransa | 160 463,2 | 6,1 |
| Yaponiya | 158 107,5 | 6,0 |
| İran | 153 140,8 | 5,8 |
| Rusiya | 153 140,8 | 5,8 |
| Çexiya | 105 808,4 | 4,0 |

…ardı

| Ölkələrin və beynəlxalq təşkilatların adı | 2014-cü ilin yanvar-iyul aylarında, min manat | Ümumi həcmdə xüsusi çəkisi, faizlə |
|---|---|---|
| Hindistan | 23 762,6 | 0,9 |
| İtaliya | 91,1 | 0,0 |
| Sinqapur | 381,0 | 0,0 |
| Niderland | 51,4 | 0,0 |
| Dünya Bankı | 71 509,8 | 2,7 |
| Asiya İnkişaf Bankı | 23 146,0 | 0,9 |
| Avropa Yenidənqurma və İnkişaf Bankı | 3 235,1 | 0,1 |

Qrafik 12

**Əsas kapitala yönəldilmiş vəsaitin xarici ölkələr və beynəlxalq təşkilatlar üzrə strukturu**
(ümumi yekuna görə, faizlə)




Tikinti müəssisələri tərəfindən yerinə yetirilmiş inşaat işlərinin həcmi müqayisə edilən dövrün səviyyəsini 6,9 faiz üstələyərək 4535,0 milyon manat təşkil etmiş, ondan 64,0 faizi yeni tikinti, yenidənqurma və genişləndirmə, 17,5 faizi əsaslı

təmir, 5,6 faizi cari təmir, 12,9 faizi isə sair tikinti işlərinə sərf edilmişdir. Ümumi inşaat işlərinin 81,0 faizini qeyri-dövlət mülkiyyətli tikinti müəssisələri yerinə yetirmişlər.

Qrafik 13

**Tikinti müəssisələri tərəfindən yerinə yetirilmiş inşaat işlərinin həcmi (ümumi yekuna görə, faizlə)**




2014-cü ilin yanvar-iyun aylarında inşaat bölməsində çalışmış işçilərin orta siyahı sayı 96,7 min nəfər olmuş, onların orta aylıq əmək haqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 1,5 faiz artaraq 622,3 manat təşkil etmişdir. İxtisaslaşdırılmış tikinti işlərində işləyən işçilərin əmək haqları 19,6 faiz artmışdır.

Cədvəl 33

## Tikintidə fəaliyyət növləri üzrə işçilərin əmək haqqı

| Fəaliyyət növləri | Bir işçinin orta aylıq əmək haqqı | |
|---|---|---|
| | 2014-cü ilin yanvar-iyun aylarında, manat | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə |
| **Cəmi** | **622,3** | **101,5** |
| o cümlədən:<br>Dövlət bölməsi | 501,6 | 102,2 |
| Qeyri-dövlət bölməsi | 676,1 | 100,7 |
| Ümumi yekundan fəaliyyət növləri üzrə:<br>**Binaların tikintisi** | **556,0** | **97,9** |
| **Mülki təyinatlı inşaat işləri** | **498,8** | **87,8** |
| **İxtisaslaşdırılmış tikinti işləri** | **894,9** | **119,6** |

# Kənd təsərrüfatı

**Bitkiçilik.** 2014-cü ilin yanvar-iyul ayları üzrə kənd təsərrüfatının ümumi məhsulunun faktiki qiymətlərlə dəyəri 2990,0 milyon manat təşkil etmişdir. Keçən ilin eyni dövrü ilə müqayisədə onun sabit qiymətlərlə dəyəri 4,2 faiz, o cümlədən bitkiçilik məhsulları üzrə 10,8 faiz azalmış, heyvandarlıq məhsulları üzrə isə 3,0 faiz artmışdır.

Qrafik 14

**Bitkiçilik və heyvandarlıq məhsullarının faktiki qiymətlərlə xüsusi çəkisi**




Cari il iyunun 1-i vəziyyətinə əkin sahələrinin qəti uçotu keçirilmişdir. Uçot məlumatlarına görə 2014-cü ilin məhsulu üçün kənd təsərrüfatı bitkilərinin əkin sahələri 2013-cü illə müqayisədə aşağıdakı kimi dəyişmişdir.

Cədvəl 34

## Əkin sahələrinin qəti uçotunun yekunları

(min hektarla)

| | 2014 ilkin məlumatlar | 2013 son məlumatlar | 2014-cü il 2013-cü ilə nisbətən %-lə |
|---|---|---|---|
| **Dənli və dənli paxlalılar – cəmi** | **1 000,5** | **1 074,1** | **93,1** |
| ondan: payızlıq və yazlıq buğda | 609,5 | 689,5 | 88,4 |
| payızlıq və yazlıq arpa | 338,7 | 329,4 | 102,8 |
| dənlik qarğıdalı | 37,3 | 38,6 | 96,6 |
| paxlalılar cəmi | 12,2 | 12,8 | 95,3 |
| **Texniki bitkilər – cəmi** | **43,7** | **42,2** | **103,6** |
| ondan: pambıq | 22,9 | 23,5 | 97,4 |
| tütün | 1,1 | 1,2 | 91,7 |
| dən üçün günəbaxan | 11,7 | 9,4 | 124,5 |
| şəkər çuğunduru | 5,7 | 5,5 | 103,6 |
| **Kartof, tərəvəz və bostan bitkiləri – cəmi** | **165,8** | **171,5** | **96,7** |
| ondan: kartof | 61,7 | 65,3 | 94,5 |
| tərəvəz | 76,0 | 77,6 | 97,9 |
| bostan | 28,0 | 28,5 | 98,2 |
| **Yem bitkiləri – cəmi** | **402,7** | **396,4** | **101,6** |
| ondan: silos və yaşıl yem üçün qarğıdalı | 1,3 | 1,5 | 86,7 |
| birillik otlar | 12,2 | 10,7 | 114,0 |
| cari ilin çoxillik otları | 79,4 | 73,7 | 107,7 |
| keçmiş illərin çoxillik otları | 309,6 | 310,3 | 99,8 |
| **Cəmi əkin sahəsi** | **1 612,7** | **1 684,2** | **95,8** |

Keçən ilin payızında əkilmiş 991,0 min hektar taxıl sahəsinin 44,2 min hektarı tamamilə tələf olmuş, 3,7 min hektarı yem üçün istifadə edildikdən sonra yerinə yazlıq bitkilər əkilmiş, 7,8 min hektarı isə yem üçün saxlanılmışdır.

Qrafik 15

**2014-cü ilin məhsulu üçün kənd təsərrüfatı bitkilərinin əkin sahələrinin strukturu**




Ölkədə kənd təsərrüfatı məhsullarının kütləvi yığımı davam edir. Avqustun 1-i vəziyyətinə 948,5 min hektar dənli bitkilərin (qarğıdalıdan başqa) sahəsi biçilib döyülmüş və həmin sahələrdən ilkin çəkidə 2162,6 min ton (keçən il 2705,0 min ton) taxıl mədaxil edilmişdir. Hər hektardan orta hesabla 22,8 sentner məhsul götürülmüşdür. Qarğıdalı da daxil olmaqla taxıl istehsalının ümumi həcmi 2176,3 min ton olmuşdur.

Mövsüm ərzində təsərrüfatlarda 466,1 min ton kartof, 717,8 min ton tərəvəz, 325,1 min ton bostan məhsulları toplanmışdır. Keçən ilin eyni dövrünə nisbətən bostan məhsulları istehsalı 9,4 faiz artmış, kartof və tərəvəz məhsulları istehsalı isə müvafiq olaraq 14,5 və 1,4 faiz azalmışdır. Hektarın orta məhsuldarlığı kartof üzrə 16 sentner azalmış, tərəvəz üzrə eyni səviyyədə qalmış, bostan məhsulları üzrə isə 12 sentner artmışdır.

Avqustun 1-i vəziyyətinə 3,6 min ton (51,2 faiz çox) dən üçün günəbaxan və 1,2 min ton (13,1 faiz az) qurudulmuş çəkidə tütün yarpağı istehsal edilmişdir.

Cari ildə meyvə və üzüm məhsulu istehsalı keçən ildəki səviyyədən artıq olmuşdur. Belə ki, hesabat tarixinə 176,6 min

ton və yaxud keçən ildəkindən 9,7 min ton çox (5,8 faiz) meyvə və giləmeyvə, 3174 ton və yaxud 2731 ton çox (7,2 dəfə) üzüm məhsulu toplanmışdır. Hesabat dövründə 316,7 ton yaşıl çay yarpağı yığılmışdır.

Cədvəl 35

**Bütün təsərrüfat kateqoriyaları üzrə bitkiçilik məhsullarının yığımı**

| | 2014-cü il yanvar-iyul | | | | 2013-cü il yanvar-iyul | | |
|---|---|---|---|---|---|---|---|
| | Yığılmış sahə, min hektar | Yığılmış sahə əkin sahəsinə %-lə | Yığılmış məhsul, min ton | Məhsuldarlıq, sent/ha | Yığılmış sahə, min hektar | Yığılmış məhsul, min ton | Məhsuldarlıq, sent/ha |
| Dənli və dənli paxlalı bitkilər (qarğıdalısız) | 948,5 | 98,5 | 2 162,6 | 22,8 | 1 016,5 | 2 705,0 | 26,6 |
| Dən üçün qarğıdalı | 3,7 | 10,1 | 13,7 | 36,4 | 4,2 | 17,4 | 40,9 |
| Dənli və dənli paxlalı bitkilər | 952,2 | 95,2 | 2 176,3 | 22,9 | 1 020,7 | 2 722,4 | 26,7 |
| Dən üçün günəbaxan | 2,0 | 17,3 | 3,6 | 17,8 | 1,3 | 2,4 | 18,0 |
| Tütün, ton | 1,1[x)] | | 1 246 | | 1,2[x)] | 1 434 | |
| Kartof | 35,3 | 57,2 | 466,1 | 132 | 36,9 | 544,8 | 148 |
| Tərəvəz | 55,4 | 72,9 | 717,8 | 130 | 56,0 | 728,3 | 130 |
| Ərzaq üçün bostan məhsulları | 22,6 | 80,8 | 325,1 | 144 | 22,5 | 297,1 | 132 |
| Meyvə və giləmeyvə | | | 176,6 | | | 166,9 | |
| Üzüm | | | 3,2 | | | 0,4 | |
| Yaşıl çay yarpağı, ton | | | 316,7 | | | 394,8 | |

[x)] əkin sahəsi

**Heyvandarlıq.** Cari ilin ötən yeddi ayı ərzində diri çəkidə 252,4 min ton mal-qara və quş əti, 1103,6 min ton süd, 889,1 milyon ədəd yumurta və 15,4 min ton yun istehsal edilmişdir. 2013-cü ilin eyni dövrünə nisbətən ət istehsalı 1,7 faiz, süd istehsalı 3,5 faiz, yumurta istehsalı 11,3 faiz, yun istehsalı isə 1,6 faiz artmışdır.

Qrafik 16

**Heyvandarlıq məhsullarının istehsalı, min ton**




Cari ilin altı ayında 51394 baş inək, camış və düyələr süni mayalandırılmış, süni mayalandırmadan 35584 baş bala alınmışdır.

Kənd təsərrüfatının texnika ilə təchizatının yaxşılaşdırılması məqsədilə ölkədə bir sıra mühüm tədbirlər görülür. Belə ki, 2014-cü ilin birinci yarısında “Aqrolizinq” ASC-nin xətti ilə kənd təsərrüfatı məhsulları istehsalçılarına 68,5 milyon manat dəyərində 504 ədəd taxılyığan kombayn, 499 ədəd müxtəlif növ traktor, 355 ədəd kotan, 44 ədəd səpici aqreqat, 42 ədəd otbiçən, 30 ədəd çiləyici və tozlayıcı maşınlar, 22 ədəd ot dırmıqları, 15 ədəd gübrəsəpən maşın və 55 ədəd digər kənd təsərrüfatı maşın və avadanlıqları satılmışdır.

Cədvəl 36

## Kənd təsərrüfatı maşınları ilə təminat, ədəd

| Maşınların növü | 2014-cü ilin yanvar-iyun ayları | 2013-cü ilin yanvar-iyun ayları | 2014-cü ilin yanvar-iyun ayları 2013-cü ilin yanvar-iyun aylarına nisbətən, %-lə |
|---|---|---|---|
| Traktorlar | 499 | 372 | 134,1 |
| Kotanlar | 355 | 268 | 132,5 |
| Səpici aqreqatlar | 44 | 33 | 133,3 |
| Taxılyığan kombaynlar | 504 | 71 | 7,1 dəfə |
| Çiləyici və tozlayıcı maşınlar | 30 | 38 | 78,9 |
| Otbiçənlər | 42 | 30 | 140,0 |
| Gübrəsəpənlər | 15 | 24 | 62,5 |
| Taxıl-toxum təmizləyənlər | 4 | 18 | 22,2 |
| Malalar | 9 | 9 | 100,0 |
| Bağarası frezlər | 4 | 16 | 25,0 |
| Ot dırmıqları | 22 | 11 | 2 dəfə |
| Traktor yedəkləri (qoşqular) | - | 15 | - |
| Kombayna qoşulan biçici aqreqatlar | 4 | 4 | 100,0 |
| Digər kənd təsərrüfatı maşın və avadanlıqları | 31 | 36 | 86,1 |

**Meşə təsərrüfatı.** Ölkədə meşələrin bərpa olunması, yeni meşələrin salınması, bütövlükdə ekoloji vəziyyətin yaxşılaşdırılması məqsədilə meşə təsərrüfatları tərəfindən ötən il bir sıra işlər görülmüşdür. Cari ilin yanvar-iyun aylarında tədarük edilmiş ağac və kol cinsləri toxumlarının 78,6 faizi enliyarpaqlı, 21,4 faizi iynəyarpaqlı ağac toxumları olmuşdur. Enliyarpaqlı ağac toxumlarının 14,9 faizini qozmeyvəli ağacların toxumu, 85,1 faizini isə digər enliyarpaqlı ağac və kol cinslərinin toxumları təşkil etmişdir.

Cədvəl 37

**Meşəbərpa tədbirlərinin aparılması, hektar**

| Göstəricilərin adı | 2014-cü ilin yanvar-iyun ayları | 2013-cü ilin yanvar-iyun ayları | 2014-cü ilin yanvar-iyun ayları 2013-cü ilin yanvar-iyun aylarına nisbətən, %-lə |
|---|---|---|---|
| Meşə fondu torpaqlarında meşəbərpa tədbirləri | 1 144 | 1 202 | 95,2 |
| Meşə fondu torpaqlarında meşə əkini və səpinlərinə xidmət (birdəfəlik) | 16 934 | 16 337 | 103,7 |
| Meşə fondu torpaqlarında meşə əkini və səpinlərinin suvarılması (birdəfəlik) | 14 838 | 15 265 | 97,2 |
| Tinglik sahəsində xidmət aparmaq | 627,7 | 613 | 102,4 |
| Səpin sahəsində ağac və kol cinslərinin toxumlarının səpilməsi | 43,4 | 42.3 | 102,6 |
| Meşə fondu torpaqlarında torpaq hazırlığı | 1 194 | 1 208 | 98,8 |
| Ağac və kol cinslərinin toxumlarının tədarükü, kq | 6 601 | 5 962 | 110,7 |

**Balıqçılıq.** 2014-cü ilin birinci yarısında ölkədə vətəgə əhəmiyyətli balıqların artırılması və mühafizəsi işlərinin yerinə yetirilməsinə 1,2 milyon manat (ötən ilin müvafiq dövrü ilə müqayisədə 165,1 min manat çox) vəsait sərf olunmuşdur. Onun 91 faizi süni balıqartırma müəssisələrinin fəaliyyətinə, 9 faizi isə balıqçılıq təsərrüfatları üzrə meliorasiya tədbirlərinin həyata keçirilməsi işlərinə xərclənmişdir.

Vətəgə əhəmiyyətli balıqların artırılması və mühafizəsi ilə məşğul olan təsərrüfatlar tərəfindən təbii su hövzələrinə və anbarlarına buraxılan 229,3 milyon ədəd balıq körpələrinin 223,7 milyon ədədi çəkikimilərin, 5,5 milyon ədədi bitki ilə qidalanan balıqların, 48,7 min ədədi isə qızıl balıqların payına düşmüşdür.

# Nəqliyyat

Nəqliyyat sektorunda fəaliyyət göstərən təsərrüfat subyektləri tərəfindən 2014-cü ilin yanvar-iyul ayları ərzində 124,9 milyon ton yük daşınmış və ötən ilin müvafiq dövrü ilə müqayisədə 2,5 faiz artmışdır. Qeyri-neft yüklərinin həcmi 3,6 faiz artaraq 87,6 milyon tona çatmışdır. Nəqliyyat vasitələri ilə daşınmış yüklərin 56,2 faizi avtonəqliyyat, 29,4 faizi boru kəməri, 9,8 faizi dəmir yolu, 4,6 faizi dəniz nəqliyyatı vasitələri ilə həyata keçirilmişdir.

Qrafik 17

**Yük daşınmasının ayrı-ayrı nəqliyyat növləri üzrə strukturu, yekuna nisbətən**




Qeyri-dövlət bölməsində yük daşınması 4,8 faiz artmış, bu bölməyə məxsus nəqliyyat vasitələri ilə yük daşınmasının payı nəqliyyat sektorunda 75,8 faiz təşkil etmişdir.

Yanvar-iyul aylarında nəqliyyatçılar 1,0 milyard nəfərə və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 5,0 faiz çox sərnişinə

xidmət göstərmişlər. Sərnişinlərin 87,4 faizi avtomobil, 12,3 faizi metro nəqliyyatının xidmətlərindən istifadə etmişlər.

**Dəmir yolu nəqliyyatı** ilə yük daşınması cari ilin yanvar-iyul aylarında 12,2 milyon ton olmuşdur. Orta hesabla sutkada 587 vaqon yüklənmiş, 597 vaqon boşaldılmışdır.

Sutka ərzində dəmir yolunun Şimal istiqaməti üzrə 21,1 min ton, Qərb istiqaməti üzrə 7,0 min ton və Cənub istiqaməti üzrə 5,8 min ton yüklənmə işi yerinə yetirilmişdir.

**Dəniz nəqliyyatında** daşınmış yüklərin həcmi 5,7 milyon ton təşkil etmişdir. Yüklərin 57,4 faizini neft yükləri, 42,6 faizini isə quru yüklər təşkil etmiş və bütün daşımalar xarici əlaqə üzrə həyata keçirilmişdir. Cari ilin yanvar-iyul aylarında dəniz limanlarında 7,0 milyon ton yükləmə-boşaltma işləri həyata keçirilmişdir. İşlənmiş yüklərin 85,9 faizini beynəlxalq tranzit yüklər təşkil etmişdir. 2014-cü il avqust ayının 1-i vəziyyətinə limanlarda göndərilmək üçün 92,6 min ton idxal yüklərin qalığı olmuşdur.

Qrafik 18

**Nəqliyyat sektorunda yük daşınması, min ton**



Nəqliyyat sektorunda daşımaların həcminə görə ən böyük paya malik olan **avtomobil nəqliyyatı** ilə 70,2 milyon ton yük, 878,4 milyon sərnişin daşınmış və əvvəlki ilin eyni dövrü ilə müqayisədə müvafiq olaraq 2,7 faiz və 5,3 faiz artım qeydə alınmışdır. Sərnişinlərin 96,2 faizi avtobus, 3,8 faizi isə minik taksilərinin xidmətlərindən istifadə etmişlər. Yük dövriyyəsi 2,8 faiz, sərnişin dövriyyəsi isə 6,0 faiz artmışdır.

**Metro nəqliyyatının** xidmətlərindən istifadə etmiş sərnişinlərin sayı 124,0 milyon nəfər olmaqla 3,6 faiz artmışdır.

**Hava nəqliyyatı** ilə 977,4 min və ya 6,0 faiz çox sərnişin daşınmış, daşınmanın 99,7 faizi dövlət, 0,3 faizi isə özəl müəssisələrə məxsus hava gəmiləri ilə həyata keçirilmişdir.

Bu nəqliyyat növü ilə daşınmış yüklərin həcmi ötən illin müvafiq dövrü ilə müqayisədə 1,3 faiz artaraq 64,8 min tona çatmışdır.

**Magistral neft kəmərləri** ilə 27,6 milyon ton neft nəql edilmiş və ötən ilin müvafiq dövrü ilə müqayisədə 10,0 faiz artım müşahidə olmunşdur. Nəqletmənin dörddə üç hissəsi Bakı-Tbilisi-Ceyhan neft ixrac kəməri ilə həyata keçirilmiş və cari ilin yanvar-iyul ayları ərzində bu kəmər vasitəsilə 20,9 milyon ton neft ötürülmüşdür. Dövr ərzində gəmilər vasitəsilə ölkəyə gətirilərək Səngəçal terminalından BTC kəməri ilə 3,1 milyon ton tranzit Türkmənistan nefti nəql edilmişdir.

**Magistral qaz kəmərləri** ilə 12,7 milyard kub-metr və ya 9,3 faiz çox qaz nəql edilmişdir. Nəql edilmiş qazın 28,3 faizi Bakı-Tbilisi-Ərzurum Cənubi Qafqaz boru kəməri vasitəsilə həyata keçirilmiş və 3,6 milyard kub-metr qaz ötürülmüşdür.

2014-cü ilin yanvar-iyun aylarında **"İpək yolu" nəqliyyat dəhlizinin** Azərbaycan ərazisində 28,1 milyon ton yük, 149,4 milyon nəfər və ya 7,7 faiz çox sərnişin daşınmışdır. Yüklərin 14,0 milyon tonu və ya 49,7 faizi avtomobil nəqliyyatı, 9,5 milyon tonu və ya 33,9 faizi dəmir yolu nəqliyyatı, 4,6 milyon tonu və ya 16,4 faizi dəniz nəqliyyatı ilə daşınmışdır.

Yük daşımaları fəaliyyətindən 242,5 milyon manat, sərnişin daşınmasından isə 52,3 milyon manat gəlir əldə olunmuş və müvafiq olaraq 7,1 faiz və 12,6 faiz artmışdır.

# İnformasiya və rabitə

İnformasiya və rabitə sektorunda 2014-cü ilin yanvar-iyul aylarında təsərrüfat subyektlərinə və əhaliyə 862,3 milyon manatlıq və ya əvvəlki ilin müvafiq dövrünə nisbətən müqayisəli qiymətlərlə 12,4 faiz çox xidmət göstərilmişdir. Əhaliyə göstərilmiş informasiya və rabitə xidmətlərinin payı 72,5 faiz təşkil etmişdir.

Xidmətlərdən əldə olunmuş gəlirlərin 60,2 faizi mobil telefon rabitəsindən yaranmış və 2013-cü ilin eyni dövrü ilə müqayisədə bu xidmətlərin həcmi 9,3 faiz artaraq 518,9 milyon manat təşkil etmişdir.

# İstehlak bazarı

2014-cü ilin yanvar-iyul aylarında istehlakçıların tələbatlarının ödənilməsi məqsədi ilə ölkənin istehlak bazarında satılmış əmtəə və xidmətlərin həcmi 15,8 milyard manat olmaqla 2013-cü ilin eyni dövrü ilə müqayisədə 8,7 faiz artmışdır.

Pərakəndə ticarət və xidmət şəbəkələrində satılmış əmtəələrin və göstərilmiş xidmətlərin ümumi həcminin 94,6 faizi özəl bölmənin fəaliyyəti sayəsində formalaşmış, bu bölmə üzrə pərakəndə əmtəə dövriyyəsinin və əhaliyə göstərilən xidmətlərin həcmi 9,2 faiz artaraq 15,0 milyard manat olmuşdur. İstehlak bazarı üzrə real artımın 99,4 faizi özəl bölmənin təsərrüfat subyektlərində yaranmışdır.

Cədvəl 38

**İstehlak bazarı üzrə əsas göstəricilər**

| | 2014-cü ilin yanvar-iyul ayları, milyon manatla | 2014-cü ilin yanvar-iyul ayları 2013-cü ilin yanvar-iyul aylarına nisbətən, faizlə |
|---|---|---|
| **İstehlak bazarında satılmış əmtəələrin və göstərilmiş xidmətlərin ümumi həcmi** | **15 842,9** | **108,7** |
| o cümlədən: dövlət mülkiyyəti üzrə | 854,3 | 100,9 |
| qeyri-dövlət mülkiyyəti üzrə | 14 988,6 | 109,2 |
| ondan: fərdi sahibkarlar | 7 190,0 | 113,0 |

# Əmtəə bazarı

2014-cü ilin yanvar-iyul aylarında pərakəndə əmtəə dövriyyəsinin həcmi 11,8 milyard manat olmaqla əvvəlki ilin eyni dövrü ilə müqayisədə 9,1 faiz artmışdır. İstehlak mallarının 99,8 faizi özəl təsərrüfat subyektlərində, o cümlədən 11,6 faizi hüquqi şəxs statuslu özəl müəssisələrdə, 51,2 faizi fərdi sahibkarlara məxsus ticarət subyektlərində, 37,0 faizi əmtəə bazarlarında satılmışdır. Özəl bölmə üzrə pərakəndə əmtəə dövriyyəsinin həcmi 2013-cü ilin yanvar-iyul aylarının səviyyəsini 9,2 faiz üstələmişdir.

Cədvəl 39

**Əmtəə bazarı üzrə əsas göstəricilər**

| | 2014-cü ilin yanvar-iyul ayları, milyon manatla | 2014-cü ilin yanvar-iyul ayları 2013-cü ilin yanvar-iyul aylarına nisbətən, faizlə |
|---|---|---|
| **Pərakəndə ticarət dövriyyəsinin həcmi** | **11 843,0** | **109,1** |
| o cümlədən: hüquqi şəxslər üzrə | 1 394,2 | 104,9 |
| fərdi sahibkarlar üzrə | 6 070,9 | 113,1 |
| əmtəə bazarları üzrə | 4 377,9 | 105,3 |

Qrafik 19

**Pərakəndə ticarət şəbəkəsində istehlak mallarının satışı və istehlak qiymətləri indeksinin dinamikası** (əvvəlki aya nisbətən, faizlə)




Pərakəndə əmtəə dövriyyəsi üzrə real artımın 6,6 faizi hüquqi şəxslərin, 71,1 faizi hüquqi şəxs yaratmadan fəaliyyət göstərən fərdi sahibkarların ticarət subyektlərində, 22,3 faizi isə əmtəə bazarlarında yaranmışdır.

Qrafik 20

**2014-cü ilin yanvar-iyul aylarında pərakəndə ticarət dövriyyəsinin strukturu**




2014-cü ilin yanvar-iyul aylarında ticarət şəbəkəsindən hər bir istehlakçı orta hesabla ayda 179,7 manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 16,0 manat çox əmtəə almışdır.

Cədvəl 40

## Pərakəndə ticarət dövriyyəsinin dinamikası

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə | | |
|---|---|---|---|
| | Pərakəndə ticarət dövriyyəsinin həcmi | o cümlədən: | |
| | | qida məhsulları, içkilər və tütün məmulatları üzrə | qeyri-ərzaq malları üzrə |
| **2013-cü il** | | | |
| Yanvar | 109,1 | 101,3 | 122,9 |
| Yanvar-fevral | 108,8 | 102,5 | 118,8 |
| Yanvar-mart | 109,5 | 102,6 | 120,6 |
| Yanvar-aprel | 109,4 | 102,4 | 120,0 |
| Yanvar-may | 108,8 | 100,6 | 121,0 |
| Yanvar-iyun | 109,1 | 100,8 | 121,4 |
| Yanvar-iyul | 109,2 | 100,6 | 122,0 |
| Yanvar-avqust | 109,4 | 100,9 | 121,8 |
| Yanvar-sentyabr | 109,6 | 101,4 | 121,4 |
| Yanvar-oktyabr | 109,7 | 101,8 | 121,4 |
| Yanvar-noyabr | 109,7 | 101,7 | 121,0 |
| Yanvar-dekabr | 109,9 | 102,7 | 120,2 |
| **2014-cü il** | | | |
| Yanvar | 109,3 | 100,2 | 122,1 |
| Yanvar-fevral | 109,0 | 100,9 | 120,1 |
| Yanvar-mart | 109,2 | 101,2 | 119,9 |
| Yanvar-aprel | 109,1 | 102,1 | 117,6 |
| Yanvar-may | 108,8 | 102,2 | 116,4 |
| Yanvar-iyun | 108,9 | 102,8 | 115,5 |
| Yanvar-iyul | 109,1 | 103,5 | 115,0 |

Əmtəə dövriyyəsinin ümumi həcmində qeyri-ərzaq mallarının xüsusi çəkisi artaraq 2013-cü ilin yeddi ayı ilə müqayisədə 46,2 faizdən 49,5 faizədək yüksəlmişdir. Pərakəndə şəbəkədə satılmış qeyri-ərzaq mallarının həcmi 15,0 faiz artaraq 5,8 milyard manata çatmış, əmtəə dövriyyəsi üzrə real artımın 78,8 faizi qeyri-ərzaq mallarının satışı hesabına təmin edilmişdir. Pərakəndə əmtəə dövriyyəsinin ümumi həcmində qida məhsulları, içkilər və tütün məmulatlarının payı 50,5 faiz təşkil edərək 6,0 milyard manata bərabər olmuş və 2013-cü ilin yanvar-iyul aylarının səviyyəsini 3,5 faiz üstələmişdir.

Hər bir istehlakçı fərdi istehlak məqsədi ilə pərakəndə ticarət müəssisələrində orta hesabla ayda 90,7 manatlıq qida məhsulları, içkilər və tütün məmulatları, 89,0 manatlıq qeyri-ərzaq malları almışdır. 2013-cü ilin eyni dövrünün müvafiq göstəricisi ilə müqayisədə istehlakçılar tərəfindən qeyri-ərzaq mallarının alınmasına 13,3 manat daha çox vəsait xərcləndiyi halda, qida məhsulları, içkilər və tütün məmulatları üzrə bu məbləğ 2,7 manata bərabər olmuşdur.

Qrafik 21

**Ərzaq (içkilər və tütün məmulatları daxil edilməklə) və qeyri-ərzaq malları üzrə pərakəndə əmtəə dövriyyəsinin dinamikası** (2010 =100)



Cədvəl 41

## 2014-cü ilin yanvar-iyul aylarında pərakəndə əmtəə dövriyyəsinin mallar üzrə strukturu

| | Satışdan əldə olunan məbləğ, milyon manatla | 2013-cü ilin yanvar-iyul aylarına nisbətən, faizlə |
|---|---|---|
| **Pərakəndə əmtəə dövriyyəsi** | **11 843,0** | **109,1** |
| o cümlədən: qida məhsulları, içkilər və tütün məmulatları | 5 980,0 | 103,5 |
| toxuculuq malları, geyim və ayaqqabılar | 2 186,9 | 112,4 |
| elektrik malları və mebel | 492,8 | 114,8 |
| kompyuter avadanlıqları, kitab və digər çap məmulatları | 78,5 | 125,3 |
| əczaçılıq və tibbi mallar | 162,1 | 116,0 |
| avtomobil yanacağı | 899,9 | 100,6 |
| digər qeyri-ərzaq malları | 2 042,8 | 118,8 |

Hesabat dövründə istehlakçıların pərakəndə ticarət şəbəkələrində xərclədiyi vəsaitin 50,5 faizi qida məhsulları, içkilər və tütün məmulatlarının, 18,5 faizi toxuculuq malları, geyim və ayaqqabıların, 4,1 faizi elektrik malları və mebelin, 0,7 faizi kompyuter avadanlıqları, kitab və digər çap məmulatlarının, 1,4 faizi əczaçılıq və tibbi malların, 7,6 faizi avtomobil yanacağının, 17,2 faizi isə digər qeyri-ərzaq mallarının alınmasına sərf olunmuşdur.

2014-cü ilin yeddi ayında pərakəndə elektron ticarət dövriyyəsinin real həcmi 10,2 faiz artaraq 1495,6 min manat olmuşdur. Elektron ticarət üzrə istehlak mallarının satışının 78,3 faizi hüquqi şəxslərin, 21,7 faizi isə fərdi sahibkarların ticarət subyektləri tərəfindən həyata keçirilmişdir.

Hesabat dövründə elektron ticarət dövriyyəsinin 90,3 faizini təşkil edən qeyri-ərzaq mallarının satışı 2013-cü ilin eyni dövrü ilə müqayisədə 5,5 faiz artaraq 1350,0 min manata bərabər olmuşdur.

Pərakəndə ticarət dövriyyəsinin artımı ölkənin bütün regionlarında müşahidə olunmuşdur. Belə ki, 2013-cü ilin müvafiq dövrü ilə müqayisədə 2014-cü ilin yanvar-iyun aylarında pərakəndə ticarət dövriyyəsinin həcmi Bakı şəhəri üzrə 12,5 faiz, Dağlıq Şirvan iqtisadi rayonu üzrə 7,7 faiz, Aran iqtisadi rayonu üzrə 7,5 faiz, Abşeron iqtisadi rayonu üzrə 6,5 faiz, Yuxarı Qarabağ iqtisadi rayonu üzrə 5,1 faiz, Gəncə-Qazax iqtisadi rayonu üzrə 4,9 faiz, Lənkəran iqtisadi rayonu üzrə 3,8 faiz, Şəki-Zaqatala iqtisadi rayonu üzrə 3,0 faiz, Naxçıvan iqtisadi rayonu üzrə 2,4 faiz, Quba-Xaçmaz iqtisadi rayonu üzrə isə 2,3 faiz artmışdır. Bakı şəhəri, Ağstafa, Şəmkir, Bərdə, Biləsuvar, Yevlax, Zərdab, Kürdəmir, İmişli, Sabirabad və Füzuli rayonları üzrə pərakəndə ticarət dövriyyəsinin artım sürəti ölkə üzrə orta artım sürətindən (8,9 faiz) yüksək olmuşdur.

Qrafik 22

**Pərakəndə ticarət dövriyyəsinin iqtisadi rayonlar üzrə strukturu** (yekuna görə faizlə)



2014-cü ilin ilk altı ayında ölkədə 1710,9 min ton və ya əvvəlki ilin müvafiq dövrünə nisbətən 2,7 faiz (44,6 min ton) çox əsas növ neft məhsulları istehlak olunmuşdur. İstehlak olunmuş əsas növ neft məhsullarının 39,9 faizini avtomobil benzini, 34,0 faizini dizel yanacağı, 11,2 faizini aviasiya üçün və sair ağ neft, 6,0 faizini neft bitumu, 4,0 faizini maye qaz, 3,9 faizini nafta, 0,6 faizini sürtkü yağları, 0,3 faizini mazut yanacağı, cüzi hissəsini isə neft koksu təşkil etmişdir.

Qrafik 23

**Əsas növ neft məhsullarının istehlakının strukturu, (min ton)**




Cari ilin birinci yarımilində avtomobil benzininin istehlakı 5,8 faiz, aviasiya üçün və sair ağ neftin istehlakı 5,4 dəfə artmış, başqa əsas növ neft məhsullarının istehlakı isə azalmışdır.

Cədvəl 42

## Əsas növ neft məhsullarının daxili bazarda istehlakının strukturu

| | 2014-cü ilin yanvar-iyun aylarında, min ton | 2013-cü ilin yanvar-iyun aylarında, min ton | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə |
|---|---|---|---|
| **Cəmi** | **1710,9** | **1666,3** | **102,7** |
| o cümlədən:<br>avtomobil benzini | 681,8 | 644,2 | 105,8 |
| dizel yanacağı | 581,8 | 644,8 | 90,2 |
| aviasiya üçün və sair ağ neft | 191,5 | 35,3 | 5,4 d |
| nafta | 66,9 | 76,1 | 87,9 |
| mazut yanacağı | 5,7 | 18,0 | 31,7 |
| maye qaz | 68,7 | 72,3 | 95,0 |
| neft koksu | 0,7 | 1,8 | 38,9 |
| neft bitumu | 102,8 | 150,3 | 68,4 |
| sürtkü yağları | 11,0 | 23,5 | 46,8 |

# İctimai iaşə xidmətləri

2014-cü ilin yanvar-iyul aylarında ictimai iaşə dövriyyəsinin həcmi 2013-cü ilin müvafiq dövrü ilə müqayisədə 15,1 faiz artaraq 467,5 milyon manat olmuşdur. İctimai iaşə dövriyyəsinə dair əsas göstəricilər aşağıdakı kimidir:

Cədvəl 43

**İctimai iaşə dövriyyəsi**

| | 2014-cü ilin yanvar-iyul ayları, min manatla | 2014-cü ilin yanvar-iyul ayları 2013-cü ilin yanvar-iyul aylarına nisbətən, faizlə |
|---|---|---|
| **İctimai iaşə dövriyyəsinin həcmi** | **467 549,4** | **115,1** |
| o cümlədən: dövlət mülkiyyəti | 8 138,9 | 103,9 |
| qeyri-dövlət mülkiyyəti | 459 410,5 | 115,3 |
| ondan: hüquqi şəxs yaratmadan fəaliyyət göstərən fərdi sahibkarlar | 246 479,2 | 118,6 |

Özəl sektorda ictimai iaşə dövriyyəsinin 46,3 faizi hüquqi şəxs statuslu müəssisələrin, 53,7 faizi isə bu sahədə sahibkarlıq fəaliyyəti ilə məşğul olan fərdi sahibkarların payına düşür. Hüquqi şəxs statuslu müəssisələrdə dövriyyənin həcmi 2013-cü ilin müvafiq dövrü ilə müqayisədə 11,8 faiz artaraq 212,9 milyon manat təşkil etmişdir.

# Əhaliyə göstərilən pullu xidmətlər

2014-cü ilin yanvar-iyul aylarında əhaliyə göstərilən pullu xidmətlərin həcmi 2013-cü ilin müvafiq dövrü ilə müqayisədə 6,6 faiz artaraq 3,5 milyard manat olmuşdur. Artımın 60,8 faizi hüquqi şəxslərin müəssisələrində yaranmış və bu müəssisələrdə əhaliyə 2,7 milyard manatlıq və ya 5,3 faiz çox pullu xidmətlər göstərilmişdir.

Cədvəl 44

**Pullu xidmətlərin həcmi**

| | 2014-cü ilin yanvar-iyul ayları, milyon manatla | 2014-cü ilin yanvar-iyul ayları 2013-cü ilin yanvar-iyul aylarına nisbətən, faizlə |
|---|---|---|
| **Pullu xidmətlərin ümumi həcmi-cəmi** | **3 532,4** | **106,6** |
| dövlət mülkiyyəti | 827,1 | 101,8 |
| qeyri-dövlət mülkiyyəti | 2 705,3 | 108,2 |
| ondan: hüquqi şəxs yaratmadan fəaliyyət göstərən fərdi sahibkarlar | 872,7 | 110,9 |

Hesabat dövründə hər bir ölkə sakini hər ay orta hesabla 53,8 manatlıq və ya ötən ilin müvafiq dövrü ilə müqayisədə 2,9 manat çox müxtəlif pullu xidmətlərdən istifadə etmişdir.

Ölkənin bütün bölgələrində xidmət sektoru dinamik inkişaf etmiş, 2014-cü ilin birinci yarısında əhaliyə göstərilən pullu xidmətlərin həcmi əvvəlki ilin eyni dövrü ilə müqayisədə Bakı şəhəri üzrə 6,7 faiz, Dağlıq Şirvan iqtisadi rayonu üzrə 28,5 faiz, Abşeron iqtisadi rayonu üzrə 12,3 faiz, Yuxarı Qarabağ iqtisadi rayonu üzrə 8,9 faiz, Aran iqtisadi rayonu üzrə 8,0 faiz, Quba-Xaçmaz iqtisadi rayonu üzrə 5,9 faiz, Gəncə-Qazax iqtisadi rayonu üzrə 4,8 faiz, Şəki-Zaqatala iqtisadi rayonu üzrə 4,6 faiz, Lənkəran iqtisadi rayonu üzrə 4,3 faiz, Naxçıvan iqtisadi rayonu üzrə 4,1 faiz artmışdır.

Cədvəl 45

## Əhaliyə göstərilən pullu xidmətlərin indekslərinin dinamikası

| | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, müqayisəli qiymətlərlə, faizlə | | |
|---|---|---|---|
| | Əhaliyə göstərilən pullu xidmətlər | o cümlədən: | |
| | | hüquqi şəxslər üzrə | hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti göstərən fiziki şəxslər üzrə |
| **2013-cü il** | | | |
| Yanvar | 108,4 | 107,1 | 112,8 |
| Yanvar – fevral | 107,2 | 105,0 | 114,6 |
| Yanvar – mart | 107,5 | 104,8 | 116,7 |
| Yanvar-aprel | 107,3 | 104,9 | 115,5 |
| Yanvar-may | 107,3 | 105,5 | 113,4 |
| Yanvar-iyun | 107,5 | 105,5 | 114,2 |
| Yanvar-iyul | 106,8 | 105,1 | 112,8 |
| Yanvar-avqust | 106,8 | 105,2 | 112,2 |
| Yanvar-sentyabr | 107,2 | 105,7 | 112,3 |
| Yanvar-oktyabr | 106,9 | 105,4 | 111,7 |
| Yanvar-noyabr | 107,3 | 106,0 | 111,3 |
| Yanvar-dekabr | 108,2 | 107,0 | 112,1 |
| **2014-cü il** | | | |
| Yanvar | 107,8 | 106,9 | 110,5 |
| Yanvar-fevral | 106,9 | 105,5 | 111,3 |
| Yanvar-mart | 107,0 | 105,5 | 111,8 |
| Yanvar-aprel | 106,6 | 105,2 | 111,2 |
| Yanvar-may | 106,7 | 105,5 | 110,3 |
| Yanvar-iyun | 106,9 | 105,6 | 110,9 |
| Yanvar-iyul | 106,6 | 105,3 | 110,9 |

Qrafik 24

**2014-cü ilin yanvar-iyul aylarında əhaliyə göstərilən pullu xidmətlərin mülkiyyət formaları üzrə quruluşu**



Qrafik 25

**Əhaliyə göstərilən pullu xidmətlər üzrə qiymət və fiziki həcm indeksləri**
(əvvəlki aya nisbətən, faizlə)



Cədvəl 46

# Qiymət və tarif indeksləri

(faizlə)

| | 2014-cü ilin iyul ayı 2014-cü ilin iyun ayına nisbətən | 2014-cü ilin yanvar-iyul ayları 2013-cü ilin yanvar-iyul aylarına nisbətən |
|---|---|---|
| İstehlak qiymətləri indeksi | 99,2 | 101,5 |
| Sənaye məhsullarının istehsalçı qiymət indeksi | 96,1 | 103,5 |
| Kənd təsərrüfatı məhsullarının istehsalçı qiymət indeksi | 97,4 | 100,8 |
| Nəqliyyat, poçt tarifləri indeksi | 100,9 | 95,6 |

Qrafik 26

# İstehlak və istehsalçı qiymət və tarif indeksləri

(faizlə)



Qrafik 27

**İstehlak mallarının qiymətləri və xidmət tarifləri indeksi və sənaye məhsullarının istehsalçı qiymət indeksi**
(əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə)




# İstehlak mallarının qiymətləri və xidmət tarifləri

2014-cü ilin iyul ayında istehlak mallarının qiymətləri və xidmət tarifləri əvvəlki ayla müqayisədə 0,8 faiz ucuzlaşmış, əvvəlki ilin yanvar-iyul aylarına nisbətən isə 1,5 faiz bahalaşmışdır.

Cədvəl 47

**İstehlak qiymətləri indeksinin dəyişməsi**

(faizlə)

| | Cəmi mallar və xidmətlər | | Ərzaq məhsulları, içkilər və tütün məmulatı | |
|---|---|---|---|---|
| | əvvəlki aya nisbətən | əvvəlki ilin müvafiq dövrünə nisbətən | əvvəlki aya nisbətən | əvvəlki ilin müvafiq dövrünə nisbətən |
| | | **2013-cü il** | | |
| Yanvar | 101,2 | 100,8 | 100,6 | 99,4 |
| Fevral | 100,5 | 101,0 | 101,0 | 99,8 |
| Mart | 100,6 | 101,2 | 101,3 | 100,2 |
| **I rüb** | **102,5** | **101,2** | **103,2** | **100,2** |
| Aprel | 100,4 | 101,4 | 100,9 | 100,8 |
| May | 99,6 | 101,7 | 99,1 | 101,4 |
| İyun | 98,9 | 102,0 | 97,4 | 101,8 |

…ardı...

| | Cəmi mallar və xidmətlər | | Ərzaq məhsulları, içkilər və tütün məmulatı | |
|---|---|---|---|---|
| | əvvəlki aya nisbətən | əvvəlki ilin müvafiq dövrünə nisbətən | əvvəlki aya nisbətən | əvvəlki ilin müvafiq dövrünə nisbətən |
| **II rüb** | **100,4** | **102,8** | **100,6** | **103,4** |
| İyul | 99,3 | 102,1 | 98,3 | 102,0 |
| Avqust | 99,7 | 102,2 | 99,2 | 102,2 |
| Sentyabr | 100,1 | 102,3 | 100,1 | 102,2 |
| **III rüb** | **98,2** | **103,0** | **95,8** | **103,2** |
| Oktyabr | 100,7 | 102,3 | 101,2 | 102,2 |
| Noyabr | 100,7 | 102,3 | 101,4 | 102,2 |
| Dekabr | 101,9 | 102,4 | 102,6 | 102,2 |
| **IV rüb** | **101,7** | **102,8** | **102,7** | **102,3** |
| **2014-cü il** | | | | |
| Yanvar | 99,8 | 102,2 | 100,2 | 102,6 |
| Fevral | 100,4 | 102,1 | 100,8 | 102,4 |
| Mart | 100,3 | 102,0 | 100,6 | 102,2 |
| **I rüb** | **101,7** | **102,0** | **103,2** | **102,2** |
| Aprel | 100,2 | 101,9 | 100,2 | 101,9 |
| May | 99,2 | 101,7 | 98,1 | 101,5 |
| İyun | 98,8 | 101,6 | 97,1 | 101,2 |
| **II rüb** | **99,6** | **101,2** | **98,7** | **100,2** |
| İyul | 99,2 | 101,5 | 98,0 | 100,9 |

…ardı...

| | Qeyri-ərzaq malları | | Xidmətlər | |
|---|---|---|---|---|
| | əvvəlki aya nisbətən | əvvəlki ilin müvafiq dövrünə nisbətən | əvvəlki aya nisbətən | əvvəlki ilin müvafiq dövrünə nisbətən |
| **2013-cü il** | | | | |
| Yanvar | 100,1 | 100,5 | 103,0 | 103,4 |
| Fevral | 100,0 | 100,4 | 100,0 | 103,4 |
| Mart | 100,0 | 100,4 | 100,0 | 103,4 |
| **I rüb** | **100,2** | **100,4** | **103,1** | **103,4** |
| Aprel | 100,0 | 100,4 | 100,0 | 103,3 |
| May | 100,1 | 100,5 | 100,1 | 103,3 |
| İyun | 100,0 | 100,5 | 100,1 | 103,3 |
| **II rüb** | **100,0** | **100,5** | **100,1** | **103,2** |

...sonu

| | Qeyri-ərzaq malları | | Xidmətlər | |
|---|---|---|---|---|
| | əvvəlki aya nisbətən | əvvəlki ilin müvafiq dövrünə nisbətən | əvvəlki aya nisbətən | əvvəlki ilin müvafiq dövrünə nisbətən |
| İyul | 100,0 | 100,5 | 100,1 | 103,3 |
| Avqust | 100,0 | 100,5 | 100,1 | 103,4 |
| Sentyabr | 100,2 | 100,5 | 100,0 | 103,4 |
| **III rüb** | **100,0** | **100,5** | **100,3** | **103,6** |
| Oktyabr | 100,4 | 100,5 | 100,2 | 103,4 |
| Noyabr | 100,1 | 100,6 | 100,1 | 103,4 |
| Dekabr | 102,7 | 100,8 | 100,4 | 103,5 |
| **IV rüb** | **101,6** | **101,8** | **100,4** | **103,9** |
| **2014-cü il** | | | | |
| Yanvar | 100,0 | 103,5 | 99,1 | 100,2 |
| Fevral | 100,0 | 103,5 | 100,0 | 100,2 |
| Mart | 100,0 | 103,5 | 100,1 | 100,3 |
| **I rüb** | **101,9** | **103,5** | **99,5** | **100,3** |
| Aprel | 100,2 | 103,6 | 100,1 | 100,3 |
| May | 100,0 | 103,6 | 100,0 | 100,3 |
| İyun | 99,9 | 103,6 | 100,2 | 100,3 |
| **II rüb** | **100,2** | **103,7** | **100,2** | **100,4** |
| İyul | 100,0 | 103,6 | 100,2 | 100,4 |

2014-cü ilin iyul ayında **istehlak qiymətlərinin bazis indeksi** 2014-cü ilin iyun ayı ilə müqayisədə eyni səviyyədə qalmış, əvvəlki ilin yanvar-iyul aylarına nisbətən isə 1,8 faiz bahalaşmışdır. Bazis indeksi dedikdə dövlət tərəfindən tənzimlənən qiymət və tariflər və mövsümi xarakterə malik olan məhsullar istisna olmaqla hesablanan istehlak qiymətləri indeksi nəzərdə tutulur.

Qrafik 28

**İstehlak qiymətləri indeksi və istehlak qiymətlərinin bazis indeksinin dəyişməsi**

(faizlə)




Cari ilin iyul ayında ərzaq məhsulları, içkilər və tütün məmulatlarının qiymətləri əvvəlki aya nisbətən 2,0 faiz ucuzlaşmış, 2013-cü ilin yanvar-iyul aylarına nisbətən isə 0,9 faiz bahalaşmışdır.

Cədvəl 48

## Ərzaq məhsulları, içkilər və tütün məmulatlarının qiymət indeksinin dəyişməsi

(faizlə)

| | 2014-cü ilin iyul ayı 2014-cü ilin iyun ayına nisbətən | 2014-cü ilin yanvar-iyul ayları 2013-cü ilin yanvar-iyul aylarına nisbətən | Məlumat üçün: 2013-cü ilin yanvar-iyul ayları 2012-ci ilin yanvar-iyul aylarına nisbətən |
|---|---|---|---|
| Çörək məmulatları və yarmalar | 100,1 | 100,6 | 101,7 |
| Ət məhsulları | 99,8 | 101,1 | 100,2 |
| Balıq məhsulları | 98,9 | 116,0 | 99,2 |
| Süd məhsulları, pendir və yumurta | 100,0 | 101,4 | 99,5 |
| Yağ və piylər | 100,1 | 103,0 | 97,9 |
| Meyvələr | 93,9 | 93,6 | 105,8 |
| Tərəvəzlər | 90,6 | 95,7 | 104,5 |
| Qənd, cem, bal, şokolad və konfetlər | 100,0 | 99,9 | 98,4 |
| Digər kateqoriyalara aid edilməyən yeyinti məhsulları | 100,0 | 103,0 | 101,4 |
| Qəhvə, çay, kakao | 100,0 | 102,3 | 101,6 |
| Mineral sular, sərinləşdirici içkilər və şirələr | 100,0 | 101,0 | 103,2 |
| Spirtli içkilər | 100,1 | 100,6 | 100,0 |
| Tütün məmulatları | 100,0 | 114,4 | 111,4 |

2014-cü ilin iyul ayında qeyri-ərzaq mallarının qiymətləri əvvəlki ayla müqayisədə eyni səviyyədə qalmış, 2013-cü ilin yanvar-iyul aylarına nisbətən isə 3,6 faiz bahalaşmışdır.

Cədvəl 49

## Qeyri-ərzaq mallarının qiymət indeksinin dəyişməsi

(faizlə)

| | 2014-cü ilin iyul ayı 2014-cü ilin iyun ayına nisbətən | 2014-cü ilin yanvar-iyul ayları 2013-cü ilin yanvar-iyul aylarına nisbətən | Məlumat üçün: 2013-cü ilin yanvar-iyul ayları 2012-ci ilin yanvar-iyul aylarına nisbətən |
|---|---|---|---|
| Parçalar | 100,0 | 99,5 | 101,7 |
| Geyim | 99,9 | 101,3 | 100,7 |
| Digər paltarlar və qalantereya | 100,0 | 100,9 | 102,4 |
| Ayaqqabı | 99,8 | 100,6 | 101,0 |
| İnşaat materialları | 100,1 | 101,2 | 100,2 |
| Sıxılmış balon qazı | 100,0 | 101,4 | 100,0 |
| Duru yanacaq (ağ neft) | 100,0 | 111,7 | 102,0 |
| Mebel və ev əşyaları | 100,1 | 101,3 | 100,8 |
| Xalça və digər döşəmə örtükləri | 100,2 | 101,3 | 100,5 |
| Ev üçün toxuculuq məmulatları | 100,0 | 101,1 | 101,0 |
| Məişət cihazları | 100,1 | 100,6 | 99,9 |
| Kiçik elektrik cihazları | 100,0 | 100,3 | 100,4 |
| Şüşə məmulatları, yemək qabları və əşyaları | 99,8 | 101,9 | 101,2 |
| İri alət və avadanlıqlar | 99,8 | 96,9 | 98,1 |
| Kiçik alət və avadanlıqlar | 100,0 | 100,1 | 100,3 |
| Mənzilə uzun müddət qulluq etmək üçün lazım olan məhsullar və xidmətlər (mebellərə qulluq etmək üçün vasitələr, unitaz və vannaların təmizlənməsi üçün vasitələr, qabların yuyulması üçün vasitələr və s.) | 100,0 | 101,2 | 100,3 |
| Dərmanlar | 100,2 | 99,9 | 100,7 |
| Tibb təyinatlı digər məhsullar | 100,3 | 100,5 | 100,1 |
| Müalicə ləvazimatları və cihazları | 100,0 | 101,1 | 103,6 |
| Minik avtomobili | 100,1 | 96,3 | 97,5 |
| Velosiped | 99,3 | 101,3 | 100,8 |
| Minik avtomobilləri üçün ehtiyat hissələri | 100,0 | 100,2 | 99,9 |

…ardı

| | 2014-cü ilin iyul ayı 2014-cü ilin iyun ayına nisbətən | 2014-cü ilin yanvar-iyul ayları 2013-cü ilin yanvar-iyul aylarına nisbətən | Məlumat üçün: 2013-cü ilin yanvar-iyul ayları 2012-ci ilin yanvar-iyul aylarına nisbətən |
|---|---|---|---|
| Yanacaq və sürtkü materialları (benzin və dizel yanacağı) | 100,0 | 131,8 | 100,0 |
| Telefon (faksimil) aparatı | 99,9 | 99,0 | 98,8 |
| Fotoqrafiya, kinematoqrafiya avadanlıqları və optik cihazlar | 99,9 | 98,9 | 99,5 |
| Məlumatın işlənməsi üçün avadanlıqlar (kalkulyator,fərdi kompyuter, noutbuk, planşet kompyuter) | 99,9 | 99,4 | 100,2 |
| Uzunmüddətli istifadə üçün istirahət əşyaları və musiqi alətləri | 99,3 | 98,3 | 100,1 |
| Oyuncaqlar | 99,9 | 99,9 | 99,6 |
| Açıq havada idman, turizmlə məşğul olmaq və istirahət etmək üçün əşyalar | 99,9 | 99,5 | 99,0 |
| Bağçılıq alətləri | 100,0 | 102,3 | 105,8 |
| Ev heyvanları üçün yemlər | 100,0 | 96,3 | 100,0 |
| Kitablar | 99,9 | 102,1 | 100,8 |
| Qəzetlər və dövri nəşrlər | 100,0 | 101,2 | 101,6 |
| Dəftərxana və şəkil çəkmək üçün ləvazimat | 99,9 | 101,0 | 100,2 |
| Elektrik cihazları (elektrik fenlər) | 100,3 | 101,8 | 100,5 |
| Şəxsi gigiyena əşyaları və digər məmulatlar | 100,0 | 100,9 | 100,2 |
| Zərgərlik məmulatları | 100,0 | 98,8 | 100,4 |
| Sair şəxsi istifadə əşyaları | 100,1 | 102,1 | 100,4 |

2014-cü ilin iyul ayında əhaliyə göstərilən pullu xidmətlərin qiymət və tarifləri əvvəlki aya nisbətən 0,2 faiz, 2013-cü ilin yanvar-iyul aylarına nisbətən isə 0,4 faiz bahalaşmışdır.

Cədvəl 50

## Əhaliyə göstərilən pullu xidmətlərin qiymət (tarif) indeksinin dəyişməsi

(faizlə)

| | 2014-cü ilin iyul ayı 2014-cü ilin iyun ayına nisbətən | 2014-cü ilin yanvar-iyul ayları 2013-cü ilin yanvar-iyul aylarına nisbətən | Məlumat üçün: 2013-cü ilin yanvar-iyul ayları 2012-ci ilin yanvar-iyul aylarına nisbətən |
|---|---|---|---|
| Paltarların təmizlənməsi, təmiri və kirayəsi | 100,1 | 101,9 | 100,9 |
| Ayaqqabıların təmiri | 100,0 | 101,4 | 105,4 |
| İcarəçi tərəfindən faktiki ödənilmiş icarə haqqı | 101,7 | 108,1 | 102,9 |
| Mənzil sahəsinin saxlanması və təmiri üçün lazım olan materiallar | 100,1 | 102,4 | 100,3 |
| Soyuq su təchizatı | 100,0 | 100,0 | 100,0 |
| Zibilin daşınması | 100,0 | 100,0 | 100,0 |
| Kanalizasiya xidməti | 100,0 | 100,0 | 100,0 |
| Elektrik enerjisi | 100,0 | 100,0 | 100,0 |
| Təbii qaz | 100,0 | 100,0 | 100,0 |
| İsti su, buxar təchizatı | 100,0 | 100,0 | 100,0 |
| Mebel, ev əşyaları və döşəmə örtüklərinin təmiri | 100,0 | 103,5 | 100,7 |
| Məişət cihazlarının təmiri | 99,7 | 101,2 | 101,0 |
| Ev və məişət xidmətləri | 100,0 | 100,0 | 101,9 |
| Tibbi xidmət | 100,0 | 102,0 | 100,0 |
| Stomatoloji xidmət | 100,0 | 101,3 | 100,4 |
| Tibbi laboratoriya xidmətləri və digər tibbi xidmətlər | 99,9 | 104,9 | 101,1 |
| Xəstəxana xidmətləri | 100,2 | 101,6 | 102,7 |
| Avtomobillərin təmiri | 100,0 | 101,6 | 102,4 |
| Nəqliyyat vasitələri ilə bağlı digər xidmətlər | 100,0 | 100,7 | 99,3 |
| Dəmir yolu ilə sərnişindaşıma xidməti | 100,8 | 105,9 | 99,1 |
| Avtomobil nəqliyyatı ilə sərnişindaşıma xidməti | 100,0 | 102,6 | 100,5 |
| Hava nəqliyyatı ilə sərnişindaşıma | 104,1 | 112,1 | 107,5 |

... ardı

| | 2014-cü ilin iyul ayı 2014-cü ilin iyun ayına nisbətən | 2014-cü ilin yanvar-iyul ayları 2013-cü ilin yanvar-iyul aylarına nisbətən | Məlumat üçün: 2013-cü ilin yanvar-iyul ayları 2012-ci ilin yanvar-iyul aylarına nisbətən |
|---|---|---|---|
| Dəniz nəqliyyatı ilə sərnişindaşıma | 100,0 | 85,2 | 99,2 |
| Digər nəqliyyat xidmətləri | 100,0 | 103,2 | 100,6 |
| Poçt xidmətləri | 100,0 | 100,0 | 100,0 |
| Telefon rabitəsi xidmətləri | 100,0 | 86,8 | 93,7 |
| Oyun avtomatlarının xidməti | 100,0 | 100,0 | 102,7 |
| Kompleks istirahətin təşkili | 100,3 | 98,0 | 98,7 |
| Ödənişli ali təhsil haqqı | 101,1 | 105,8 | 103,7 |
| Restoranlar və kafelər | 100,3 | 101,0 | 101,7 |
| Mehmanxana xidməti | 100,5 | 102,4 | 99,1 |
| Bərbərxana və kosmetik xidmətlər | 100,1 | 101,6 | 101,7 |
| Nəqliyyat vasitələrinin sığortası | 100,0 | 100,0 | 100,0 |
| Sadalanan kateqoriyalara aid edilməyən digər xidmətlər | 100,0 | 100,5 | 176,3 |

Cədvəl 51

## Ölkənin iqtisadi rayonları üzrə 2014-cü ilin iyul ayında istehlak qiymətləri indeksinin dəyişməsi

(faizlə)

| | Cəmi mallar və xidmətlər üzrə | Ərzaq məhsulları, içkilər, tütün | Qeyri-ərzaq malları | Xidmətlər |
|---|---|---|---|---|
| Bakı şəhəri | 99,3 | 98,5 | 99,8 | 100,1 |
| Abşeron | 99,5 | 98,7 | 100,3 | 100,0 |
| Gəncə-Qazax | 99,5 | 98,6 | 100,0 | 100,2 |
| Şəki-Zaqatala | 98,9 | 97,5 | 100,0 | 99,8 |
| Lənkəran | 99,3 | 98,3 | 100,0 | 100,0 |
| Quba-Xaçmaz | 99,1 | 97,8 | 100,0 | 100,0 |
| Aran | 99,5 | 98,4 | 100,0 | 100,4 |
| Yuxarı Qarabağ | 99,1 | 98,2 | 100,0 | 100,0 |
| Dağlıq Şirvan | 99,1 | 97,9 | 100,0 | 99,9 |
| Naxçıvan | 99,9 | 98,9 | 100,0 | 101,2 |

Qrafik 29

## İqtisadi rayonlar üzrə istehlak qiymətləri indeksinin dəyişməsi

(əvvəlki aya nisbətən, faizlə)




Cədvəl 52

## 2014-cü ilin iyul ayı üçün ölkə üzrə əsas ərzaq məhsullarının orta bazar qiymətləri və indeksləri

| Malın adı | 2014-cü ilin iyul ayı (kq, manatla) | 2013-cü ilin iyul ayı (kq, manatla) | 2014-cü ilin iyul ayı 2014-cü ilin iyun ayına nisbətən, faizlə | 2014-cü ilin iyul ayı 2013-cü ilin iyul ayına nisbətən, faizlə |
|---|---|---|---|---|
| Mal əti | 7,63 | 7,59 | 99,7 | 100,5 |
| Qoyun əti | 9,31 | 9,00 | 99,8 | 103,4 |
| Toyuq əti | 3,23 | 3,34 | 99,4 | 96,7 |
| Kərə yağı | 6,84 | 5,99 | 100,2 | 114,2 |
| Bitki yağı | 2,26 | 2,25 | 99,9 | 100,4 |
| Marqarin | 2,46 | 2,48 | 100,0 | 99,2 |
| Süd | 0,90 | 0,88 | 99,2 | 102,3 |
| Qatıq | 1,52 | 1,53 | 100,1 | 99,3 |
| Brınza pendiri | 4,96 | 4,60 | 100,2 | 107,8 |
| Yumurta (10 ədəd) | 1,06 | 1,07 | 101,9 | 99,1 |
| Şəkər tozu | 0,98 | 1,01 | 100,1 | 97,0 |
| Qənd | 1,40 | 1,40 | 100,1 | 100,0 |

...ardı

| Malın adı | 2014-cü ilin iyul ayı (kq, manatla) | 2013-cü ilin iyul ayı (kq, manatla) | 2014-cü ilin iyul ayı 2014-cü ilin iyun ayına nisbətən, faizlə | 2014-cü ilin iyul ayı 2013-cü ilin iyul ayına nisbətən, faizlə |
|---|---|---|---|---|
| Çay | 4,59 | 4,34 | 99,9 | 105,8 |
| Duz | 0,52 | 0,49 | 100,1 | 106,1 |
| Buğda unu | 0,79 | 0,75 | 100,3 | 105,3 |
| Çörək | 0,60 | 0,60 | 100,2 | 100,0 |
| Düyü | 1,71 | 1,53 | 100,2 | 111,8 |
| Manna yarması | 1,72 | 1,65 | 100,2 | 104,2 |
| Qarabaşaq yarması | 1,55 | 1,67 | 99,5 | 92,8 |
| Makaron | 1,49 | 1,45 | 100,0 | 102,8 |
| Vermişel | 1,46 | 1,43 | 100,0 | 102,1 |
| Kartof | 0,77 | 0,59 | 86,8 | 130,5 |
| Kələm | 0,54 | 0,72 | 95,8 | 75,0 |
| Baş soğan | 0,41 | 0,52 | 84,1 | 78,8 |
| Sarımsaq | 1,55 | 1,83 | 92,3 | 84,7 |
| Çuğundur | 0,91 | 0,88 | 101,8 | 103,4 |
| Yerkökü | 1,03 | 1,00 | 106,2 | 103,0 |
| Xiyar | 0,65 | 0,75 | 94,5 | 86,7 |
| Pomidor | 1,06 | 1,03 | 94,7 | 102,9 |
| Göyərti (1 dəstə) | 0,17 | 0,17 | 102,3 | 100,0 |
| Alma | 1,04 | 1,32 | 85,7 | 78,8 |
| Armud | 1,78 | 1,71 | 89,1 | 104,1 |
| Çiyelek | 1,92 | 2,19 | 101,0 | 87,7 |
| Alça | 0,95 | 1,05 | 81,4 | 90,5 |
| Banan | 2,43 | 2,43 | 99,7 | 100,0 |

## İstehsalçı və idxal-ixrac mallarının qiymət indeksləri

**Kənd təsərrüfatı məhsullarının istehsalçı qiymət indeksləri.** 2014-cü ilin iyul ayında bitkiçilik və heyvandarlıq məhsullarının istehsalçı qiymətləri əvvəlki ayla müqayisədə 2,6 faiz ucuzlaşmışdır. Bitkiçilik məhsullarının istehsalçı qiymətləri 6,6 faiz ucuzlaşmış, heyvandarlıq məhsullarının istehsalçı qiymətləri isə 1,4 faiz bahalaşmışdır.

Ay ərzində balıq və sair balıqçılıq məhsullarının və meşə təsərrüfatı məhsullarının istehsalçı qiymətlərində əvvəlki ayla müqayisədə heç bir dəyişiklik müşahidə olunmamışdır.

Cədvəl 53

(faizlə)

| | 2014-cü ilin iyul ayı 2014-cü ilin iyun ayına nisbətən | 2014-cü ilin yanvar-iyul ayları 2013-cü ilin yanvar-iyul aylarına nisbətən |
|---|---|---|
| **Bitkiçilik və heyvandarlıq məhsilları** | 97,4 | 100,8 |
| o cümlədən: bitkiçilik məhsulları | 93,4 | 97,3 |
| heyvandarlıq məhsulları | 101,4 | 104,5 |
| **Meşə təsərrüfatı** | 100,0 | 100,1 |
| **Balıq və sair balıqçılıq məhsulları** | 100,0 | 110,3 |

**Sənaye məhsullarının istehsalçı qiymət indeksləri.** 2014-cü ilin iyul ayında sənaye məhsullarının istehsalçı qiymətləri indeksi əvvəlki ayla müqayisədə 3,9 faiz, o cümlədən mədənçıxarma sənayesi üzrə 4,4 faiz, emal sənayesi üzrə isə istehsalçı qiymətləri indeksi 0,1 faiz azalmışdır.

Ay ərzində elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı üzrə və su təchizatı, tullantıların təmizlənməsi və emalı üzrə isə heç bir dəyişiklik müşahidə olunmamışdır.

Cədvəl 54

(faizlə)

| | 2014-cü ilin iyul ayı 2014-cü ilin iyun ayına nisbətən | 2014-cü ilin yanvar-iyul ayları 2013-cü ilin yanvar-iyul aylarına nisbətən |
|---|---|---|
| **Sənaye məhsullarının istehsalçı qiymətləri indeksi** | 96,1 | 103,5 |
| Mədənçıxarma sənayesi | 95,6 | 101,6 |
| Emal sənayesi | 99,9 | 116,6 |
| Elektirk enerjisi, qaz və buxar bölüşdürülməsi və təchizatı | 100,0 | 100,0 |
| Su təchizatı; tullantıların təmizlənməsi və emalı | 100,0 | 100,0 |

**Nəqliyyat, poçt və rabitə tarifləri indeksləri.** 2014-cü ilin iyul ayında nəqliyyat və poçt tarifləri indeksi əvvəlki ayla müqayisədə 0,9 faiz artmış, o cümlədən yükdaşıma tarifləri 0,6 faiz, sərnişindaşıma tarifləri 2,3 faiz artmış, poçt və kuryer tarifləri isə sabit qalmışdır. Rabitə tarifləri indeksi üzrə əvvəlki ayla müqayisədə heç bir dəyişiklik müşahidə olunmamışdır.

Cədvəl 55

(faizlə)

| | 2014-cü ilin iyul ayı 2014-cü ilin iyun ayına nisbətən | 2014-cü ilin yanvar-iyul ayları 2013-cü ilin yanvar-iyul aylarına nisbətən |
|---|---|---|
| **Nəqliyyat və poçt xidmətləri** | 100,9 | 95,6 |
| o cümlədən: Yükdaşıma nəqliyyatı | 100,6 | 94,0 |
| Sərnişindaşıma nəqliyyatı | 102,3 | 101,9 |
| Poçt və kuryer xidmətləri | 100,0 | 100,4 |
| **Rabitə xidmətləri** | 100,0 | 91,6 |

**Tikinti işlərinin qiymət indeksləri.** Tikinti işlərinin qiymət indeksi 2014-cü ilin II rübündə əvvəlki rübə nisbətən və yanvar-iyun aylarında əvvəlki ilin müvafiq dövrünə nisbətən 0,1 faiz artmışdır.

Cədvəl 56

(faizlə)

| | 2014-cü ilin II rübü 2014-cü ilin I rübünə nisbətən | 2014-cü ilin yanvar-iyun ayları 2013-cü ilin müvafiq dövrünə nisbətən |
|---|---|---|
| **Tikinti üzrə qiymət indeksi** | **100,1** | **100,1** |
| **o cümlədən: Yerüstü tikililər üzrə qiymət indeksi** | **99,9** | **99,9** |
| o cümlədən: yaşayış evləri üzrə qiymət indeksi | 99,9 | 99,6 |
| o cümlədən: 5 mərtəbəyə qədər yaşayış evləri | 100,2 | 100,3 |
| 6 və çoxmərtəbəli yaşayış evləri | 99,8 | 99,4 |
| sosial təyinatlı binalar üzrə qiymət indeksi | 99,5 | 100,3 |
| o cümlədən: inzibati tikililər | 100,0 | 100,3 |
| ümumtəhsil məktəbləri | 99,4 | 100,3 |
| istehsal təyinatlı obyektlər üzrə qiymət indeksi | 101,1 | 100,4 |
| o cümlədən: sənaye obyektləri | 101,1 | 100,4 |
| **Yol və körpü (mülki) tikintisi üzrə qiymət indeksi** | **101,4** | **101,5** |
| o cümlədən: yol tikintisi | 101,6 | 101,7 |
| körpü tikintisi | 100,1 | 100,5 |

**İdxal olunan malların qiymət indeksləri.** Ölkəyə idxal olunan malların qiymət indeksi 2014-cü ilin iyun ayında əvvəlki aya nisbətən 100,0 faiz, MDB ölkələrindən idxal olunan mallar üzrə 99,5 faiz, digər ölkələrdən idxal olunan mallar üzrə isə 100,2 faiz təşkil etmişdir.

Təsnif edilmiş emal mərhələləri üzrə idxal edilmiş istehlak mallarının qiymətləri 0,6 faiz ucuzlaşmış, aralıq məhsulların qiymətləri 0,3 faiz və investisiya mallarının qiymətləri 0,1 faiz bahalaşmışdır. Digər malların qiymətləri isə dəyişməz olaraq qalmışdır.

Cədvəl 57

(faizlə)

| | 2014-cü ilin iyun ayı 2014-cü ilin may ayına nisbətən | 2014-cü ilin yanvar-iyun ayları 2013-cü ilin yanvar-iyun aylarına nisbətən |
|---|---|---|
| **Bütün mallar üzrə** | **100,0** | **100,5** |
| **Emal mərhələləri üzrə**<br>İnvestisiya malları | 100,1 | 101,0 |
| Aralıq məhsullar | 100,3 | 100,9 |
| o cümlədən:<br>energetika məhsulları | 100,2 | 95,1 |
| digər aralıq məhsullar | 100,3 | 100,9 |
| İstehlak malları | 99,4 | 101,2 |
| o cümlədən:<br>qısa müddət üçün nəzərdə tutulan istehlak malları | 98,6 | 103,4 |
| uzun müddət üçün nəzərdə tutulan istehlak malları | 100,3 | 98,6 |
| ikili istifadə xüsusiyyətli mallar | 100,5 | 100,2 |
| Digər mallar | 100,0 | 95,6 |

**İxrac olunan malların qiymət indeksləri.** Ölkədən ixrac olunan malların qiymət indeksi 2014-cü ilin iyun ayında əvvəlki aya nisbətən 101,8 faiz, MDB ölkələrinə ixrac olunan mallar üzrə 100,6 faiz, digər ölkələrə ixrac olunan mallar üzrə isə 101,9 faiz təşkil etmişdir.

Emal mərhələləri üzrə ixrac olunan aralıq məhsulların və istehlak mallarının qiymətləri 0,3 faiz bahalaşmışdır. İnvestisiya mallarının və digər malların qiymətləri isə dəyişməz olaraq qalmışdır.

Cədvəl 58

(faizlə)

| | 2014-cü ilin iyun ayı 2014-cü ilin may ayına nisbətən | 2014-cü ilin yanvar-iyun ayları 2013-cü ilin yanvar-iyun aylarına nisbətən |
|---|---|---|
| **Bütün mallar üzrə** | **101,8** | **101,9** |
| **o cümlədən:** **Neft və neft məhsulları daxil olmadan** | **100,6** | **98,3** |
| **Emal mərhələləri üzrə** İnvestisiya malları | 100,0 | 99,0 |
| Aralıq məhsullar | 100,3 | 96,1 |
| o cümlədən: energetika məhsulları | 100,2 | 91,8 |
| digər aralıq məhsullar | 100,7 | 103,2 |
| İstehlak malları | 100,3 | 96,7 |
| o cümlədən: qısa müddət üçün nəzərdə tutulan istehlak malları | 100,3 | 96,9 |
| uzun müddət üçün nəzərdə tutulan istehlak malları | 99,7 | 92,6 |
| ikili istifadə xüsusiyyətli mallar | 99,8 | 89,0 |
| Digər mallar | 100,0 | 99,9 |

# Kredit qoyuluşları

Mərkəzi Bankın təqdim etdiyi məlumata görə, 2014-cü il iyulun 1-i vəziyyətinə ölkənin bank-kredit təşkilatları tərəfindən 16,8 milyard manat həcmində kreditlər verilmişdir. Qüvvədə olan kreditlərin 34,5 faizi dövlət, 62,7 faizi özəl banklar, 2,8 faizi isə bank olmayan kredit təşkilatlarının payına düşmüşdür.

Kreditlərin 78,9 faizini uzunmüddətli kreditlər təşkil etmiş, 5,2 faizinin ödənilmə vaxtı keçmişdir.

Cədvəl 59

## İqtisadiyyata kredit qoyuluşu

| | 2014-cü il iyulun 1-i vəziyyətinə, milyon manat |
|---|---|
| **Kredit qoyuluşları – cəmi** | 16754,8 |
| o cümlədən: | |
| - qısamüddətli | 3530,3 |
| - uzunmüddətli | 13224,5 |
| Ödənilmə vaxtı keçmiş kreditlər | 877,6 |
| Kreditlərin ümumi həcmində vaxtı keçmiş kreditlərin xüsusi çəkisi, %-lə | 5,2 |

Qrafik 30

**İqtisadiyyata kredit qoyuluşu, mlrd. manat**



## Məşğulluq və işsizlik

2014-cü il avqustun 1-i vəziyyətinə ilkin məlumatlara əsasən iqtisadi fəal əhalinin sayı 4803,4 min nəfər olmuş, onlardan 4565,6 min nəfərini iqtisadi əmək fəaliyyəti ilə məşğul olan əhali təşkil etmişdir.

Cari il iyulun 1-i vəziyyətinə muzdla işləyənlərin sayı 1510,9 min nəfər, o cümlədən iqtisadiyyatın dövlət bölməsində 891,6 min nəfər, qeyri-dövlət bölməsində isə 619,3 min nəfər təşkil etmişdir. İqtisadiyyatın neft sektorunda 37,2 min nəfər, qeyri-neft sektorunda isə 1473,7 min nəfər çalışmışdır. Muzdla işləyənlərin tərkibində qeyri-kənd təsərrüfatı sahəsində əmək fəaliyyəti ilə məşğul olanlar 1466,1 min nəfər təşkil etmişdir.

Müəssisə və təşkilatlarda muzdla çalışan işçilərin 22,6 faizi məhsul istehsalı sahələrində, onlardan 7,0 faizi tikintidə, 6,6 faizi emal sənayesində, 2,9 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsində, 2,5 faizi mədənçıxarma sənayesində, 1,9 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sahəsində, 1,7 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı sahəsində məşğul olmuşlar.

Xidmət sahəsində çalışanların 22,3 faizi təhsil, 18,7 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 8,7 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 6,6 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 5,1 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,8 faizi istirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət, 3,6 faizi peşə, elmi və texniki fəaliyyət, 1,9 faizi maliyyə və sığorta fəaliyyəti, 1,7 faizi informasiya və rabitə, 1,6 faizi inzibati və yardımçı xidmətlərin göstərilməsi, 1,4 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 1,1 faizi digər sahələrdə xidmətlərin göstərilməsi və 0,9 faizi daşınmaz əmlakla əlaqədar əməliyyatlar sahələrində cəmlənmişdir.

2014-cü ilin yanvar-iyun aylarında bir işçiyə düşən orta aylıq işlənmiş iş saatlarının miqdarı 149,9 saat təşkil etmişdir.

Cədvəl 60

## İqtisadi fəaliyyət növləri üzrə bir işçiyə düşən orta aylıq işlənmiş iş saatlarının miqdarı

| | İş saatları |
|---|---|
| Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq | 151,5 |
| Mədənçıxarma sənayesi | 149,9 |
| Emal sənayesi | 149,0 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 147,5 |
| Su təchizatı, tullantıların təmizlənməsi və emalı | 152,9 |
| Tikinti | 155,1 |
| Ticarət; nəqliyyat vasitələrinin təmiri | 158,6 |
| Nəqliyyat və anbar təsərrüfatı | 145,5 |
| Turistlərin yerləşdirilməsi və ictimai iaşə | 148,2 |
| İnformasiya və rabitə | 152,7 |
| Maliyyə və sığorta fəaliyyəti | 151,9 |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar | 154,7 |
| Peşə, elmi və texniki fəaliyyət | 152,0 |
| İnzibati və yardımçı xidmətlərin göstərilməsi | 149,4 |
| Dövlət idarəetməsi və müdafiə; sosial təminat | 141,7 |
| Təhsil | 144,9 |
| Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi | 146,7 |
| İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət | 149,7 |
| Digər sahələrdə xidmətlərin göstərilməsi | 148,7 |

2014-cü il avqustun 1-i vəziyyətinə məşğulluq xidməti orqanları tərəfindən ölkə üzrə rəsmi işsiz statusu verilmiş şəxslərin sayı 36,7 min nəfər olmuş, onların 40,7 faizini qadınlar təşkil etmişdir. İşsizliyə görə müavinətin orta məbləği 247,4 manat olmuşdur.

`

Cədvəl 61

## Məşğulluq xidməti orqanları tərəfindən işsiz statusu verilmiş şəxslərin və işsizlik müavinəti alanların sayı
(1 avqust 2014-cü il vəziyyətinə)

(nəfər)

| | İşsiz statusuna malik olanlar | onlardan işsizliyə görə müavinət alanlar |
|---|---|---|
| **Ölkə üzrə – cəmi** | **36 662** | **2 247*** |
| **Bakı şəhəri – cəmi** | **13 861** | **756** |
| **Abşeron iqtisadi rayonu – cəmi** | **1 765** | **331** |
| o cümlədən: | | |
| Xızı rayonu | 113 | 15 |
| Abşeron rayonu | 324 | 43 |
| Sumqayıt şəhəri | 1 328 | 273 |
| **Gəncə-Qazax iqtisadi rayonu – cəmi** | **2 252** | **218** |
| o cümlədən: | | |
| Gəncə şəhəri | 580 | 81 |
| Qazax rayonu | 739 | 32 |
| Ağstafa rayonu | 120 | 13 |
| Tovuz rayonu | 120 | 12 |
| Şəmkir rayonu | 283 | 30 |
| Gədəbəy rayonu | 191 | 9 |
| Daşkəsən rayonu | 4 | 1 |
| Samux rayonu | 18 | 1 |
| Göygöl rayonu | 102 | 10 |
| Goranboy rayonu | 44 | 23 |
| Naftalan şəhəri | 51 | 6 |
| **Şəki-Zaqatala iqtisadi rayonu – cəmi** | **1 054** | **115** |
| o cümlədən: | | |
| Balakən rayonu | 232 | 32 |
| Zaqatala rayonu | 35 | 8 |
| Qax rayonu | 276 | 22 |
| Şəki rayonu | 261 | 31 |
| Oğuz rayonu | 49 | 8 |
| Qəbələ rayonu | 201 | 14 |
| **Lənkəran iqtisadi rayonu – cəmi** | **1 004** | **86** |
| o cümlədən: | | |
| Astara rayonu | 112 | 2 |
| Lənkəran rayonu | 328 | 58 |
| Lerik rayonu | 43 | 5 |
| Yardımlı rayonu | 146 | 8 |

...ardı...

| | İşsiz statusuna malik olanlar | onlardan işsizliyə görə müavinət alanlar |
|---|---|---|
| Masallı rayonu | 116 | 6 |
| Cəlilabad rayonu | 259 | 7 |
| **Quba-Xaçmaz iqtisadi rayonu – cəmi** | **1 183** | **94** |
| o cümlədən:<br>Qusar rayonu | 406 | 14 |
| Xaçmaz rayonu | 74 | 26 |
| Quba rayonu | 466 | 32 |
| Şabran rayonu | 162 | 4 |
| Siyəzən rayonu | 75 | 18 |
| **Aran iqtisadi rayonu – cəmi** | **9 932** | **437** |
| o cümlədən:<br>Göyçay rayonu | 471 | 27 |
| Beyləqan rayonu | 81 | 7 |
| Ağcabədi rayonu | 403 | 14 |
| Bərdə rayonu | 3 063 | 41 |
| Neftçala rayonu | 264 | 34 |
| Biləsuvar rayonu | 589 | 31 |
| Salyan rayonu | 117 | 16 |
| Yevlax rayonu | 561 | 17 |
| Mingəçevir şəhəri | 1 664 | 89 |
| Ağdaş rayonu | 31 | 8 |
| Ucar rayonu | 35 | 4 |
| Zərdab rayonu | 36 | 1 |
| Kürdəmir rayonu | 473 | 13 |
| İmişli rayonu | 397 | 5 |
| Saatlı rayonu | 36 | 15 |
| Sabirabad rayonu | 500 | 44 |
| Hacıqabul rayonu | 495 | 27 |
| Şirvan şəhəri | 716 | 44 |
| **Yuxarı Qarabağ iqtisadi rayonu – cəmi** | **3 238** | **100** |
| o cümlədən:<br>Cəbrayıl rayonu | 240 | 41 |
| Füzuli rayonu | 464 | 2 |
| Ağdam rayonu | 1 776 | 31 |
| Tərtər rayonu | 584 | 17 |
| Xocalı rayonu | 71 | 1 |
| Şuşa rayonu | 36 | 7 |
| Xocavənd rayonu | 67 | 1 |
| Xankəndi şəhəri | - | - |

... sonu

| | İşsiz statusuna malik olanlar | onlardan işsizliyə görə müavinət alanlar |
|---|---|---|
| **Kəlbəcər-Laçın iqtisadi rayonu – cəmi** | **1 416** | **61** |
| o cümlədən:<br>Kəlbəcər rayonu | 914 | 24 |
| Laçın rayonu | 179 | 13 |
| Qubadlı rayonu | 209 | 16 |
| Zəngilan rayonu | 114 | 8 |
| **Dağlıq Şirvan iqtisadi rayonu – cəmi** | **957** | **49** |
| o cümlədən:<br>Qobustan rayonu | 65 | 9 |
| İsmayıllı rayonu | 387 | 7 |
| Ağsu rayonu | 302 | 5 |
| Şamaxı rayonu | 203 | 28 |
| **Naxçıvan iqtisadi rayonu – cəmi** | **-** | **-** |
| o cümlədən:<br>Naxçıvan şəhəri | - | - |
| Sədərək rayonu | - | - |
| Şərur rayonu | - | - |
| Babək rayonu | - | - |
| Şahbuz rayonu | - | - |
| Culfa rayonu | - | - |
| Ordubad rayonu | - | - |
| Kəngərli rayonu | - | - |

* “Məşğulluq haqqında” Azərbaycan Respublikasının 2 iyul 2001-ci il tarixli Qanununa əsasən işsizlik statusuna malik olan şəxslərdən bir qismi işsizlik müavinəti almışlar (müavinətin ödənilməsi müddəti Qanunda nəzərdə tutulmuş hallardan başqa 12 aylıq dövr ərzində 26 təqvim həftəsindən çox ola bilməz).

# Yeni iş yerləri

2014-cü ilin yanvar-iyun ayları ərzində ölkədə 65,1 min yeni, o cümlədən 52,8 min daimi iş yerləri açılmışdır. Açılmış daimi iş yerlərinin 13,7 faizi yeni yaradılmış müəssisə və təşkilatlarda, 12,1 faizi mövcud müəssisə və təşkilatlarda, 0,7 faizi fəaliyyətini bərpa etmiş müəssisə və təşkilatlarda, 73,5 faizi isə fiziki şəxslər tərəfindən yaradılmışdır.

Qrafik 31

**2014-cü ilin yanvar-iyun ayları ərzində yeni açılmış daimi iş yerlərinin strukturu (faizlə)**




Yeni yaradılmış müəssisə və təşkilatlarda

Mövcud müəssisə və təşkilatlarda

Fəaliyyəti bərpa edilmiş müəssisə və təşkilatlarda

Fiziki şəxslərdə

Yeni iş yerlərinin 69,3 faizi regionların, o cümlədən 19,8 faizi Aran, 14,7 faizi Gəncə-Qazax, 9,5 faizi Abşeron, 6,7 faizi Lənkəran, 4,2 faizi Quba-Xaçmaz, 5,2 faizi Şəki-Zaqatala, 3,2 faizi Dağlıq Şirvan, 2,8 faizi Yuxarı Qarabağ, 2,5 faizi Naxçıvan, 0,7 faizi isə Kəlbəcər-Laçın iqtisadi rayonunun payına düşmüşdür.

Yanvar-iyun ayları ərzində 83,9 faizi özəl sektorda açılmış yeni iş yerlərindən daimi iş yerləri tam olaraq qeyri-neft sektorunda, o cümlədən 5,6 faizi tikinti, 3,0 faizi emal sənayesi, 3,5 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 1,7 faizi dövlət idarəetməsi, sosial təminat, 2,6 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 1,0 faizi peşə, elmi və texniki fəaliyyət, 0,6 faizi maliyyə və sığorta fəaliyyəti, 0,7 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, eləcə də digər fəaliyyət sahələri üzrə ixtisaslaşan müəssisə və təşkilatlarda yaradılmışdır.

Qrafik 32

## Yeni açılmış iş yerlərinin iqtisadi fəaliyyət növlərinə görə bölgüsü, yekuna nisbətən, faizlə




| | |
|---|---|
| **A** | Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq |
| **B** | Mədənçıxarma sənayesi |
| **C** | Emal sənayesi |
| **D** | Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı |
| **E** | Su təchizatı; tullantıların təmizlənməsi və emalı |
| **F** | Tikinti |
| **G** | Ticarət; nəqliyyat vasitələrinin təmiri |
| **H** | Nəqliyyat və anbar təsərrüfatı |
| **I** | Turistlərin yerləşdirilməsi və ictimai iaşə |
| **J** | İnformasiya və rabitə |
| **K** | Maliyyə və sığorta fəaliyyəti |
| **L** | Daşınmaz əmlakla əlaqədar əməliyyatlar |
| **M** | Peşə, elmi və texniki fəaliyyət |
| **N** | İnzibati və yardımçı xidmətlərin göstərilməsi |
| **O** | Dövlət idarəetməsi, sosial təminat |
| **P** | Təhsil |
| **Q** | Əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi |
| **R** | İstirahət, əyləncə və incəsənət sahəsində fəaliyyət |
| **S** | Digər sahələrdə xidmətlərin göstərilməsi |
| **T** | Ev təsərrüfatlarının fəaliyyəti; fərdi istehlak üçün ev təsərrüfatlarının istehsal etdiyi mal və xidmətlərə dair fəaliyyət |
| **U** | Toxunulmazlıq hüququ olan təşkilatların fəaliyyəti |

## Dövlət büdcəsi

2014-cü ilin yanvar-iyun aylarında dövlət büdcəsinə 9,3 milyard manat vəsait daxil olmuş, büdcədən müxtəlif sosial-iqtisadi tədbirlərin maliyyələşdirilməsinə 8,7 milyard manat xərclənmişdir. Büdcənin icrasında yaranmış 615,0 milyon manatlıq profisit ümumi daxili məhsulun 2,1 faizini təşkil etmişdir.

Cədvəl 62

### Dövlət büdcəsinin gəlirləri

| | **İcra, milyon manat** | | **2013-cü ilin müvafiq dövrünə nisbətən, faizlə** |
|---|---|---|---|
| | **2014-cü ilin yanvar-iyun ayları** | **2013-cü ilin yanvar-iyun ayları** | |
| **Gəlirlər – cəmi** | **9338,9** | **9524,5** | **98,1** |
| o cümlədən: Fiziki şəxslərin gəlir vergisi | 460,4 | 395,3 | 116,5 |
| Hüquqi şəxslərin mənfəət (gəlir) vergisi | 1183,2 | 1295,9 | 91,3 |
| Torpaq vergisi | 18,4 | 14,9 | 123,5 |
| Əmlak vergisi | 68,9 | 58,4 | 118,0 |
| Əlavə dəyər vergisi | 1529,4 | 1257,8 | 121,6 |
| Aksiz | 401,9 | 288,3 | 139,4 |
| Mədən vergisi | 65,6 | 60,2 | 109,0 |
| Xarici iqtisadi fəaliyyətlə bağlı vergilər | 362,7 | 316,8 | 114,5 |
| ondan: idxal rüsumu | 184,1 | 129,9 | 141,7 |
| Digər vergilər | 91,3 | 82,2 | 111,1 |
| Digər daxilolmalar | 5157,1 | 5754,7 | 89,6 |

Daxilolmaların 16,4 faizi əlavə dəyər vergisi, 12,7 faizi hüquqi şəxslərin mənfəət (gəlir) vergisi, 4,9 faizi fiziki şəxslərın gəlir vergisi, 4,3 faizi aksizlər, 3,9 faizi xarici iqtisadi fəaliyyətlə bağlı vergilər, 2,6 faizi digər vergilər, 55,2 faizi isə vergi olmayan gəlirlər hesabına təmin edilmişdir.

Cədvəl 63

## Dövlət büdcəsinin xərcləri

| | **İcra, milyon manat** | | **2013-cü ilin müvafiq dövrünə nisbətən, faizlə** |
|---|---|---|---|
| | **2014-cü ilin yanvar-iyun ayları** | **2013-cü ilin yanvar-iyun ayları** | |
| **Xərclər – cəmi** | **8723,9** | **8730,2** | **99,9** |
| o cümlədən: Ümumi Dövlət Xidmətləri | 619,1 | 762,9 | 81,2 |
| ondan: beynəlxalq təşkilatlara üzvlük haqqı | 59,5 | 52,7 | 112,9 |
| Məhkəmə hakimiyyəti, hüquq - mühafizə və prokurorluq orqanları | 461,9 | 430,4 | 107,3 |
| Təhsil | 627,0 | 582,3 | 107,7 |
| Səhiyyə | 277,0 | 257,4 | 107,6 |
| Sosial müdafiə və sosial təminat | 987,4 | 906,5 | 108,9 |
| Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi və digər kateqoriyalara aid edilməyən sahədə fəaliyyət | 137,1 | 114,7 | 119,5 |
| İqtisadiyyata | 4087,2 | 3849,8 | 106,2 |
| ondan: – mənzil və kommunal təsərrüfatı | 153,0 | 124,3 | 123,1 |
| – kənd təsərrüfatı, meşə təsərrüfatı balıqçılıq,ovçuluq və ətraf mühitin mühafizəsi | 195,5 | 197,8 | 98,8 |
| - sənaye, tikinti və faydalı qazıntılar | 3556,3 | 3326,4 | 106,9 |
| – nəqliyyat və rabitə | 37,1 | 34,9 | 106,3 |
| Digər xərclər | 1527,2 | 1826,2 | 83,6 |
| **Profisit** | **615,0** | **794,3** | **-** |

Büdcə vəsaitlərinin 4,1 milyard manatı (46,8 faizi) iqtisadiyyatın inkişaf etdirilməsinə, 987,4 milyon manatı (11,3 faizi) əhalinin sosial müdafiəsi və sosial təminatına, 627,0 milyon manatı (7,2 faizi) təhsilin, 277,0 milyon manatı (3,2 faizi) isə səhiyyənin maliyyələşdirilməsinə xərclənmişdir.

Cədvəl 64

.

**Büdcə gəlirlərinin strukturu, faizlə**

| | Cəmi | ÜDM-də |
|---|---|---|
| **Gəlirlər – cəmi** | **100,0** | **32,5** |
| o cümlədən: Fiziki şəxslərin gəlir vergisi | 4,9 | 1,6 |
| Hüquqi şəxslərin mənfəət (gəlir) vergisi | 12,7 | 4,1 |
| Torpaq vergisi | 0,2 | 0,1 |
| Əmlak vergisi | 0,7 | 0,2 |
| Əlavə dəyər vergisi | 16,4 | 5,3 |
| Aksiz | 4,3 | 1,4 |
| Mədən vergisi | 0,7 | 0,2 |
| Xarici iqtisadi fəaliyyətlə bağlı vergilər | 3,9 | 1,3 |
| ondan: idxal rüsumu | 2,0 | 0,6 |
| Digər vergilər | 1,0 | 0,3 |
| Digər daxilolmalar | 55,2 | 18,0 |

Cədvəl 65

## Büdcə xərclərinin strukturu, faizlə

| | Cəmi | ÜDM-də |
|---|---|---|
| **Xərclər – cəmi** | **100,0** | **30,4** |
| o cümlədən:<br>Ümumi Dövlət Xidmətləri | 7,1 | 2,2 |
| ondan:<br>beynəlxalq təşkilatlara üzvlük haqqı | 0,7 | 0,2 |
| Məhkəmə hakimiyyəti, hüquq -mühafizə və prokurorluq orqanları | 5,3 | 1,6 |
| Təhsil | 7,2 | 2,2 |
| Səhiyyə | 3,2 | 1,0 |
| Sosial müdafiə və sosial təminat | 11,3 | 3,4 |
| Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi və digər kateqoriyalara aid edilməyən sahədə fəaliyyət | 1,6 | 0,5 |
| İqtisadiyyata | 46,8 | 14,2 |
| ondan:<br>− mənzil və kommunal təsərrüfatı | 1,8 | 0,5 |
| − kənd təsərrüfatı, meşə təsərrüfatı balıqçılıq,ovçuluq və ətraf mühitin mühafizəsi | 2,2 | 0,7 |
| − sənaye, tikinti və faydalı qazıntılar | 40,8 | 12,4 |
| − nəqliyyat və rabitə | 0,4 | 0,1 |
| Digər xərclər | 17,5 | 5,3 |
| **Profisit** | **-** | **2,1** |

Qrafik 33

## 2014-cü ilin yanvar-iyun aylarında büdcə gəlirlərinin strukturu




Qrafik 34

## 2014-cü ilin yanvar-iyun aylarında büdcə xərclərinin strukturu



## Xarici ticarət

2014-cü ilin yanvar-iyun aylarında Azərbaycan Respublikasının rezidentləri dünyanın 134 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçirmiş, 100 ölkəyə əmtəə ixrac olunmuş, 122 ölkədən idxal olunmuşdur.

Dövlət Gömrük Komitəsindən daxil olmuş məlumatlara əsasən 2014-cü ilin yanvar-iyun aylarında xarici ölkələrlə 15,3 milyard ABŞ dolları məbləğində ticarət, o cümlədən 11,2 milyard dollarlıq ixrac və 4,1 milyard dollarlıq idxal əməliyyatları aparılmış, 7,1 milyard dollarlıq müsbət saldo yaranmışdır. 2013-cü ilin yanvar-iyun aylarına nisbətən əmtəə mübadiləsinin dəyəri müqayisəli qiymətlərlə 11,7 faiz azalmışdır. Ticarət əlaqələrinin 90,8 faizi və ya 13,9 milyard dolları MDB üzvü dövlətləri istisna olmaqla digər dövlətlərlə, o cümlədən 46,5 faizi və ya 7,2 milyard dolları Avropa İttifaqı ölkələri ilə, 9,2 faizi, yaxud 1,4 milyard dolları MDB üzvü dövlətləri ilə həyata keçirilmiş və bu ölkə qrupları ilə ticarət dövriyyəsinin fiziki həcmi müvafiq olaraq 9,8 faiz və 27,3 faiz azalmışdır. Xarici ticarət dövriyyəsi iştirakçılarının 42-si Avropa, 30-u Amerika, 42-si Asiya ölkələri və digərləridir.

MDB üzvü dövlətləri istisna olmaqla digər dövlətlərə ixrac olunmuş malların dəyəri müqayisəli qiymətlərlə 6,0 faiz azalmış və 10,8 milyard dollar həcmində məhsul göndərilmişdir. MDB ölkələrinə ixrac olunmuş malların həcmi 37,7 faiz azalaraq 424,3 milyon dollar təşkil etmişdir. İxracın 3,8 faizi MDB, 52,2 faizi və ya 5,9 milyard dolları Avropa İttifaqı ölkələri ilə, qalan 44,0 faizi və ya 4,9 milyard dolları isə digər dövlətlərlə həyata keçirilmişdir.

2014-cü ilin yanvar-iyun ayları ərzində ölkəmizə idxal olunmuş malların 3,1 milyard dollarlığı MDB üzvü dövlətləri istisna olmaqla digər ölkələrdən daxil olmuşdur. İdxalın 23,9 faizi və ya 987,0 milyon dolları MDB üzvü dövlətlərinin, 31,0 faizi və ya 1,3 milyard dolları Avropa İttifaqı ölkələrinin, qalan 45,1 faizi və ya 1,8 milyard dolları isə digər dövlətlərin hesabına formalaşmışdır.

Xarici ticarət dövriyyəsinin beşdə dörd hissəsindən çoxu (82,1 faizi) İtaliya, İndoneziya, Almaniya, Rusiya, Fransa, Türkiyə, İsrail, Amerika Birləşmiş Ştatları, Hindistan, İspaniya, Tayvan, Böyük Britaniya, Tailand, Çin, Gürcüstan, Portuqaliya və Avstriya dövlətlərinin hesabına formalaşmışdır.

Mal mübadiləsinin 91,0 faizi, o cümlədən ixracın 94,5 faizi və idxalın 81,6 faizi sərbəst dönərli valyuta ilə hesablaşmalar əməliyyat növü ilə həyata keçirilmiş və bu hesablaşmaların dövriyyə üzrə həcmi 2013-cü ilin yanvar-iyun ayları ilə müqayisədə 8,4 faiz azalmışdır.

Ölkəmizə idxal olunmuş malların ümumi həcminin 14,3 faizi Rusiyanın, 14,2 faizi Türkiyənin, 8,1 faizi Amerika Birləşmiş Ştatlarının, 7,8 faizi Almaniyanın, 7,5 faizi Çinin, 6,4 faizi Böyük Britaniyanın, 5,1 faizi Ukraynanın, 3,3 faizi Qazaxıstanın, 2,5 faizi İtaliyanın, 2,4 faizi Koreyanın, 2,3 faizi Braziliyanın, 2,1 faizi Yaponiyanın, 1,9 faizi İranın, 1,8 faizi Niderlandın, 1,7 faizi Fransanın, hər birində 1,3 faiz olmaqla Belçika və Finlandiyanın, 16,0 faizi isə digər ölkələrin payına düşür.

Qrafik 35

**2014-cü ilin yanvar-iyun aylarında idxalda daha çox paya malik olan dövlətlər**

(milyon ABŞ dolları ilə)



İdxal olunmuş malların ümumi dəyərinin 12,2 faizini yeyinti məhsulları, 4,2 faizini tütün və tütün məmulatları, 1,4 faizini sement, 2,8 faizini əczaçılıq məhsulları, 2,7 faizini plastmassa və ondan hazırlanan məmulatlar, 1,6 faizini oduncaq və ondan hazırlanan məmulatlar, 10,4 faizini qara metallar və onlardan hazırlanan məmulatlar, 31,0 faizini maşın, mexanizm, elektrik aparatları, avadanlıqlar və onların hissələri, 9,0 faizini nəqliyyat vasitələri və onların hissələri, 1,0 faizini mebel və onun hissələri, 23,7 faizini digər mallar təşkil etmişdir.

Altı ay ərzində ölkəmizə 5237 çeşiddə mal idxal olunmuşdur. İdxalın ümumi həcminin 55,9 faizini avtomobil, 30,5 faizini dəmiryolu, 10,4 faizini hava, 3,1 faizini dəniz nəqliyyatı vasitələri ilə gətirilmiş malların dəyəri təşkil etmişdir.

Cədvəl 66

**2014-cü ilin yanvar-iyun aylarında idxal olunan malların nəqliyyat növləri üzrə miqdarı və dəyəri**

| **Daşınma vasitələri** | **İdxal** | |
|---|---|---|
| | Miqdarı (min ton) | Məbləği (milyon ABŞ dolları) |
| **Cəmi** | **3931,3** | **4124,6** |
| ondan:<br>Dəniz nəqliyyatı | 786,8 | 128,8 |
| Dəmiryolu nəqliyyatı | 2159,1 | 1257,6 |
| Avtomobil nəqliyyatı | 979,7 | 2306,7 |
| Hava nəqliyyatı | 5,6 | 428,0 |

Qrafik 36

**2014-cü ilin yanvar-iyun aylarında idxal olunan malların nəqliyyat növləri üzrə strukturu**
(milyon ABŞ dolları)




2013-cü ilin yanvar-iyun ayları ilə müqayisədə quş əti və əlavə ət məhsulları idxalı 3,2 dəfə, kərə yağı, digər süd yağları və pastaları 67,0 faiz, kartof 2,1 dəfə, təzə tərəvəz 31,2 faiz, bitki yağları 50,0 faiz, xam şəkər və şəkər 18,8 faiz, mineral gübrələr 13,0 faiz, məişət kondisionerləri 89,2 faiz, məişət soyuducuları 4,6 dəfə, paltaryuyan maşınlar 11,6 faiz, mebel 9,2 faiz artmış, mal əti 2,6 faiz, təzə meyvə 29,8 faiz, çay 8,6 faiz, buğda 1,1 faiz, sement klinkerləri və sement 14,1 faiz, polietilen 34,2 faiz, rezin şinlər 38,5 faiz, polad prokatı 24,3 faiz, qara metallardan çubuqlar və armaturlar 38,4 faiz, qara metallardan künclüklər və şvellerlər 31,6 faiz, qara metallardan borular 67,4 faiz, hesablama maşınları, blok və qurğuların idxalı isə 12,0 faiz azalmışdır.

2014-cü ilin yanvar-iyun ayları ərzində ölkəyə 30917 ədəd minik avtomobili, 167 ədəd avtobus, 3039 ədəd yük avtomobili idxal olunmuşdur.

İxrac olunmuş malların 24,2 faizi İtaliyaya, 12,3 faizi İndoneziyaya, 8,2 faizi Almaniyaya, 6,9 faizi İsrailə, 6,7 faizi Fransaya, 4,1 faizi Hindistana, 3,9 faizi İspaniyaya, 3,8 faizi Tayvana, hər birində 3,0 faiz olmaqla Tailand və Rusiyaya, 2,4 faizi Gürcüstana, 2,3 faizi Portuqaliyaya, 2,0 faizi Türkiyəyə, 1,9 faizi Amerika Birləşmiş Ştatlarına, 1,8 faizi Avstriyaya, hər birində 1,3 faiz olmaqla Tunis və Çexiyaya, qalan 10,9 faizi isə digər ölkələrə göndərilmişdir.

Qrafik 37

**2014-cü ilin yanvar-iyun aylarında ixracda daha çox paya malik olan dövlətlər**
(milyon ABŞ dolları ilə)




Altı ay ərzində ölkəmizdən 1631 çeşiddə mal ixrac olunmuşdur. İxrac olunmuş malların ümumi həcminin 88,2 faizi boru kəməri və elektrik ötürücü xətləri ilə nəqletmə, 6,6 faizi dəmiryolu, 3,9 faizi avtomobil, 0,5 faizi dəniz, 0,8 faizi hava nəqliyyatı vasitələri ilə göndərilmiş malların dəyəri hesabına formalaşmışdır.

Cədvəl 67

## 2014-cü ilin yanvar-iyun aylarında ixrac olunan malların nəqliyyat növləri üzrə miqdarı və dəyəri

| Daşınma vasitələri | İxrac | |
|---|---|---|
| | Miqdarı (min ton) | Məbləği (milyon ABŞ dolları) |
| **Cəmi** | **14192,4** | **11246,3** |
| ondan: Dəniz nəqliyyatı | 63,1 | 65,8 |
| Dəmiryolu nəqliyyatı | 1132,5 | 738,8 |
| Avtomobil nəqliyyatı | 267,4 | 433,9 |
| Hava nəqliyyatı | 49,3 | 91,2 |
| Stasionar nəqletmə vasitələri ( boru kəməri və elektrik ötürücü xətləri ilə nəqletmə) | 12680,1 | 9916,6 |

Qrafik 38

## 2014-cü ilin yanvar-iyun aylarında ixrac olunan malların nəqliyyat növləri üzrə strukturu
(milyon ABŞ dolları)



İxracın strukturunda xam neft, neft məhsulları, təbii qaz, meyvə-tərəvəz, çay, bitki və heyvan mənşəli piylər və yağlar, şəkər, spirtli və alkoqolsuz içkilər, kimya sənayesi məhsulları, plastmassa və onlardan hazırlanan məmulatlar, pambıq iplik, qara metallar və onlardan hazırlanan məmulatlar, alüminium və ondan hazırlanan məmulatlar üstünlük təşkil etmişdir.

Keçən ilin yanvar-iyun ayları ilə müqayisədə 2014-cü ilin yanvar-iyun aylarında xarici ölkələrə göndərilmiş məhsullardan təzə tərəvəz 12,5 faiz, təzə meyvə 23,6 faiz, marqarin, digər qida üçün yararlı qarışıqlar 24,3 faiz, neft koksu 5,8 faiz, emal olunmamış alüminium 1,4 faiz artmış, çay 33,1 faiz, kartof 8,6 faiz, bitki yağları 7,8 faiz, şəkər 2,1 faiz, pambıq parça ipliyi 48,5 faiz, sürtkü yağları 25,5 faiz, polietilen 19,6 faiz, maye qaz 67,7 faiz, aviasiya və digər məqsədlər üçün ağ neft 23,3 faiz, qazoyl 24,5 faiz, qara metallardan boruların ixracı isə 50,8 faiz azalmışdır.

Cari ilin yanvar-iyun ayları ərzində qeyri-neft məhsullarının ixracı 828,7 milyon dollar təşkil etmişdir.

İxrac olunmuş, lakin 2014-cü ilin yanvar-iyun aylarında məlumatları bəyan edilməmiş xam neft və təbii qazın həcmi də nəzərə alınmaqla, statistik məlumatlara əsasən xarici ticarət dövriyyəsinin həcmi 20,6 milyard ABŞ dollarına bərabər olmuş və 2013-cü ilin yanvar-iyun ayları ilə müqayisədə onun fiziki həcmi 6,2 faiz azalmışdır. Əmtəə dövriyyəsinin ümumi həcminin 80,0 faizini, yaxud 16,5 milyard dollarını ölkədən ixrac olunmuş mallar təşkil etmişdir. Xarici ticarət dövriyyəsinin 19,2 milyard dolları, yaxud 93,1 faizi, o cümlədən ixracın 16,1 milyard dolları (97,4 faizi) MDB üzvü dövlətləri istisna olmaqla digər dövlətlərin payına düşmüşdür. Bu ölkələrlə ticarət dövriyyəsinin fiziki həcmi 4,3 faiz azalmışdır.

Qrafik 39

**2014-cü ilin yanvar-iyun aylarında MDB ölkələri ilə ticarət dövriyyəsi** (milyon ABŞ dolları ilə)




Qrafik 40

**2014-cü ilin yanvar-iyun aylarında MDB-yə üzv ölkələr istisna olmaqla bəzi digər dövlətlərlə ticarət dövriyyəsi** (milyon ABŞ dolları ilə)




2014-cü ilin yanvar-iyun aylarında ölkəmizə 32,2 milyon dollarlıq humanitar və texniki yardım şəklində müxtəlif mallar gətirilmişdir.

# Əhalinin əmanətləri və manatın məzənnəsi

2014-cü il iyul ayının 1-nə əhalinin banklardakı əmanətlərinin həcmi əvvəlki ilin eyni dövrü ilə müqayisədə 13,5 faiz artaraq 6,7 milyard manata çatmışdır.

Əmanətlərin 4,2 milyard manatı və ya 62,5 faizi milli, 2,5 milyard manatı xarici valyutada qoyulmuş və əvvəlki ildəkinə nisbətən müvafiq olaraq 17,1 və 7,9 faiz artmışdır.

Əmanətlərin 76,9 faizi özəl banklarda yerləşdirilmişdir.

Cədvəl 68

## Əhalinin əmanətləri

| | 2014-cü il iyulun 1-i vəziyyətinə, milyon manat | Əvvəlki ilin eyni dövrünə nisbətən, faizlə |
|---|---|---|
| Əhalinin əmanətləri – cəmi | 6720,6 | 113,5 |
| o cümlədən: | | |
| milli valyuta ilə | 4198,3 | 117,1 |
| xarici valyuta ilə | 2522,3 | 107,9 |

Qrafik41




2014-ci ilin iyul ayında manatın 1 ABŞ dollarına orta məzənnəsi 0,78 manat, 100 Rus rubluna 2,26 manat, 1 Avroya 1,06 manat, ilin əvvəlindən isə müvafiq olaraq 0,78 manat, 2,25 manat və 1,07 manat təşkil etmişdir.

Qrafik 42

**Manatın 1 ABŞ dollarına məzənnəsinin dəyişməsi**



# Əhalinin gəlirləri

2014-cü ilin yanvar-iyul aylarında əhalinin gəlirləri əvvəlki ilin eyni dövrü ilə müqayisədə 4,7 faiz artaraq 21,0 milyard manata çatmış, onun hər nəfərə düşən həcmi orta hesabla 2239,1 manat təşkil etmişdir. Hər nəfərə düşən gəlirlərin artımı istehlak qiymətlərinin bahalaşmasını 1,9 faiz bəndi üstələyərək 3,4 faiz olmuşdur.

Bu dövr ərzində gəlirlərin 70,3 faizi son istehlaka, 9,1 faizi vergilər, sosial sığorta və üzvlük haqlarının, 2,6 faizi kreditlər üzrə faizlərin ödənilməsinə, 18,0 faizi isə əmanətlərin və kapitalın artırılmasına yönəldilmişdir.

Əhalinin sərəncamında qalan 19,1 milyard manatlıq gəlir əvvəlki ildəki ilə müqayisədə 5,2 faiz çox olmuşdur.

Cədvəl 69

**Əhalinin gəlirlərinin əsas göstəriciləri**

| | 2014-cü il yanvar-iyul aylarında faktiki | Əvvəlki ilin müvafiq dövrünə nisbətən, faizlə *) |
|---|---|---|
| Əhalinin nominal gəlirləri, mlyn. manat | 21019,3 | 104,7 |
| hər nəfərə, manat | 2239,1 | 103,4 |
| Sərəncamda qalan gəlirlər, mlyn. manat | 19104,6 | 105,2 |
| hər nəfərə, manat | 2035,1 | 103,9 |

*) əvvəlki dövrlərin göstəriciləri əldə olunmuş yeni məlumatlar əsasında dəqiqləşdirilmişdir.

## Əmək haqqı

2014-cü ilin yanvar-iyun aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq əmək haqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 6,3 faiz artaraq 439,8 manat təşkil etmişdir. Əmək haqqı neft sektorunda 1777,6 manat, qeyri-neft sektorunda 406,0 manat, dövlət bölməsində 354,3 manat, özəl bölmədə 566,5 manat təşkil etmişdir.

Digər fəaliyyət növləri ilə müqayisədə mədənçıxarma sənayesində, maliyyə və sığorta fəaliyyətində, informasiya və rabitədə, peşə, elmi və texniki fəaliyyət sahəsində, tikintidə orta aylıq nominal əmək haqqı daha yüksək olmuşdur.

Bu dövrdə müəssisə və təşkilatlarda çalışan kənar əvəzçilərin orta aylıq əmək haqqı 268,7 manat və mülki-hüquqi xarakterli müqavilələr üzrə işləyənlərin orta aylıq əmək haqqı 304,1 manat təşkil etmişdir.

## Sosial təminat

2014-cü il iyul ayının 1-i vəziyyətinə Azərbaycan Respublikasının Dövlət Sosial Müdafiə Fondu sistemində 1285,0 min nəfər pensiyaçı qeydiyyatda olmuş və ölkə əhalisinin 13,6 faizini təşkil etmişdir. Pensiyaçıların 61,1 faizi yaşa, 28,1 faizi əlilliyə, 10,8 faizi isə ailə başçısını itirməyə görə pensiya alır.

Təyin olunmuş aylıq pensiyaların orta məbləği ötən ilin müvafiq dövrü ilə müqayisədə 12,3 faiz artaraq 172,2 manat təşkil etmiş və orta aylıq əmək haqqının 39,2 faizinə bərabər olmuşdur.

Qrafik 43

**Pensiyaların orta aylıq və əmək pensiyalarının baza hissəsinin (minimum pensiya) aylıq məbləği, manatla**




Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fondunun məlumatlarına əsasən, cari ilin yanvar-iyun aylarında pensiya və müavinətlərin maliyyələşdirilməsinə 1393,3 milyon manat, yaxud əvvəlki ilin müvafiq dövrünə nisbətən 176,7 milyon manat və ya 14,5 faiz çox vəsait yönəldilmişdir. Pensiya xərcləri 2013-cü ilin müvafiq dövrünə nisbətən 14,6 faiz artaraq 1359,6 milyon manat təşkil etmişdir.

2014-cü ilin altı ayı ərzində əhaliyə 33,7 milyon manat məbləğində müavinət ödənilmişdir ki, bunun da 31,5 faizi

hamiləliyə və doğuma görə, 27,3 faizi əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə, 16,9 faizi dəfn üçün ödənilən, 24,3 faizi isə digər müavinətlərin payına düşür.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin məlumatlarına görə, iyul ayının 1-i vəziyyətinə 332,2 min nəfərə sosial müavinətlər təyin olunmuşdur. Yaşa görə müavinət alanların sayı 13,2 min nəfər, əlilliyə görə 125,3 min nəfər, ailə başçısını itirməyə görə 39,4 min nəfər, sağlamlıq imkanları məhdud olduğuna görə müavinət alan 18 yaşadək uşaqların sayı isə 64,8 min nəfər olmuşdur.

Əmək pensiyası almaq hüququ olmayan 55,1 min nəfərə kommunal, nəqliyyat və digər xidmətlərə görə güzəştlərin əvəzinə müavinət verilmişdir.

Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların 517 nəfər qəyyumuna, eləcə də 9,9 min ailəyə 19,2 min uşaq üçün aylıq müavinət verilmişdir. Uşaq müavinətlərini şəhid ailələrinin, müharibə əlillərinin, I və II qrup Çernobıl AES əlillərinin və müddətli hərbi xidmət qulluqçularının uşaqları almışlar. Bundan əlavə, 5,9 min 1 yaşadək uşağa görə 5,8 min ailəyə sosial müavinət verilmişdir.

Əmək xəsarəti və ya peşə xəstəliyi nəticəsində 498 zərərçəkən kompensasiya almışdır.

Bununla yanaşı, 60,9 min nəfərə, o cümlədən 53,2 min uşağın doğulmasına görə, 4,5 min nəfərə radiasiya qəzası nəticəsində əlil olmuş şəxslərin müalicəsi üçün, 2,0 min nəfərə penitensiar müəssisələrində cəza çəkməkdən azad edilmiş şəxslərə və həyatını itirmiş 1,2 min nəfərin dəfni üçün birdəfəlik müavinət verilmişdir.

2014-cü ilin ilk yarımili ərzində Azərbaycan Respublikası qarşısında xüsusi xidmətlər göstərmiş 50,2 min nəfər aylıq təqaüd almışdır.

Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 17 mart tarixli 128 nömrəli Fərmanına əsasən əlillik ümumi xəstəlik, hərbi xidmət dövründə xəstələnmə, əmək zədəsi və peşə xəstəliyi, hərbi əməliyyatlar keçirilən zonada olmaqla əlaqədar və Çernobıl AES-də qəzanın ləğvi ilə əlaqədar səbəblərdən baş

verdikdə I qrup əlil olaraq sosial müavinət alan vətəndaşlara aylıq məbləği 60 manat müəyyən olunmaqla Azərbaycan Respublikası Prezidentinin təqaüdü təsis edilmişdir.

Bununla yanaşı, əlillərin sosial müdafiəsini gücləndirmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 17 mart tarixli 129 nömrəli Fərmanına əsasən 2014-cü ilin aprel ayının 1-dən müharibə əlillərinə təyin edilmiş Azərbaycan Respublikası Prezidentinin təqaüdünün aylıq məbləği I qrup müharibə əlilləri üçün 36,4 faiz, II qrup üçün 52,9 faiz, III qrup üçün 66,7 faiz artırılmış və müvafiq olaraq 150, 130 və 100 manat müəyyən edilmişdir.

Cari ilin iyul ayının 1-i vəziyyətinə ölkədə 126,6 min ailənin 555,2 min nəfər üzvü ünvanlı dövlət sosial yardımı almış və hər bir nəfərə orta hesabla 29,36 manat ödənilmişdir.

# Demoqrafik vəziyyət

Ölkə əhalisinin sayı ilin əvvəlindən 51,8 min nəfər və ya 0,5 faiz artaraq 2014-cü ilin iyul ayının 1-i vəziyyətinə 9528,9 min nəfərə çatmışdır. Bir kvadrat kilometrə əhalinin sıxlığı 110 nəfər olmuşdur. Əhalinin ümumi sayının 53,2 faizi şəhər, 46,8 faizi kənd sakinləri, 49,7 faizi kişilər, 50,3 faizi qadınlar, 22,4 faizi 0-14 yaşda, 71,8 faizi 15-64 yaşda, 5,8 faizi isə 65 və yuxarı yaşda olanlardır. Hazırda hər 1000 nəfər kişiyə 1011 nəfər qadın düşür.

Cədvəl 70

**Əhalinin təbii hərəkətinin əsas göstəriciləri**

| | Yanvar–iyun | | | | | |
|---|---|---|---|---|---|---|
| | min | | | əhalinin hər 1000 nəfərinə[1)] | | |
| | 2014 | 2013 | artım (+) azalma (-) | 2014 | 2013 | 2014-cü il 2013-cü ilə nisbətən, faizlə |
| Təbii artım | 51,3 | 54,1 | -2,8 | 11,0 | 11,8 | 93,2 |
| Doğulanlar | 79,6 | 82,2 | -2,6 | 17,1 | 17,9 | 95,5 |
| Ölənlər | 28,3 | 28,1 | 0,2 | 6,1 | 6,1 | 100,0 |
| Nikahlar | 38,8 | 38,6 | 0,2 | 8,3 | 8,4 | 98,8 |
| Boşanmalar | 5,9 | 5,7 | 0,2 | 1,3 | 1,2 | 108,3 |

[1)] *Əmsallar il üçün hesablanmışdır*

Cari ilin yanvar-iyun ayları ərzində ölkədə 79,6 min körpə doğulmuş və əhalinin hər 1000 nəfərinə hesabı ilə bu göstərici 17,1 təşkil etmişdir. Doğulanların 53,6 faizini oğlanlar, 46,4 faizini qızlar təşkil edir. Doğulan körpələrin 1396-sı əkiz, 30-u isə üçəm doğulmuşdur.

Qrafik 44




2014-cü ilin ilk altı ayı ərzində 28,3 min ölüm halı qeydə alınmış və əhalinin hər 1000 nəfərinə hesabı ilə ötən ilin müvafiq dövrü ilə müqayisədə ölüm əmsalı dəyişməyərək eyni səviyyədə (6,1) qalmışdır.

İlin əvvəlindən rəsmi orqanlar tərəfindən ölkədə 38,8 min nikah və 5,9 min boşanma halları qeydə alınmış və ötən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə hesabı ilə nikahların sayı 8,4, boşanmaların sayı isə 1,2 təşkil etmişdir.

Cari ilin birinci yarısında Dövlət Miqrasiya Xidmətinin və Daxili İşlər Nazirliyinin müvafiq qurumları tərəfindən Azərbaycana daimi yaşamaq üçün 830 nəfər gələn və 401 nəfər ölkədən gedən qeydə alınmışdır.

# Hüquqpozmalar

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin məlumatlarına əsasən, 2014-cü ilin yanvar-iyun ayları ərzində ölkədə 12231 cinayət faktı qeydə alınmış və əhalinin hər 100 min nəfərinə hesabı ilə 128 cinayət hadisəsi qeydə alınmışdır. Qeydə alınmış cinayətlərin 56,8 faizi az ağır, 30,7 faizi böyük ictimai təhlükə törətməyən, 12,5 faizi ağır və xüsusilə ağır cinayətlərə aiddir.

Hesabat dövründə cinayətlərin strukturunda 2220-si şəxsiyyət əleyhinə, 5494-ü iqtisadi sahədə törədilən, 3787-si ictimai təhlükəsizlik və ictimai qayda əleyhinə, 730-u dövlət hakimiyyəti əleyhinə olan cinayətlərdir.

Qeydə alınmış cinayətlərin 133-ü qəsdən adam öldürmə və adam öldürməyə cəhd, 183-ü qəsdən sağlamlığa ağır zərər vurma, 11-i işgəncə vermə, 16-sı adam oğurluğu (o cümlədən, 15-i evlənmək məqsədilə qadın oğurluğu) cinayətlərinə aiddir. 104 cinayət hadisəsi xarici ölkələrin, onların 18-i MDB-yə üzv olan ölkələrin vətəndaşları tərəfindən törədilmişdir.

2014-cü ilin birinci yarısında ötən ilin müvafiq dövrü ilə müqayisədə rüşvət cinayətləri 61,0 faiz, qanunsuz sahibkarlıq cinayətləri 34,3 faiz, insan alveri ilə bağlı və torpaq üzərində mülkiyyət hüququnu pozma cinayətləri 24,0 faiz, hərəkət təhlükəsizliyi və nəqliyyat vasitələrinin istismarı qaydaları əleyhinə olan cinayətlər 15,6 faiz, xuliqanlıq cinayətləri isə 9,6 faiz azalmışdır.

Cari ilin 6 ayı ərzində narkotiklər və güclü təsiredici vasitələrin qanunsuz dövriyyəsi ilə bağlı 1822 cinayət hadisəsi qeydə alınmış və onların 28,1 faizi satış məqsədi ilə törədilmişdir.

Əməliyyat istintaq tədbirləri nəticəsində ötən il qeydə alınmış cinayətlərin 46,2 faizi açılmışdır. Açılmış cinayətlərin 836-sı əvvəllər cinayət törətmiş, 540-ı qrup şəklində, 200-ü sərxoş vəziyyətdə, 181-i 18 yaşadək uşaqlar tərəfindən və ya onların iştirakı ilə, 330-u isə narkomanlar və ya narkotik təsir altında olan şəxslər tərəfindən törədilmişdir.

2014-cü ilin birinci yarısında aşkarlanmış hüquqpozucularının 82,9 faizi cinayət məsuliyyətinə cəlb olunmuşdur. Aşkar olunmuş hüquqpozucuların 77,2 faizi əmək qabiliyyətli yaşda olub, heç bir yerdə oxumayan və işləməyənlər, 13,0 faizi əvvəllər cinayət törətmiş şəxslər, 4,6 faizi sərxoş vəziyyətində olan şəxslər, 5,9 faizi qadınlar, 3,2 faizi isə 18 yaşadək uşaqlardır.

Hesabat dövründə qeydə alınmış 312 cinayət hadisəsi məişət zorakılığı ilə bağlı olmuş və onların 10,3 faizi sərxoş vəziyyətdə, 9,6 faizi əvvəllər cinayət törətmiş şəxslər tərəfindən törədilmişdir. Məişət zorakılığı nəticəsində baş vermiş cinayətlərin 93,9 faizi qəsdən sağlamlığa az ağır və yüngül zərər vurma, 1,3 faizi qəsdən adam öldürmə və adam öldürməyə cəhd, 4,8 faizi isə digər cinayətlərdir.

**Azərbaycan Respublikasının**
**Dövlət Statistika Komitəsi**
**sədrinin birinci müavini** **Həmid Bağırov**